

Nazir AMEA Prezidenti İsa Həbibbəyliyə xəbərdarlıq edib ki...

Səh: 3-də




Professor iqtisadi təhlillərini ortaya qoydu: biz necə yaşayırıq?

Səh: 8-də



General-mayor Həzi Aslanovla bağlı şok xəbəri Azərbaycana kim gətirib?!

Səh: 11-də

Azərbaycan Qarabağ - Qarabağ Azərbaycandır!


www.tezadlar.az

# TƏZADLAR

tezadlar@gmail.com





№02 (2390) * 25 fevral 2025-ci il * İctimai-siyasi hüquq qəzeti * Qəzet 1993-cü ildən çıxır * Qiyməti 50 qəpik

# Hakim Orxan Həsənovun qanunsuz hərəkətindən Məhkəmə Hüquq Şurasına şikayət olundu

*"Hörmətli İnam müəllim, Bakı İnzibati Məhkəmənin hakimi Orxan Həsənov cavabdehə vəkillik edirdi və..."*



Bax: səh.8



*İki ölkə arasında imzalanmış sənədlər mübadilə edildi*

Bax səhifə 2

## Pakistanın Baş naziri Zəfər parkını ziyarət etdi ✓2

## Xanım dələduz! - Kimlər toruna düşüb? ✓4

## Xətaidəki "qadın türmə"sinin yerində nə tikilir? ✓6

## Bakının mərkəzində daha bir neçə tarixi bina işbazların tamahına qurban gedir ✓7

## "Poz qazan" - vur dolsun qazan ✓9

## Onların Qarabağda törətdiyi qanlı cinayətlər sərhəd tanımır! ✓10

Bax səh.3

# Milli Mətbuatimizin 150 illik yubiley medali: kimlər iddialidir, kimlər layiqli?

Bax səhifə 4



Mediamiz bu gün: yayımlanan xəbərlərin nə qədəri Azərbaycana aid deyil?

Bax səhifə 5



Qorxmaz Təhməzli "Avaz Group" vasitəsi ilə 17,8 milyonluq tenderi necə udub?

## "Oğuzda "meşə qırğını": "Təzadlar" araşdırmalara başladı" yazısına Oğuz RİH-dən cavab gəldi ✓2




"Boqatırskaya" "tuşonka"nın ətdən xəbəri yoxdursa...- SAXTAKARLIQMI? ✓2



İvanişvilinin 480 milyonluq varidatı Gürcüstana gətirildi - Bəs bizimkilərinki?? ✓3



# Pakistanın Baş naziri Zəfər parkını ziyarət etdi

**Azərbaycan Respublikasında dövlət səfərində olan Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif fevralın 24-də Bakıda Zəfər parkını ziyarət edib.**

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Pakistanın Baş naziri parkdakı Zəfər abidəsinin önünə əklil qoyub.

Sonra ali qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verildi. Bildirildi ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

Xatırladaq ki, parkın açılışı 2024-cü il noyabrın 8-də Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə olub.

# İki ölkə arasında imzalanmış sənədlər mübadilə edildi

**Azərbaycan ilə Pakistan arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə mübadiləsi mərasimi olub.**

**"Tezadlar.az" xəbər verir ki, bununla bağlı Prezidentin Mətbuat Xidməti məlumat yayıb.**



Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə "Frontier Works Organisation" (FWO) və "Pakistan Refinery Limited" şirkəti arasında Anlaşma Memorandumunu Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və "Frontier Works Organisation" şirkətinin Baş direktoru Abdul Sami mübadilə ediblər.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə "Pakistan Refinery Limited" (PRL) və "Pakistan State Oil Company Limited" şirkəti arasında Anlaşma Memorandumunu Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və "Pakistan Refinery Limited" şirkətinin İcraçı direktoru Zahid Mir mübadilə ediblər.

"SOCAR Trading SA" ilə "Pakistan LNG Limited" arasında mayeləşdirilmiş təbii qaz yüklərinin alqı-satqısı ilə bağlı Çərçivə Sazişinə 1 nömrəli Əlavəni Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və "Pakistan LNG Limited" şirkətinin İcraçı direktoru Masood Nabi mübadilə ediblər.

"SOCAR Trading SA" ilə Pakistan İslam Respublikasının "Pakistan State Oil Company Limited" şirkəti arasında Anlaşma Memorandumunu və "SOCAR Trading SA" ilə Pakistan İslam Respublikasının "Pakistan State Oil Company Limited" şirkəti arasında neft məhsullarının uzunmüddətli alqı-satqı Sazişini Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və "Pakistan State Oil Company Limited" şirkətinin İcraçı direktoru Syed Muhammad Taha mübadilə ediblər.

"Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri və Pakistan İslam Respublikasının Pəncab Əyalətinin Lahor şəhəri arasında mədəniyyət, turizm, şəhərsalma, təhsil, elm, iqtisadiyyat və ictimai həyatın digər müvafiq sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Pakistanın Baş nazirin müavini, xarici işlər naziri Məhəmməd İşaq Dar mübadilə ediblər.

Qeyd edək ki, səfər çərçivəsində, həmçinin "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Pakistan İslam Respublikasının Federal Gəlirlər Şurasının Gömrük Xidməti arasında ilkin elektron məlumat mübadiləsi haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Pakistan İslam Respublikasının Milli Ərzaq Təhlükəsizliyi və Tədqiqatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Pakistan İslam Respublikasının İqlim Dəyişmələri və Ətraf Mühitin Koordinasiyası Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Niyyət Protokolu", "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ilə Pakistanın Milli Müdafiə Universiteti arasında elmi tədqiqat və əməkdaşlıq fəaliyyətləri sahəsində Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə Pakistan İslam Respublikasının Milli Peşə və Texniki Təlim Komissiyası (NAVTTC) arasında peşə təhsili sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

# Mətləb Bağırova - 12 il həbs



**"SalamNews" informasiya agentliyi və "İnteraz"ın çoxsaylı cinayətlərdə ittiham olunan rəhbəri Mətləb Bağırova hökm oxunub.**

Onun işinə Bakı Ağır Cinayətlər Məhkəməsində baxılıb.

O, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs edilib. Cinayət Məcəlləsinin 162-1.1-ci maddəsi (Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi), 167-3.1-ci maddəsi (Dini ekstremist materialları saxlama), 193.2.2-ci maddəsi (Xüsusilə külli miqdarda gəlir əldə etməklə yalançı sahibkarlıq), 193-1.3.2-ci maddəsi (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda pulları leqallaşdırma) və digər maddələri ilə ittiham edilib. Leyla Əsgərova-Məmmədovanın sədrlik etdiyi hakimlər müttəhimi ittiham edildiyi bütün maddələrlə təqsirli bilib.

Hökmə əsasən, M.Bağırov 12 il müddətinə azadlıqdan məhrum edilib. O, cəzasını başa vurduqdan sonra 3 il jurnalist fəaliyyəti ilə məşğul ola bilməz.

# Bu halda istefa verə biləcəyini bəyan etdi



**"Sülh üçün lazım gələrsə, prezidentlik postundan istefa verə bilərəm".**

Bu sözləri Ukrayna prezidenti Volodimir Zelenski bildirib. O, həmçinin keçirdiyi mətbuat konfransında ABŞ və NATO ilə bağlı açıqlamalar da verib.

Ukraynada sülhü təmin etmək üçün prezidentlikdən istefa verməyə hazır olduğunu bildirən Zelenski, belə bir fürsət olarsa, NATO-ya üzvlük müqabilində istefa verə biləcəyini deyib.

# "Oğuzda "meşə qırğını": "Təzadlar" araşdırmalara başladı" yazısına Oğuz RİH-dən cavab gəldi




**"Tezadlar.az saytının 20 fevral tarixli buraxılışında yayımlanmış "Oğuzda "meşə qırğını": "Təzadlar" araşdırmalara başladı" məzmunlu yazısına Oğuz rayon İcra Hakimiyyətindən cavab gəldi. RİH-nin rəsmi elektron poçtundan daxil olmuş cavabda deyilir: "Məsələ ilə bağlı 15 saylı Regional Meşə Təsərrüfat Mərkəzidən verilən məlumata əsasən bildiririk ki, qeyd edilən məsələ məhkəmə icraatındadır. Məhkəmənin yekun qətnaməsindən sonra işin nəticəsi bardə əlavə məlumat veriləcək".**

Qeyd edirik ki, adı çəkilən yazıda Oğuz şəhəri, yeni massiv sakini Əbdülxalıqov Hamil Ələddin oğlu tərəfindən "Təzadlar"a təqdim edilmiş şikayət məktubunda bildirilirdi ki, "15 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin Oğuz rayonu üzrə mühəndis vəzifəsini icra edən Məmmədov Valeh Yaqub oğlu ETSN-də həmyerlisi olan Meşələrin İnkişafı Xidməti rəisi Ramik Əşrəfov və ETSN 8 saylı Ekologiya İdarəsinin müdiri olan qardaşı Akif Məmmədovun himayədarlığı sayəsində meşə qırğını ilə məşğuldur..." və s.

Xatırladırıq ki, bu şikayət-müraciət "Media haqqında" və "İnformasiya əldə etmək haqqında" qanunların tələblərinə uyğun olaraq ictimailəşdirilməmişdən əvvəl nazirlik rəhbərliyinə və digər aidiyyəti qurumlara, məsul şəxslərə mövqe bildirilməsi üçün göndərilmişdi... Nazirlikdən hələki rəsmi cavab yoxdur.

Nəticəsi barədə əlavə məlumat veriləcək.

**"Təzadlar"**

# "Boqatırskaya" "tuşonka"nın ətdən xəbəri yoxdursa...- SAXTAKARLIQMI?

**İstehlakçı hüquqlarının kobud surətdə tapdanması az qala hər addımda rast gəlirik. Amma bəzən elə aldatmalar ola bilir ki, o qədər də fərqində olmuruq. Və bəzən düşünürük ki, bu həyat və sağlamlığımıza risqli və ya təhlükəli deyilsə, "cəhənnəmə olsun!" deyərək aidiyyəti dövlət qurumlarına şikayətnamələrdən də vaz keçməli oluruq. Amma bu dəfə redaksiyamıza gətirilən bir məhsul barədə ictimaiyyəti məlumatlandırmaqdan vaz keçmədik... Söhbət ölkənin iri ticarət mərkəzlərinə yol açan "Boqatırskaə tuşonka"nın mənşəyindən gedir...**




## Ətsiz "boqatırskya tuşonka"sı

Hələlik qısa olaraq deyək ki, redaksiyamıza müraciət edən paytaxt sakini E.Məmmədov şəklini və videogörüntüsünü təqdim etdiyimiz "tuşonka"nı bizə təqdim etdi. Əvvəlcə məhsulun üzərində yazılanlara diqqət yetirdik. Yazılır ki, guya bu tuşonkanı Rusiyanın "Orelprodukt" Səhmdar Cəmiyyəti istehsal edib və əsl qədim rus mətbəxinin məhsuludur və s.

Həmin tuşonkanın fotoşəkillərini təqdim edəcəyik və bütün məlumatlar rəsmi olaraq orada yazılıb.

Qayıdırıq tuşonkanın tərkibinə: şikayətçi E.Məmmədovun iştirakı ilə həmin məhsulu açıb içərisindəkinə baxırıq. Hansı ki, məhsulun üzərində yazılanlarda qeyd edilir ki, guya tuşonka ət parçalarından ibarətdir və s.

Redaksiyada məhsulu qızdırıcıda isidən kimi isə boz-bulanıq bir məhlulun şahidi olduq. Ətdən isə əsər-əlamət yox idi. Əksinə, məlum oldu ki, tuşonka heyvanın qır-qırıntılarından ibarət çürüntüyəbənzər bir qarışıqdan ibarətdir və s.

Bəs "Şam Fİ-İnterneşnl Tredinq Komnani" MMC bu məhsulun Bakıda yeganə dileridirsə, dadına və içərisinə baxmadan onu ölkəyə necə idxal edib?

Yaxşı, tutalım Rusiya şirkəti tərifli və bər-bəzəkli reklamlı məhsulunu istədiyi ölkəyə sata bilər. Bu onun vicdanına. Bəs bizim ölkəyə onu idxal edənlər necə, bu məhsulun keyfiyyət sertifikatının real məhsula uyğunluğunu öyrənmirlər ki?! Məsələ ondadır ki, həmin məhsulu (redaksiyamızın soyuducusunda saxlanılır) Azərbaycana idxal edən "Şam Fİ-İnternеşnl Tredinq Komnani" MMC-dir. Doğrudanmı MMC rəsmiləri bu məhsulu açıb dadına və etiketində yazılanlara uyğunluğunu müəyyənləşdirməyiblər?!

Bunu deyə bilmərik və araşdırmamız davam edir. Bəs ölkəyə gətirilən ərzaq məhsullarının keyfiyyəti necə, Gömrük Komitəsinin məntəqələrindəki laboratoriyalarda da yoxlanılmır? Bəlkə onun içərisinə narkotik doldurub gətirirlər? Hansı ki, kriminal statistikada belə hallara həmişə rast gəlinir...

***

İndi adı çəkilən məhsulun mənşəyini və keyfiyyətini, eləcə də etiketindəki cəlbedici təqdimatını aidiyyəti üzrə oxucuların ixtiyarına buraxırıq. Əgər adı çəkilən şirkət bu məhsulun Bakıda yeganə gətiricisidirsə, dadına və içərisinə baxmadan onu ölkəyə necə idxal edib?

Məsələyə dair aidiyyəti rəsmi qurumların da mövqeyini təqdim edəcəyik.

**"Təzadlar"ın Araşdırma Qrupu**

**Xəbər verdiyimiz kimi, Medianın İnkişafı Agentliyinin təklif və təşəbbüsü ilə Azərbaycan Milli Mətbuatının 150 illiyi (1875-2025)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik olunacaq. Dəyişiklik layihəsi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirə də edilib. Müzakirələrfə bildirilib ki, mətbuat sahəsində xüsusi xidmətləri olan, həmçinin media qanunvericiliyinin təkmilləşdirilməsinə xidmət edən şəxslərə milli mətbuatın 150 illik yubileyi ilə əlaqədar təsis edilən medal veriləcək. Layihə müzakirələrdən sonra parlamentin plenar iclasına tövsif olunub.**

# Milli Mətbuatimizin 150 illik yubiley medali: kimlər iddialidir, kimlər layiqli?

*"Azərbaycan Mətbuat Şurası, Medianın İnkişafı Agentliyi, Prezidentin mətbuatla işləyən müvafiq köməkçisi bir araya gəlməli, bağlı qapılar arxasında müzakirə açmalıdırlar ki, hansı kateqoriyadan olan insanlara bu medal veriləbilər"*



Artıq indidən medalın kimlərə verilib- verilməyəcəyi ilə bağlı müxtəlif fikirlər səslənməkdə, müzakirələr aparılmaqdadır. Müzakirələrdə iştirak edənlərin çoxu bu təşəbbüsü alqışlamaqla yanaşı, narahatlıqlarını da ifadə edirlər ki, görəsən bu medal da vaxtilə kütləvi şəkildə kimə gəldi verilən "Əməkdar jurnalist" fəxri adının aqibətini yaşamayacaq ki!?

Xatırladırq ki, "Təzadlar" jurnalistlərə verilən fəxri adlarla bağlı ciddi araşdırmalar aparıb və məlum olurdu ki, "Əməkdar jurnalist" adı alanların bir çoxunun, ümumiyyətlə, ya jurnalistikaya aidiyyəti yoxdur, ya da onların əməkdarlığının izi-sorağı mətbuatda hiss edilmir.

***

"Təzadlar"ın baş redaktoru Asif Mərzili Milli Mətbuatımızın 150 illiyi şərəfinə təsis olunacaq yubiley medalı ilə bağlı mediada aparılan müzakirələrə toxunub. Sitat: "...Medianın İnkişafı Agentliyinin təşəbbüsü alqışa layiqdir və ən azından Azərbaycan cəmiyyəti bir daha Zərdabi məktəbinin keçdiyi yolun hardan gəlib keçdiyini bildirən daha bir rəsmiyyətlə yaddaşını təzələyəcək... O ki qaldı medalın kimlərə veriləcəyinə, hesab edirəm ki, keçmiş illərin acı təcrübəsi hamını narahat edir. Məsələn, tanıdığım adamlar var ki, adicə korrektordur, amma Əməkdar jurnalist statusuna malik edilib... Yaxud, çoxsaylı beləələri var ki, mətbuatda yaddaqalan hansısa bir jurnalist yazısı ortada yoxdur. Mən hələ onu demirəm ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında hansısa heç məqaləsini, yazısını demirəm, heç olmasa cəhdinə belə rast gəlmirik... Mətbuatda Mətbuat Şurasının sədri Rəşad Məcidin, professor Qulu Məhərrəmlinin və Əməkdar jurnalist Azər Həsrətin fikirlərinə rast gəldim. Dəyərli açıqlamaları və fikirləri var, dəstəkləyirəm. Amma Azər Həsrətin bu fikirləri diqqətimi xüsusilə çəkdi. Jurnalist haqlı olaraq bildirir ki, adətən belə tədbirlər olanda iddia edənlərin sayı həddindən artıq çox olur. Sitat: "Misal üçün, Əməkdar jurnalist fəxri adına, ayrı-ayrı medallara, ordenlərə iddia edənlər çoxdur. Hətta şəxsən mənim özümə də illərlə müraciət edənlər olub ki, təqdimatımızı verməyə kömək edin, fəxri ad alaq, yaxud təltif olunaq deyə.

*"Tanıdığım adamlar var ki, adicə korrektordur, amma Əməkdar jurnalist statusuna malik edilib..."*

Mən də soruşmuşam ki, hansı xidmətlərinə görə? Onda da mənə deyiblər ki, bəs filankəsə hansı xidmətlərinə görə verilib? Belə sualların olmaması üçün meyarlar dəqiq elan edilməlidir. Kifayət qədər vaxtımız var. İyul ayının 22-sinə qədər yarım il vaxtımız var. Bunun üçün Azərbaycan Mətbuat Şurası, Medianın İnkişafı Agentliyi, Prezidentin mətbuatla işləyən müvafiq köməkçisi bir araya gəlməli, bağlı qapılar arxasında müzakirə açmalıdırlar ki, hansı kateqoriyadan olan insanlara bu medal verilə bilər. Yəni, filankəsin dostudur, qohumudur, yerlisidir, bunu filankəs təqdim elədi, xahiş etdi kimi məsələlər yığışdırılmalıdır. Azərbaycan mətbuatı qarşısında həqiqətən də xidmətləri olan, jurnalistikanın standartlarına uyğun olan insanlara verilməlidir bu medal. Özü də çox insanlara deyil, az sayda həqiqi media mənsublarına təqdim etməliyik. Yəni, ucdantutma kimə gəldi medal versək, onu gözdən salacağıq.

Bir sözlə, beynəlxalq səviyyədə Azərbaycanı müdafiə etməyi bacaran, bunun üçün işlər görən şəxslər ilk kateqoriyada olmalıdır. Belələrinə medal vermək olar. Yoxsa elə adamlar var ki, şəxsən mən də tanıyıram, vaxtilə müxtəlif mükafatlar, təltiflər alıblar. Bəzən olur Azərbaycan dövləti, prezidenti, ümumiyyətlə, hər şeyimiz təhqir edilir, kimlərsə üstümüzə gəlir. Amma o adamlar susurlar. O adamlara mən dəfələrlə demişəm ki, siz də bu məsələlərə reaksiya verin, mövqe bildirin. Onlar yaxalarını kənara çəkiblər, boyun qaçırıblar. Amma görəcəksiniz, həmin adamlar yenə gələcəklər ki, mənə də medal verilsin. Mən düşünürəm ki, dövlətimiz monitorinq aparmalı, kimin kim olduğu burada ayırd edilməlidir. Yoxsa, ucdantutma medalpaylama olacaqsa, bu medal artıq dəyərini, əhəmiyyətini itirəcək. Ona görə də dəyər məsələsində diqqətli olmalıyıq. Hər yoldan ötənə medal verilməməlidir".

Tamamilə doğru fikirlərdir. Təklif edərdim ki, bu dəfə "Əməkdar jurnalist" adının verilməsi "təcrübəsi" bir kənara qoyulsun və Azərbaycan jurnalistlərinin inanıb etibar etdiyi təcrübəlilərdən ibarət xüsusi işçi qrup yaradılsın, Medianın İnkişafı Agentliyinin nəzarəti altında, çünki təşəbbüskarlıq bu quruma məxsusdur, daxil olan təkliflər paketi təhlil edilsin... Sonra qərar verilsin. Onsuz da indiki elektron media əsrində kimin jurnalistikada izi olduğunu asanlıqla müəyyənləşdirmək mümkündür... Yəni, inanmaq istərdim ki, bu sahədə seçim elə olsun ki, Zərdabi babamızın bu günümüzə ərməğan etdiyi "Əkinçi"nin adına hörmət gətirən bir seçim kimi tarixləşsin...".

**Elbar ŞİRİNOV**



# Milli Mətbuatın 150 illiyi medalı hazırdır, qalır...

**"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı təsis edilib. Bununla bağlı Prezident İlham Əliyev müvafiq Fərman imzalayıb. "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin İcraçı direktoruna verilib.**

# Nazir AMEA Prezidenti İsa Həbibbəyliyə xəbərdarlıq edib ki...



**Sirr deyil ki, elm və təhsil ocaqlarına fəaliyyətinə və ixtisaslaşma, eləcə də tabeliyinə görə "universitet", "akademiya", "institut" adı verilir. Amma eləəri var ki, bu ada uyğun heç bir fəaliyyəti yoxdur. Bu uyğunsuzluq keçmiş dövrlərdə olduğu kimi, indi də davam edir.**

Görünür elm və təhsil naziri Emin Əmirullayevi də narahat etməkdədir. Nazirin "Biz qurumlara "universitet", "akademiya", "institut" kimi adların verilməsinə yenidən baxmalıyıq", -deməsi də təsadüfi deyil. Naziri Emin Əmrullayev AMEA-nın Ümumi yığıncağında çıxışı zamanı AMEA-nın prezidenti İsa Həbibbəylinin diqqətinə bunu deməklə, görünür, həm də bildirmək istəyib ki, AMEA nəzdində nə qədər fəaliyyətsiz institutlar var. Dövlət büdcəsindən bu institutlara havayı yerə pul ayırmağa dəyərmi?. Nazir əlavə edib: "Azərbaycanın bəzi ali təhsil müəssisələri çox spesifik, ixtisaslı fəaliyyət göstərir. Bir qurumun adını "institut"-dan dəyişib "universitet" edəndə ölkədə elm inkişaf etmiş olmur".

Bəli, bizdə alimlər var, amma onların məhsuldar elmi yoxdur. Dövlət isə onlara bu adı daşıdıqlarına görə hər ay təqaüd verir...

**A.Məmmədli**

**Neçə vaxtdır mübahisələndirildiyi kimi, "Gürcü arzusu"nun fəxri sədri Bidzina İvanişvili sanksiya çağırışlarından sonra 480 milyon dollardan çox sənət əsərlərini ABŞ və Böyük Britaniyadan Gürcüstana gətirib.**

# İvanişvilinin 480 milyonluq varidatı Gürcüstana gətirildi - Bəs bizimkilərinki???

*"Azərbaycanda da bir çox iş adamları və məmurların (keçmiş və indiki) xarici ölkələrdə milyardlarla varidatı var. Bəs onların Azərbaycana gətirilməsi üçün nə etmək lazımdır?"*



Tezadlar.az Gürcüstan mediasına istinadla xəbər verir ki, bu barədə Gürcüstanın Gəlirlər Xidmətinin operativ statistika veb-saytında məlumat yayılıb. Hesabata görə, idxal üç bağlama vasitəsilə həyata keçirilib. Onlardan ikisi ABŞ-dan, biri isə Böyük Britaniyadan göndərilib. Rəsmlərin və onların daşınma qutularının ümumi çəkisi 6.6 ton təşkil edib. Bu gün həmçinin məlum olub ki, 2025-ci ilin yanvar ayında Gürcüstanın ümumi idxalı 45% artaraq 1.6 milyard dollara çatıb. Bu artımın əsas səbəbi ölkəyə incəsənət əsərlərinin gətirilməsi olub. Əgər bu idxal baş verməsəydi, ümumi idxal 1.1 milyard dollar təşkil edəcək və illik artım cəmi 1.8% olacaqdı. İncəsənət əsərlərinin rekord həcmdə idxalı barədə sosial şəbəkədə "Qaxaria Gürcüstan Naminə" partiyasının üzvü Beka Liluaşvili paylaşım edib. O, bu idxalın Bidzina İvanişvili tərəfindən həyata keçirildiyini yazıb. Malların gömrük rəsmiləşdirilməsi 2025-ci ilin yanvar ayında baş tutub. Lakin bu idxal üçün gömrük rüsumunun ödənilib-ödənilmədiyi məlum deyil. Əgər ödənilsəydi, bu məbləğ ümumilikdə 242 milyon lari təşkil edərdi.

***

Məsələ ondadır ki, Azərbaycanda da bir çox iş adamları və məmurların (keçmiş və indiki) xarici ölkələrdə milyardlarla varidatı var. Bəs onların Azərbaycana gətirilməsi üçün nə etmək lazımdır? Hansı ki, bu vəsaitlərə amnistiya verməklə Qarabağdakı tikinti-quraşdırma layihələrinə məsrəf etmək olar.

Qeyd edim ki, 2024-cü ildə Parlamentdə "Gürcü Arzusu" yeni bir qanun qəbul edib. Bu qanuna əsasən, ofşor şirkətlərin mülkiyyətində olan aktivlərin Gürcüstana gətirilməsi gömrük rüsumlarından da azaddır.

**Asif MƏRZİLİ**

# Xanım dələduz! - Kimlər toruna düşüb?

**Tanınmış jurnalist Afət Telmanqızı daxili işlər naziri Vilayət Eyvazova müraciət ünvanlayıb. Tezadlar.az həmin müraciətin ictimai əhəmiyyətliliyini nəzərə alaraq təqdim edir:**

*"Bu qadın hazırda azadlıqdadır. Hazırda səs yazısı göndərib mənə hədə-qorxu gəlir"*



"Cənab nazir! Şəmkir rayon sakini 1980-ci il təvəllüdlü, əvvəllər məhkumluq həyatı yaşamış Cavadova Aygün Hümbət qızı şəhid qızı adı altında ( şəhid qızı deyil-red) Bakıda dələduzluq, oğurluq, saxta sənədlər düzəltməklə, insanlara zərər vurmaqda davam edir. Artıq bir neçə fakt da təsdiqini tapıb. Bu qadın yaxşı şəraiti olan mənzilləri tapır, kirayə qalmaq adı ilə mənzilə yerləşir və heç bir kirayə haqqı ödəmədən 10-15 gün mənzildə yaşayır, kirayə haqqını ödəyəcəm deməklə yalan vədlər verərək, vaxt uzadır ən sonunda kirayə qaldığı evləri qarət edib qaçır. Bu işi də tək görmür. Oğlu və bir tanşı ilə birgə silsilə oğurluqlar edir. Təəssüf ki, onun növbəti qurbanlarından biri də mənəm. Mən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri vəzifəsinə təyinatımdan və ailəliklə Xankəndi şəhərinə köçəndən sonra mənzilimin kirayə elanını vermişəm. Bu dələduz qadın da birbaşa vasitəçi olmadan özü zəng edib bizi tapıb və kirayə qalmaq istədiyini bildirib. Və Səbail rayonu, Badamdar qəsəbəsində yerləşən mənzilimdə bu ilin yanvar ayının 15-i kirayənişin kimi yerləşib. Hər dəfə zəng edib, votsap üzərindən səs göndərərək, pulu verəcəyini deyib. Nəhayət, pul ödəmədən, evi qarət edərək, yanvar ayının 30-u saat 17 radələrində evi tərk edib.

Əlimizdə video görüntülər var. Evdən nə qədər əşya çıxardığının görüntüləri də polisə təqdim olunub. (Kompyüter, planşet, telefon və sair) Soyğunçuluq edərkən istifadə etdiyi maska papaq və digər sübutlar da mənzilimdən tapılaraq, polisə təqdim olunub. Digər 2 evdən etdiyi oğurluqların da sübutunu əks etdirən səs yazıları, faktlar var. Narkotestin cavabı da ortadadır. 4 sutkalıq həbslə canını qurtarıb. Bu qadın hazırda azadlıqdadır. Hazırda səs yazısı göndərib mənə hədə-qorxu gəlir. Yalandan özünü şəhid qızı kimi təqdim edir. Şəhid qızı oğurluqmu edir?

Dələduzluqmu edir? Saxta qəbz göndərirmi? Bütün sübutlar olduğu halda qadın həbs olunmur. Digərləri üçün də təhlükə yaradır. Gələcəkdə digər qurbanların olmaması üçün, bu qadın təcili həbs edilməlidir! Cənab nazir! Siz dünən fevral ayının 16-da Xocalıda mənə də yaxınlaşıb görüşəndə bu məsələni sizin nəzərinizə çatdırmadım. Ümid edirdim ki, Səbail rayon polis idarəsinin istintaq şöbəsi bu məsələni həll edəcək.41-ci polis bölməsinin əməliyyatçılarının yaxaladığı oğrunun bir neçə gündən sonra azadlığa buraxılması və mənə təhdid- hədə dolu mesaj və səs yazıları göndərməsindən sonra sizə müraciət etməli oldum. Xahiş edirəm işi ciddi nəzarətə götürəsiniz.Təşəkkür edirəm!

**P.S. Bir videonu da oğurluqdan 2 gün öncə inandırmaq üçün çəkib göndərib ki, hər şey yerindədir guya pulu da ödəyəcək".**

**P.P.S. Müraciətdən iki gün sonra dələduz xanım tapılaraq məsuliyyətə cəlb edilib.**

# Mediamiz bu gün: yayımlanan xəbərlərin nə qədəri Azərbaycana aid deyil?

*...Təzadlar"ın apardığı araşdırmalar informasiya siyasətimizdəki bəzi problemləri üzə çıxardı...*

**...Azərbaycanın media qanunvericiliyi daim yenilənir, təkmilləşdirilir, dünya standart və ənənələrinə uyğunlaşdırılır. Hazırda çoxsaylı rəsmi və yarırəsmi, eləcə də müstəqil informasiya agentlikləri, çoxsaylı elektron media subyektləri, həmçinin ənənəvi çap mediası "Media haqqında" qanunlarımızın tələblərinə uyğun fəaliyyət göstərir. Hamı çalışır ki, qanunun tələblərinə uyğun olaraq daha dəqiq və dürüst, maraqlı, ictimai əhəmiyyətli özəl xəbərlərlə oxucusunun hüzurunda olsun. Amma...**



Bu araşdırma yazısında məqsəd mövcud media subyektlərimizin təkcə bu "Xəbərçi"likdəki rolunu deyil, həm də bu "Xəbəçilik"də istehsal olunan informasiyaların Azərbaycan mənsubiyyətini müəyyənləşdirməkdir.

"Təzadlar"ın Araşdırma Qrupu bununla bağlı bir neçə rəsmi və yarırəsmi informasiya agentliklərinin, eləcə də bir sıra elektron media subyektlərinin "Xəbərçi"liyini araşdırdı. Bir az da sadə dildə desək, məqsədimiz konkretdir: təbii ki, hər bir yerli media subyektinin əsas məqsədi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasıdır. Həmçinin Azərbaycanda baş verən bu və ya digər ictimai əhəmiyyətli hadisələrlə bağlı ölkə ictimaiyyətini məlumatlandırmaq! Bəs biz bunu necə edirik??? Gəlin görək hazırda Azərbaycan mediasında bu iki vacib şərt özünə necə tətbiq tapır? Məsələn, "Media haqqında" Qanunun 60.5.-ci maddəsində yazılır ki, "Onlayn media subyekti (redaksiyaları) hər ay 20 (iyirmi) gün ərzində bu Qanunun 13.1-ci və 13.2-ci maddələrinin tələblərinə əməl etməklə və bu Qanunun 13.3-cü maddəsində göstərilən informasiya istisna olmaqla, gündəlik azı 20 (iyirmi) kütləvi informasiya dərc etdikdə onun fəaliyyəti davamlı hesab olunur". Bu o deməkdir ki, özünü normal media subyekti sayan saytlar (bayram günləri, şənbə və bazar istisna olmaqla), gündə ən azı 20 özəl xəbər yayımlamalıdır. Bu qanunda yazılıb və mübahisə və müzakirələrdən uzağıq! Və Azərbaycanda iddialı belə saytların sayı təxminən 50-dir. Bu o deməkdir ki, ölkəmizdə fəaliyyət göstərən bu saytlar gündə 1000 özəl xəbər hazırlayıb ölkə ictimaiyyətinə, yəni oxuculara təqdim etməlidir.

Etiraf edək ki, bu olduqca böyük rəqəmdir. Şou-biznesdəki boşanmaları və xəyanət hallarını, onların qəttəzə klip təqdimatlarını, hər gün baş verən kriminal hadisələri (bunların da sayı az deyil) istisna etsək, keyfiyyətli özəl xəbər prizmasından yanaşsaq, Azərbaycan üçün bu olduqca böyük rəqəmdir. Necə deyərlər, ucuz ətin şorbası dadsız olduğu kimi, qeyd olunan şərtlər daxilində də özəl xəbər axtarışının son məhsulu "dadsız" olmaya bilməz!

Elə aşağıda təqdim ediləcək araşdırma və təhlillərin də məqsədi odur ki, mediamızdakı mövcud 20 özəl xəbər tələbinə yeni tətbiqlər əlavə olunmalı, Azərbaycan kimi əhali və buna rəğmən oxucu sayı elə də çox olmayan ölkə üçün hər gün 1000 özəl xəbər hazırlamaya yeni forma qatılmalıdır. İndiki sosial şəbəkələşmə zamanında oxucunu "duzu-istiotu" olmayan xəbərlərlə məşğul etmək fayda verməz! Və hesab edirik, daha əhəmiyyətli, gərəkli -fərqli şərtlər irəli sürmək olar. Hazırkı-mövcud tələblərə məcburən boyun əyən media subyektləri də mütləq qaydada xarici ölkələrin mediasına baş vurmalı olur. Belə olanda isə biz süni olaraq xarici ölkələrin həyat və siyasətini, idman və mədəniyyətini" təbliğ etmiş oluruq.

***

"Təzadlar"ın aşağıda təqdim olunan araşdırmasında nəticə çıxarılmalı mənzərə ilə qarşılaşdıq. Məsələn, nümunə üçün seçilən elektron media və agentliklərdə ABŞ-dan olan müğənninin başına gələn hansısa bir xəbəri oxuduq. Amma ABŞ mediasında axtarış apardıq, Azərbaycanın hansısa müğənnisi barədə eyni mahiyyətli və məzmunlu xəbərə rast gəlmədik.

Yaxud, Braziliyada baş verən zəlzələ barədə xəbər yaymışıq. Amma Braziliya mediasında Azərbaycandakı hansısa tipik bir hadisə barədə nəyəsə rast gəlinmir.

Eləcə də, Hindistanda və İndoneziyada baş vermiş sel təhlükəsi barədə. Az qala bütün media subyektlərimizdə bu barədə xəbərlər yer alıb. Amma nə Hindistanın, nə də İndoneziyanın mediasında Azərbaycanın Lənkəran şəhərindəki son su basma və evakuasiya tədbirləri barədə hansısa xəbərə rast gəlmədik.

Saytlarımızda Keniyadan olan futbolçunun transferi barədə xəbər yayımlanıb. Lakin Keniya mediasında Azərbaycan və Bakı şəhəri barədə axtarış aparsaq da, bir sözə belə rast gəlmədik.

Qısası, düşünürük ki, Azərbaycan Medianın İnkişafı Agentliyi, eləcə də Azərbaycan Mətbuat Şurası ortaq təkliflərlə çıxış edərək bu məsələdə yeni və yekdil qərarlar ortaya qoymalı, elektron mediamızdakı bu tendensiyanın qarşısının alınmasına, yaxud xarici ölkələrin Azərbaycanda qeyri-ixtiyari təbliğatına qarşı addım atılmalıdır.

Yeri gəlmişkən, eyni hal radio və TV-lərimizdə də hökm sürür. Radiolarımız efir vaxtının böyük hissəsini xarici müğənnilərin mahnılarına-ifalarına yer ayırır. Bəs həmin əcnəbi müğənnilərin mənsub olduqları xarici ölkələrin hansının efir məkanında Azərbaycan müğənnilərinin bircəciyinin adı belə çəkilir, yaxud mahnısı səsləndirilir??? Yoxdur...

***

...Bəri başdan xatırladırıq ki, aşağıda nəticəsini təqdim etdiyimiz araşdırma və müşahidələrimiz sərbəst seçimə söykənir, seçilmiş media subyektlərinə qarşı hansısa niyyəti ortaya qoymaqdan uzağıq, sadəcə, məqsəd sözün yaxşı mənasında real vəziyyəti diqqətə çatdırmaqdır.

***

Müşahidəmizin ilk subyekti AzərTAC dövlət agentliyidir. Bunun üçün agentliyin fevralın 5-də yaydığı xəbərlərin sayına və xarakterinə, mənsubiyyətinə baxaq.

AzərTAC 2025-ci ilin fevralın 5-də 173 (rəqəmdə 1-2 yanlışlıq ola bilər) xəbər yayıb. Bu xəbərlərin 114-ü Azərbaycanla bağlıdır (az qismi məişət xarakterli məsləhətlər və s.), qalan 59 xəbər sırf xarici ölkələrə aiddir. Yəni, Azərbaycana aidiyyəti yoxdur. Bu isə ümumi xəbərlərin təxminən 51, 8 faizini təşkil edir.

APA İA isə fevralın 5-də 153 xəbər yayıb, onların 77-si bu və ya digər formada Azərbaycanla bağlıdır, qalan 76 xəbər isə xarici ölkələrə aiddir-ümumi xəbərlərin təxminən 50 faizi!

"Yeni Müsavat" saytında isə mənzərə belədir: fevralın 5-də 247 xəbər paylaşılıb, onların 146-sı Azərbaycana bağlıdır, qalan 101 xəbər isə sırf xarici ölkələri əhatə edir- ümumi xəbərlərin 41 faizi!

Nəhayət, "Qafqazinfo" saytı: sayt fevralın 5-də 108 xəbər paylaşıb ki, bunların 69-u Azərbaycanla əlaqəlidir, qalan 39 xəbər isə sırf xarici ölkələrə aiddir-36,1 faiz!

***

Göründüyü kimi, təqdim edilən media subyekt və informasiya agentlikləri xəbərlərinin böyük hissəsini xarici ölkələrə həsr edir. Düzdür, bu xəbərlərin sırasında məlumat və bilgi baxımından maraqlı olanları da var, amma... Özləri də təhlil aparsalar, görərlər ki, adlarını təqdim etdikləri ölkələrin mediasında Azərbaycanın adı hansısa formada çəkilir və ya heç çəkilmir. Biz isə bu ölkələri nəyəsə görə, qeyri-ixtiyari olaraq təbliğ edirik. Təki xəbər sayımız çox olsun, buna görəmi?!

***

Biz bu nümunəvi təhlildə xəbərlərin keyfiyyətinə toxunmadıq. Sadəcə, bircə faktı deyək ki, xəbərlərə keyfiyyət baxımından yanaşsaq, yeni ictimai əhəmiyyət indeksinə görə bölüşmə aparsaq, rəsmi xəbərləri çıxmaq şərti ilə, yayımlanan xəbərlərin (xarici və daxili) ən azı 30 faizi xəbər naminə xəbərdən ibarətdir! Məsələn, Argentinada ilanın bir uşağı sancması barədə olan xəbər kimi! Və ya, filan müğənni artıq beşinci dəfə ərə getdi və s. kimi xəbərlər...

**"Təzadlar"ın Araşdırma Qrupu**

**P.S. Araşdırma yazısı ilə bağlı istənilən müsbət, dəyərli fikir və mülahizələri, təklifləri dəstəkləməyə, yayımlamağa hazırıq...**

# Oğuzda “meşə qırğını”: “Təzadlar” araşdırmalara başladı

*“15 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin Oğuz rayonu üzrə mühəndis vəzifəsini icra edən Məmmədov Valeh Yaqub oğlu ETSN-də həmyerlisi olan Meşələrin İnkişafı Xidməti rəisi Ramik Əşrəfov və ETSN 8 saylı Ekologiya İdarəsinin müdiri olan qardaşı Akif Məmmədovun himayədarlığı sayəsində meşə qırğını ilə məşğuldur...”*

**Oğuz şəhəri, yeni massiv sakini Əbdülxalıqov Hamil Şləddin oğlu tərəfindən “Təzadlar”a təqdim edilmiş şikayət məktubunu (bəzi xüsusatlar istisna olmaqla) aşağıda təqdim edirik.**

Oğuz şəhəri, yeni massiv sakini Əbdülxalıqov Hamil Ələddin oğlu tərəfindən “Təzadlar”a təqdim edilmiş şikayət məktubunu (bəzi xüsusatlar istisna olmaqla) aşağıda təqdim edirik.

Xatırladırıq ki, bu şikayət-müraciət “Media haqqında” və “İnformasiya əldə etmək haqqında” qanunların tələblərinə uyğun olaraq ictimailəşdirilməmişdən əvvəl nazirlik rəhbərliyinə və digər aidiyyəti qurumlara, məsul şəxslərə mövqe bildirilməsi üçün göndərilmişdir.

*“Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri vəzifəsini icra edən cənab Rəşad İsmayılova*

*Surəti: ETSN-nin Dövlət Ekoloji Təhlükəsizlik Agentliyinin sədrinə;*

*Surəti: “Təzadlar” qəzeti redaksiyasına.*

*Oğuz şəhəri, yeni massiv sakini Əbdülxalıqov Hamil Ələddin oğlu tərəfindən müraciət:*

Hörmətli cənab nazir! Diqqətinizə çatdırıram ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 15 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin Oğuz rayonu üzrə mühəndis vəzifəsini icra edən Məmmədov Valeh Yaqub oğlunun son illərdə müxtəlif vəzifələrdə işlədiyi müddətlərdə ETSN-də və Meşələrin İnkişafı Xidmətində vəzifələrdə olan havadarlarının sayəsində vəzifə səlahiyyətlrindən süi-istifadə etməklə qanunsuz əməllər törətməkdədir. O, dövlət meşə fonduna indiyədək vurduğu külli miqdarda ziyanların qarşısının alınması üçün Sizlərə müraciət etmək zorunda qalıram. Belə ki, Valeh bu günədək düz-əməlli yazıb oxumağı bacarmadığına görə, heç bir dövlət qeydiyyatından keçməmiş və heç bir lisenziyası olmayan özəl ali məktəbvlərin birində faktiki tələbə olmadan, adını yazdırmaqla hüquqşünas diplomu almışdır. Ancaq həmin diplom heç bir yerdə tanınmayıb. Ona görə də bu diplomu 2020-ci ilədək hansı idarə və ya müəsisəyə işə girmək üçün aparıbsa, diplom saxta olduğuna görə işə götürməyiblər. Ona görə də Valehi ETSN-də həmyerlisi olan və hazırda da Meşələrin İnkişafı Xidməti rəisi vəzifəsində işləyən Ramik Əşrəfov və ETSN 8 saylı Ekologiya İdarəsinin müdiri olan qardaşı Akif Məmmədovun himayədarlığı sayəsində 5 il öncə 15 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin 09 saylı meşəsinə gözətçi təyin etmişlər. O da qanunsuz olaraq sənaye əhəmiyyətli işlik yararlı müxtəlif cinsli və diametrli kök üstə yaş ağacları kütləvi şəkildə kəsdirib ekoloji qanunsuzluqlar törətmişdir. Bu əməllərin qarşısının alınması üçün 15 saylı RMTM-nin əməkdaşları tərəfindən müdaxilə edilən zaman Ramik Əşrəfov və Akif Məmmədov tərəfindən təzyiqlərə məruz qalaraq ya susdurulardı, ya da hər hansı bir bəhanə ilə işdən azad olunurdu. Məslən, 30 aprel 2020-ci ildə 15 saylı RMTM-nin bir qrup əməkdaşları 19 ədəd iri diametrli işlik materialı -200 kubm. həcmdə ağacları, yəni ümumilikdə 45000 manat ziyanlıq hesablanmış ağacları kəsdirib aparıldığı aşkar edilmişdir. Yoxlama komissiyası 9 saylı meşədə Valeh tərəfindən vurulmuş ziyanlıq barədə həmin gün akt tərtib edərək rəhbərliyə vermişlər. Təqdim edilmiş akt 05.05.2020-ci il tarixində 15 saylı RMTM-nin kitabında 126 saylı nömrə ilə qeydə alınıb. Bu yoxlamadan sonra ETSN-ə edilmiş şikayət əsasında 07 saylı Ekologiya İdarəsinin əməkdaşları V.Məmmədovun gözətçi olmuş 9 saylı meşədə yoxlama təhvili zamanı yenə də müxtəlif cinsli və iri diametrli kök üstə yaş ağacların kütləvi qaydada kəsildiyini aşkar etmişlər. Beləliklə, iki təşkilatın apardığı yoxlama zamanı Valehin meşə fonduna vurduğu ziyanın ümumi məbləği 100 min manata qədər olmuşdur. Və məndə olan dəqiq məlumatlara görə yoxlama zamanı tərtib edilmiş və hesablanmış ziyan məbləğlərin hesablama cədvəli sonradan saxtakarlıq edilərək dəyişdirilmişdir. Bunlara baxmayaraq Valehin havadarları ilə o 2021-ci ilin əvvəlində yazmaq və oxumağı bacarmadığı nəzərə alınmadan daha yüksək vəzifəyə- Xaçmaz meşəbəylinə təyin edilmişdir. Burada işlədiyi dövrdə bütün akt, protokol, naryad, aylıq və illik hesabatları 15 saylı RMTM-nin əməkdaşları olan Arzu Qocayev və Elşad Qafarov nəyinsə müqabilində onun əvəzinə yazmışlar. Bundan sonra isə daha yüksək vəzifədə olan Oğuz rayonu üzrə meşə mühəndisi vəzifəsinə təyin edilmişdir. Və eyni zamanda Xaçmaz meşəbəyliyi də ona həvalə edilmişdir. O burada Xaçmaz-qışlaq kənd ərazisindəki bələdiyyə mülkiyyətində olan tarla qoruyucu zolaqdan işlik materialları yararlı külli-miqdarda yaş ağacları kəsdirib Qəbələdəki ağac emalı sexlərinə satmışdır. Oğuz rayon hüquq-mühafizə orqnları həmin qanunsuzluqları araşdıran zaman bütün ağacların Valehin rəhbərliyilə kəsildiyi müəyyən edilmişdir. Ona görə də Oğuz rayon Prokurorluğunda onun barəsində cinayət işi başlanmış və istintaq aparılmışdır. Bu müddətdə V.Məmmədov vəzifəsindən kənarlaşdırılmışdır. V.Məmmədov ağac kəsməklə Xaçmaz bələdiyyəsinə 44 min manat ziyan vurmuşdur.



*“2020-ci ilədək hansı idarə və ya müəsisəyə işə girmək üçün aparıbsa, diplom saxta olduğuna görə işə götürməyiblər”*

2024-cü ilin oktyabrın əvvəlində 15 saylı RMTM-nin direktor müavini Elmdar Mahmudov, Elşad Qafarov və meşə gözətçisi Sərdar Seydəliyev direktorun əmrilə Xaşmaz meşəbəylinin 2 saylı meşə dolayında təhvil -təslim yoxlaması zamanı ərazidə yoxlama dövründən 4-5 ay əvvələ təsadüf edilən kütləvi qaydada kəsilmiş ağacları aşkar etmişlər. Və kötüklərin üzərində V.Məmmədova təhkim edilmiş N-102 damğası ilə damğalandığı aşkar edilmişdir. Yoxlama zamanı o da məlum olmuşdur ki, həmin kəsilmiş ağaclaı damğalanması qeydiyyatdan gizlədilmişdir. Buna görə də akt tərtib edilmişdir. Və bu saxta işinə görə V.Məmmədova akt tərtib edilərək 7000 manat cərimə hesablanıb qeydə alınmışdır. Lakin bu cərimə də Valehin havadarları olan R.Əşrəfov və Akif Məmmədovun müdaxiləsindən sonra yenə də gizlədilmişdir. Beləliklə, Valeh Məmmədov işlədiyi son 4 il ərzində dövlət meşə fonduna vurduğu ziyanın məbləği 200 min manata çatır. Bunlar təkcə akt və protokollarda rəsmiləşdirilmiş ziyanlardır. Heç bir faktiki savada malik olmayan ETSN vəzifəli işçiləri olmuş Akif və Valeh qardaşları yaşadıqları Xaçmaz-qışlaq kəndində vaxtilə meşə ilə örtülü ərazini özlərinə məxsus texnikalarla 10 ha ərazini kürütdürməklə özləri üçün balıq gölü (təsərüfatı) və mal-qara ferması tikiblər. Hansı ki, həmin ərazilər dövlət meşə fonduna aiddir. Bu qardaşlar eyni zamanda Xaçmaz meşəbəyliyinin 11 saylı meşə dolayı ərazisində meşə ilə örtülü ərazini Oğuz rayonun Mollalı kənd sakini Məmmədov Rauf Qalib oğluna pul müqabilində satıblar. Rauf da həmin meşəliyi traktorla kürüdərək özü üçün təsəsrrüfat yaradıb.

Cənab nazir, Sizdən xahiş edirəm ki, Valeh Məmmədovun diplomunun mahiyyəti araşdırılsın, eləcə də onun bu əməllərinə, yəni COP29 kimi beynəlxalq tədbirə ev sahibliyi etmiş ölkəmizin ekologiyasına-meşə fonduna vurduğu ziyanlıqları gizlədənlər haqqında araşdırmalar aparılsın, günahkarlar cəzalandırılsınlar.

Mən bütün bunları Azərbaycan ekologiyasının taleyinə ürək yanğısı ilə yanaşdığımdan Sizə məlumat verirəm.

Əvvəlcədən öz minnətdarlığımı bildirirəm.

**Hörmətlə,**

**Hamil Əbdülxalıqov”.**

**“Təzadlar”dan: şikayətçi Hamil Əbdülxalıqov redaksiyamıza müvafiq sənədlər, eləcə də özünün şəxsiyyətini təsdiqləyən sənədləri də göndərib.**

**Şikayətdə adı çəkilənlərin hər birini dinləməyə və mövqeylərini öyrənməyə çalışırıq.**

**“Təzadlar”ın**
**Araşdırma Qrupu**

# Qorxmaz Təhməzli “Avaz Group” vasitəsi ilə 17,8 milyonluq tenderi necə udub?

***...Vəzifədə qohumbazlıq və dostbazlıq görmüşdük, amma tenderdə bu halı indi görürük. Budur, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun (AQTİ) 2024-cü ildə keçirdiyi 24 tenderin böyük hissəsinin bir ərköyün şirkət tərəfindən udulub. Bəs bu necə baş verib? Doğrudanmı başqa daha sərfəli şərtlər irəli sürən şirkət olmayıb?***

**Tezadlar.az İqtisadiyyat Nazirliyi yanında Satınalmalar üzrə Dövlət Agentliyinin rəsmi portalına və illik hesabatına istinadla bildirir ki, 17,8 milyon manatlıq satınalmalar üzrə müqavilələrinin 5-i “AVAZ GROUP” MMC ilə bağlanıb. Belə ki, açıq mənbələrdən aydın görünür ki, AQTİ təkcə 5 müsabiqə üzrə 17,8 milyon manatlıq pulun 13 milyon 313 min 40 manatını və ya 75 faizini bu şirkətə həvalə edib.**



Bu məbləğlər isə AQTİ “Avaz Group”dan yalnız laboratoriya avadanlığı və bəzi reaktivlər alıb. Vergilər Nazirliyinin reyesterində qeyd edilib ki, “Avaz Group” MMC 2007-ci ildə dövlət qeydiyyatına alınıb. Nizamnamə kapitalı 1000 manat olan şirkətin qanuni təmsilçisi isə Mədət Sadıqov adlı şəxsdir. Və şirkət 25 yanvar 2007-ci il tarixində Sadiq Ərzuman oğlu Məmmədov tərəfindən yaradılıb. Lakin sonradan şirkətin qanuni təmsilçisi dəyişdirilib və onun başına AQTA-nın rəhbəri Qoşqar Təhməzlinin öz şirkəti olan “Medeks”dəki işçisi Mədət Sadıqov gətirlib. Bildirilib ki, Sadiq Məmmədov məhz Qoşqar Təhməzli tərəfindən 14 sentyabr 2018-ci ildə Qida Təhlükəsizliyi İnstitutunun İdarə Heyətinin sədri təyin edilib. Lakin 2023-cü ildə vəzifəsindən azad edilib. Hazırda onun “Avaz Group-”un idarəçiliyini həyata keçirdiyi deyilir.

*“AQTİ-nin həyata keçirdiyi maraqlı tenderlər sırasında isə avtomobil həvəskarlığı diqqəti çəkir”*

AQTİ-nin həyata keçirdiyi maraqlı tenderlər sırasında isə avtomobil həvəskarlığı diqqəti çəkir. Belə ki, bu qurum bir ilin içində 655 min 500 manatlıq avtomobillər alıb. Onlardan 4-ü “LEXUS-BAKI” MMC-dən alınıb. Bu sedan tipli maşınlara AQTİ 448.800 min manat xərcləyib. İkinci tender isə “TOYOTA ABSHERON MERKEZI” MMC-nin “bəxtinə” düşüb. 3 avtomobilin alınmasına 206.700 manat sərf olunub.

İndi oğul lazımdır bu tender dost tərəfkeşliyinin fəlsəfəsini araşdırıb ortaya əsl məqsədləri qoysun. Axı hamı bilir ki, tender vəsaitləri dövlət büdcəsinin vəsaitlərindən qidalanır. Və o vəsaitlərin təkcə ötən il büdcədə oturmuş 840 milyon manatı cərimələrdən formalaşıb. O cərimələr ki, kasıb- kusubun ailə büdcəsindən çıxarılıb. Elə isə, sual yaranır: sürücülərin avtocərimələrindən yığılan pullar niyə kimlərinsə bahalı avtomobillərində ifadə edilməlidir?

**“Təzadlar”**



## Anar Bağırov İTV-də vəkilliyə dair təhqirli ifadələrin işlədilməsinə qarşı sərt danışdı

*"Vəkilliyə qarşı münasibətdə etik normalara riayət edilsin, qeyri-etik, əxlaqdan kənar ifadələr işlədilməsin"*

**Vəkillər Kollegiyasının Mətbuat xidməti məlumat yayıb. Tezadlar.az bildirir ki, söhbət İTV-də yayımlanan "İki dünya bir olsa" adlı serialda vəkillik institutu haqqında təhqiramiz ifadələrin yer almasıdır. Aşağıda kollegiya İdarə Heyətinin sədri Anar Bağırovun adından yayımlanan həmin müraciəti təqdim edirik:**

*"Təəssüf hissi ilə qeyd edirik ki, son günlər İctimai Televiziya və Radio Yayımları Şirkətinin (İTV kanalı) efirində yayımlanan "Əqrəb mövsümü (İki dünya bir olsa da)" serialında vəkillik peşəsinə qarşı kəskin ifadələr, hətta kobud səslənən sözlər işlədilməsinin şahidi oluruq. Belə ki, serialın 08.02.2025-ci il və 15.02.2025-ci il tarixlərdə yayımlanan bölümlərində film personajının dili ilə vəkillik peşəsinə dair bəzi xoşagəlməz ifadələri işlədilmişdir. Sözügedən ifadələrin işlədilməsi cəmiyyətdə vəkillik peşəsinə, həmçinin Vəkillər Kollegiyasının nüfuzuna təsirsiz ötüşməyərək vəkillərimizə qarşı mənfi fikir formalaşmasına xidmət etmək gücündədir. Odur ki, vəkillərimizin haqlı narazılığını başa düşür və onlara vəkillik peşəsinin xüsusi özəlliklərindən biri olan səbir nümayiş etdirməyi xahiş edirik.*

*Bildiririk ki, İTV kanalının "Əqrəb mövsümü (İki dünya bir olsa da)" serialında vəkillik peşəsinə qarşı səslənən fikirləri hər hansı bir maneə olmadan efirə verməsi "Media haqqında" Azərbaycan Respublikasının Qanunun 14.1-ci, 39.1.3-cü maddələrinin tələblərinin pozulması deməkdir. Belə ki, Qanunun 14.1.6-cı maddəsinə görə, mediada dərc olunan və (və ya) yayımlanan informasiyada əxlaqdankənar leksik (söyüş) məzmunlu söz və ifadələrdən, jestlərdən istifadəyə yol verilməməlidir. Həmçinin, Qanunun 14.1.7-ci maddəsinə görə, mediada dərc olunan və (və ya) yayımlanan informasiyada şərəf və ləyaqətin alçaldılmasına, işgüzar nüfuzun ləkələnməsinə yol verilməməlidir.*

*İctimai Televiziya və Radio Yayımları Şirkəti "Media haqqında" Azərbaycan Respublikasının Qanunun 1.1.5-ci maddəsinə görə audiovizual media olaraq, Qanunun 39.1.3-cü maddəsinə əsasən, Qanunun 14.1-ci və 14.2-ci maddələrində nəzərdə tutulmuş tələblərə riayət etmək kimi vəzifəsi mövcuddur.*

*Bildirmək istərdik ki, qeyd olunan məsələ ilə bağlı Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən qanunauyğun addımlar atılacağı qərara alınmış və yaxın zamanda Azərbaycan Respublikasının Audiovizual Şurasına, İctimai Televiziya və Radio Yayımları Şirkətinə və zərurət yarandığı təqdirdə digər qurumlara müvafiq müraciətlər ediləcəkdir.*

*Bir daha hər kəsdən xahiş edirik ki, vəkilliyə qarşı münasibətdə etik normalara riayət edilsin, qeyri-etik, əxlaqdan kənar ifadələr işlədilməsin. Əks halda tərəfimizdən qanunamüvafiq tədbirlər görüləcəkdir".*

# Xətaidəki "qadın türmə"sinin yerində nə tikilir?

*Ətrafda yaşayan sakinlər göydələn tikiləcəyindən narahatdır və ölkə rəhbərliyindən bunun qarşısının alınması təklifi ilə çıxış edirlər...*

**Artıq neçə ildir Xətai rayonunda, Afiyəddin Cəlilov küçəsində yerləşən, "Qənimətlər parkı" ilə üzbəüzdə olan "Qadın türməsi" Kürdəxanıya köçürülüb.**

Bu ərazidə yaşayan sakinlərin "Təzadlar"a verdiyi məlumata görə, bir neçə dəfə ərazinin tikinti altında verilməsinə cəhd edilib, lakin bunun qarşısı alınıb: "...Əvvəllər burada göydələn tikmək istəyirdilər, amma Ədliyyə Nazirliyinin balansında olduğundan qoymadılar. İndi deyirlər ki, kimsə özəlləşdirib, ələ keçirib. COP29 ərəfəsində isə içərisi və ətrafı xarabalığı xatırladan keçmiş həbsxananın divarları boyu gül-çiçək əkildi, kiçik çevrədə park da salındı. Sevindik ki, park salınacaq. Fəzayil Bayramov və Sabit Orucov küçələrin kəsişməsindən başlayaraq Afiyəddin Cəlilov küçəsinə paralel olan bu böyük əraziyə artıq iki gündür yenidən ağır texnikalar cəlb edilib, dərin qatlarda qazıntı-geoloji fəaliyyətə start verilib. Sizə foto və videogörüntülər təqdim edirik, ağır texnikaların işlədiyi əraziyə yüz tonlarla armatur və digər tikinti avadanlığı gətirilib. Bunlar bir daha sübut edir ki, bu ərazidə göydələn kompleksi tikəcəklər...".




Sakinlər əməkdaşımıza onu da bildirib ki, onların narahatlığına iki əsas səbəb var: "Birincisi, uzun illərdir bu ərazidə tıxacların əlindən tərpənmək olmur, dörd tərəfimiz parklanmadır, avtomobil sıxlığı günbəgün artır. Bəzən Afiyəddin Cəlilov küçəsindəki tıxacın arxası AMAY-ı belə keçir. Əgər burada göydələnlər tikilsə, təsəvvür edin ki, bir zolağı velosipedə, bir zolağı isə avtobusa ayrılmış 4 zolaqlı bu ensiz yolda hökm sürən 50 faizli daralma ilə Afiyəddin Cəlilov küçəsində vəziyyət necə olacaq. İkincisi, "Qadın türməsi"nin qarşısında isə beşmərtəbəli evlərdir. Qoy Şəhərsalma və Tikinti Komitəsinin rəhbərliyi, mütəxəssisləri düşünsünlər ki, şəhərin mərkəzində, Qənimətlər Parkı ilə üzbəüzdə beşmərtəbəli binaların yanında 20 mərtəbəli kompleks hansı tikinti mədəniyyətinə, şəhərsalma ənənələrinə uyğundur? Onsuz da neçə illərdir Mehdi Mehdizadə və Afiyəddin Cəlilov küçələrindəki tıxaclardan Yusif Səfərov küçəsinədək olan ərazidə yaşayan sakinlərin həyatı zülm içindədir, biz də elə. Siqnal səsləri bütün günü aləmi başına götürür. Tıxac əlindən evimizdən küçəyə çıxa bilmirik....".

Sakinlər Prezident İlham Əliyevə və Milli Məclis üzvlərinə müraciət edəcəklərini bildirdilər.

***

Bəs hazırda ərazidə tikintini aparan qurumun statusu nədir? Çünki sakinlər də bildirdilər ki, burada qazıntı işləri aparan şirkətin ağır texnikalarının səs-küyündən dinclik yoxdur: "Xüsusi qazıntı texnikalarının səs-küyü ciddi narahatlıq yaratmaqdadır, rejim gözləmirlər. Maraqlanmışıq ki, ümumiyyətlə, burada nə tikiləcək, ictimaiyyət bunu bilməlidir axı. Məsələn, əgər göydələn tikiləcəksə, gələcəkdə aqibətimizi nəzərə alıb buradan köçüb başqa yerə gedək... Heç bir yerdə də məlumat lövhəsi yoxdur. Xətai İcra Hakimiyyətinə də zəng etmişik, dəqiq məlumat verilmir... Burada çalışan fəhlələrdən xəbər alırıq, hərbi sirr kimi hər şeyi gizli saxlayırlar. Yalnız bir söz deyirlər: "Bilmirik... Böyük adamın şirkətidir...". Xahiş edirik, siz də bunu ictimailəşdirin, burada nə tikiləcək, hamı bilsin...".

Məsələyə aydınlıq gətirilməsi üçün Dövlət Şəhərsalma və Tikinti Komitəsinin 012 5951350 telefonuna zəng vurub məlumat almağa səy göstərməkdəyik.

Ələvə məlumat veriləcək.

**"Təzadlar"**

# 320 manatdan az pensiya alanların pensiyaları necə artırılacaq?



*"Əmək pensiyalarının indeksləşdirilməsi "Əmək Pensiyaları" haqqına Qanuna əsasən həyata keçirilir"*

**Son günlər bizə olan müraciətlər arasında nisbətən aşağı pensiya alan vətəndaşlarımızın pensiya məbləğlərinin indeksləşdirilməsi, yoxsa birbaşa artırılacağı ilə bağlı suallar üstünlük təşkil edir. Yəni, hazırda 320 manatdan az pensiya alanların pensiyaları necə artırılacaq? TEZADLAR.AZ xəbər verir ki, məsələ ilə bağlı sualı deputat, iqtisadçı-ekspaert Vüqar Bayramov sosial media hesabında belə izah edib:**

"Əmək Pensiyaları" haqqında Qanunda bu məsələ öz əksini tapıb. Bu zaman pensiya məbləğindən asılı olaraq həm indeksləşdirmə, həm artım, həm də hər iksinin tətbiqi mümkündür.

Aydınlıq üçün izahatı keyslər üzərindən təqdim edək:

1. Vətəndaşımız əmək pensiyası hüququnu 1 yanvar 2025-ci il tarixindən öncə qazanıb və onun pensiya məbləği 310 manatdır, yəni yeni minumum pensiya məbləğindən (320 manat) azdır. Qanunvericiliyə əsasən, indeksləşdirmə əvvəlki ilin göstəricisinə uyğunlaşdırıldığına görə, 2024-cü ilin dekabrın 31-i daxil olmaqla ötən il pensiya hüququ qazanan bütün vətəndaşların pensiyaları indeksasiya ilə artırılır. Belə ki, orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq, 2025-cü il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsi, qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçılarına münasibətdə həmin əlavələrlə birlikdə müəyyən edilmiş məbləğ artırılır. Bu o deməkdir ki, həmin vətəndaşımızın pensiya məbləği 320 manata çatdırılmadan indeksləşdiriləcək. Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, 2024-cü ilin ilk 11 ayında ölkə üzrə orta aylıq əmək haqqı 8 faiz artaraq 996.8 manata çatıb. Bu isə o deməkdir ki, ölkə üzrə ötən ilin yekun əmək haqqı artımının təxminən 8.0 faiz olacağı gözlənilir. Deməli, bu halda 310 manat pensiya alan vətəndaşımızın pensiya məbləği indeksləşdirmədən sonra 334.8 manat, yəni yeni minimum pensiya məbləğindən çox olacaq.

2. Vətəndaşımız əmək pensiyası hüququnu 1 yanvar 2025-ci il tarixindən öncə qazanıb və onun pensiya məbləği 280 manatdır, yəni yeni minumum pensiya məbləğindən (320 manat) azdır. Bu zaman da onun pensiya məbləği indeksləşdiriləcək və pensiyasına 22.4 manat əlavə olunacaq. Amma alınan məbləğ- 302.4 manat, yeni minimum pensiya məbləğindən az olduğu üçün həmin rəqəm daha sonra 320 manata çatdırılacaq. Deməli, həmin vətəndaşımızın pensiya məbləğinə həm indeksləşdirmə, həm də birbaşa artım tətbiq olunacaq.

3. Vətəndaşımız əmək pensiyası hüququnu 1 yanvar 2025-ci il tarixindən sonra qazanıb və onun pensiya məbləği 280 manatdır, yəni yeni minumum pensiya məbləğindən (320 manat) azdır. Bu zaman o vətəndaşımızın pensiyası gələn aydan etibarən birbaşa 14.3 faiz artırılaraq 320 manata çatdırılacaq. Bütövlükdə, bu ilin yanvar ayı ərzində əmək pensiyası hüququ qazanan vətəndaşlarımızın pensiya məbləğləri 320 manatdan azdırsa o rəqəmlər gələn aydan birbaşa 320 manata çatdırılacaq. Çünki gələn aydan 320 manatdan az pensiya olmayacaq. Deməli, bu halda indeksləşdirmə tətbiq olunmur, birbaşa artım şamil edilir.

Qeyd edək ki, əmək pensiyalarının indeksləşdirilməsi "Əmək Pensiyaları" haqqına Qanuna əsasən həyata keçirilir. Sözügedən qanuna əsasən, bütün növ əmək pensiyaları əvvəlki ildə ölkə üzrə orta aylıq maaşdakı artım faizinə indeksasiya olunaraq artırılır. İndeksləşdirmə bütün növ əmək pensiyalarına şamil olunur. "Əmək pensiyaları haqqında" qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır",- deyə o qeyd edib.

**JASMİN**

# Bakının mərkəzində daha bir neçə tarixi bina işbazların tamahına qurban gedir

*102 şikayətçi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət etdi...*

**Surəti Baş Nazir cənab Əli Əsədova, Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Anar Quliyevə, eləcə də Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyevaya, Memarlar İttifaqı Rəyasət Heyətinin sədri E.Qasımzadəyə və “Təzadlar” qəzeti redaksiyasına ünvanlı müraciəti təqdim edirik:**



**-Çox hörmətli cənab Prezident!**

Biz aşağıda imzaları təqdim edilən-Cavadov Rüstəm Qaffar oğlu və digərləri (102 imza. Ünvan: Bakı şəhəri,Yasamal rayonu, B.Səfəroğlu küçəsi) yazıb Sizə bildiririk ki, 2014-cü ildən bu günə kimi biz sakinlərin dincliyi yoxdur. Gürbəcur təşkilatlar, şirkət və MTK-lar dəfələrlə evlərimizin qapısına nömrə yazaraq, ölçü işləri aparıblar. Hər gələn də öz nömrəsini yazır, ölçür və gedir.

Həmin dövrdə Sizə etdiyimiz kollektiv müraciətimizdən sonra bir neçə il susdular. Hal-hazırda artıq təzə bir təşkilat nümayəndələri qapılarımıza öz nömrəsini yazaraq, ölçmə işləri ilə məşğuldur. Bu biz sakinlərin mütəmadi olaraq ciddi şəkildə narahat edilməsidir. Belə ki, biz-Bakı şəhəri,Yasamal rayonu, Azərbaycan prospekti ilə M.Fətəli Axundov küçələri və Ç.Mustafayev küçəsi ilə S.Tağızadə küçələrinin arasında yerləşən evlərin sakinləri qədim tarixi olan evlərimizin sökülməsi üçün görülən işlərə ETİRAZ EDİRİK. Bildiririk ki, bizim evlərimiz heç də Soveskidəki evlər kimi gecəqondular deyil.

Bu ərazidə çox saylı evlər YERLİ ƏHƏMİYYƏTLİ DAŞINMAZ TARİXİ VƏ MƏDƏNİYYƏT ABİDƏSİDİR. Eyni zamanda tarixi abidə kimi siyahıya düşməyən, lakin keyfiyyətli və turistlərin diqqətini cəlb edən qədim binalar da bu ərazidə cox saydadır. Yuxarıda göstərdiyimiz ünvanlarda evlərdən əlavə, Məscidlər, Tarixi Abidə sayılan hamamlar, kilsə və s. kimi öz görkəmi ilə Bakımızın qədimliyini və mədəni irsini nümayiş etdirən tarixi incilər vardır. Bu ərazinin sakinlərinin əksəriyyətinin 50-dən yuxarı yaşları var ki, biz qonşu kimi yox, bu ərazidə bir ailə üzvü kimi yaşayırıq. Bu ərazidə qonşuların da tarixi dostluğu, hətta qohumluğu var ki, biz bu ərazidə istənilən turistlərə xalqımızın qonaqpərvərlik mədəniyyətini, qədim ənənələrimizi nümayiş etdirmək əzmindəyik. Bu ərazi birmənalı olaraq Azərbaycanın qədim tarixini, mədəni irsini tərənnüm edən bir tarix səlnaməsidir.

**Cənab Prezident!**

Məhz buna görə də Sizin və Birinci Vitse-prezident Mehriban xanımın mədəni irslərimizin qorunmasına, milli-mədəni abidələrimizin, milli xörəklərimizin, xalçalarımızın, musiqimizin YUNESKO-da qeydə alınmasına çalışdıqlarınız halda, İcra Başçılarının milli mədəni TARİXİ abidələrimizi məhv etmələri yolverilməzdir.

Biz demək olar ki, hər gün, əsasən də Bakıda keçirilən Beynəlxalq tədbirlərə qatılan qonaqların küçələrimizdə fotoaparatlarla gəzərək bu qədim binaların fotoşəkillərini çəkmələrinin şahidi oluruq. Hesab edirik ki, Qədim Bakımızın tarixinin kiminsə maddi maraqları naminə qurban verilərək məhv edilməsi tariximizə XƏYANƏTDİR!

Təzəpir məscidində Mərasim zalları başqa ünvanlarda fəaliyyət göstərsə, ərazidə heç bir sıxlıq da ola bilməz. Əvvəllər bu ərazilərdə insan sıxlığı olmamışdır. Təzəpir məcscidində çoxsaylı mərasim zalları tikiləndən sonra ərazidə maşın əlindən yer yoxdur. Mərasim zalları ərazidə sıxlıq yaratdığına görə TARİXİMİZİ QURBAN VERMƏK, HESAB EDİRİK Kİ, MƏDƏNİ İRSİMİZƏ, TARİXİMİZƏ və GƏLƏCƏK NƏSİLLƏRƏ XƏYANƏTDİR!

*Qədim Bakımızın tarixinin kiminsə maddi maraqları naminə qurban verilərək məhv edilməsi tariximizə XƏYANƏTDİR!*

Bütün dünyada tarixi qədim evlər var və qorunub saxlanılır. Ümummilli Liderimiz, Ulu Öndərimiz cənab Heydər Əliyev 18 aprel 2001-ci il tarixində Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunmuş konfransda bildirmişdir: “Biz Azərbaycan xalqının tarix və mədəniyyət abidələrinin mühafizəsinə daha çox diqqət və qayğı göstərməli, bərpa işlərini təkmilləşdirməliyik.

**Cənab Prezident!**

Bu ərazi Sizin və Birinci Vitse-prezident Mehriban xanımın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə 1 mart 2019-ci ildə görüşündə təklifinizlə yaradılmaqda olan BAKININ TARİXİ MƏRKƏZİ rayonunun mədəniyyət və tarixini əks etdirən nadir incilərdəndir. Məlumat üçün bildiririk ki, ərazidə 66 ev YERLİ ƏHƏMİYYƏTLİ DAŞINMAZ TARİXİ VƏ MƏDƏNİYYƏT ABİDƏSİDİR və Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı qərarına əsasən, Dövlət qeydiyyatına götürülmüşdür, hər birinin inventar nömrəsi vardır. (Siyahını əlavə edirik).

Dünya tərəqqi etdikcə ətraf mühitə, xüsusilə də memarlıq abidələrinə yeni baxış, münasibət yaranır. Hər bir memarlıq abidəsi öz varlığında təkcə yaradıldığı tarixi deyil, həm də məxsus olduğu dövrün mədəni mühitini, maddi imkanını, yaradıcısının təfəkkür tərzini, düşüncəsini əks etdirir. Memarlıq abidələrinin mühafizəsi həm də maddi və mənəvi həyatımızın güzgüsünü qorumaqla onu gələcək nəsillərə çatdırmaq deməkdir. Biz tarixi keçmişimizə nəzər salarkən, ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla-yaradılan hər bir şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı ifadə edirik. 2009-cu ildə Azərbayca memarlıq abidələrinin qorunması haqqında Avropa Konvensiyasına qoşulub.

**Cənab Prezident!**

Onu da bildiririk ki, bu binalardan biri Murtaza Muxtarov küçəsindəki 50 saylı - Çingiz Mustafayev küçəsinin kəsişməsində yerləşən və 1896-cı ildə məşhur alman memarı Adolf Eyxler tərəfindən inşa edilən 2 mərtəbəli binadır. Adolf Eyxler XIX-XX əsrin əvvəllərində (1892-1911) Bakı şəhərində bir çox məşhur binaları inşa edib. Həmin illərdə Bakı şəhərinin Baş memarı olmuşdur. 2017-ci ildə Azərbaycan Respublikasında onun şərəfinə poçt markası buraxılmışdır. Onun Qotika və Viktorian üslublarında inşa etdiyi 15-ə yaxın- Aşumov məscidi (İmam Hüseyn 1896), Zuteran kilsəsi (Kirxo 1899) və s. kimi binalar sırasında M.Muxtarov (Suraxanskaya) küçəsindəki 50 saylı ev də yer almışdır. Viktorian uslubunda tikilən bu bina Bakı şəhərində məktəb kimi fəaliyyət göstərən birinci bina olmuşdur. 1970-ci illərə kimi bu binada 18 saylı məktəb fəaliyyət göstərib. Burada 1970-ci illərdən sonra isə Moskvanın Yeyinti (“Pişevoy”) İnstitunun filialı fəaliyyət göstərib. Bu binanın 1-ci mərtəbəsi ARKA uslubunda inşa edilib. Bildiyiniz kimi arkalı binalar yer üzündə ən möhkəm və demək olar ki, ömürlük zəlzələyə davamlı olurlar. Hal-hazırda bu bina baxımsızlıqdan indiki vəziyyətinə düşməyinə baxmayaraq, çox əzəmətli, möhkəm və gözəlliyini qoruyub saxlamaqdadır. 2-ci isə, Zərgərpalan küçəsində yerləşən 40 saylı binadır. 1890-cı ildə Viktorian üslubunda tikilən bu binanın 1-ci mərtəbəsində inqlabdan əvvəl və 1989-cu illərə kimi də Bakı şəhərində birinci zərgər emalatxanası yerləşib. Həmin emalatxanalarda Bakının məşhur zərgərləri- Əli Bala və Mikayır Məcidov qardaşları, Qafar və onun oğlu Fuad Əliyevlər, keçəl Əhməd Rza, Balaqədəş kimi məşhur zərgərlər fəaliyyət göstərib. Bakı şəhəri (Zevin) Əziz Əliyev keçəsindəki Əliyev qardaşlarına məxsus “Firuzə” zərgər dükanının qızıl və brilliant əşyaları bu emalatxanalarda hazırlanmışdır. 1991-ci ildə Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının üzvü, görkəmli memar Elbay Qasımzadənin təklifinə əsasən komissiyanın sədri Bəxtiyar Vahabzadənin göstərişi ilə Sovetlər vaxtilə “Kazım İsmayılov” adlandırılan bu küçə Zərgərpalan adlandırılmışdır. Bu iki binanın tarixi dəyərlərinə baxmayaraq onlar Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən yerli əhəmiyyətli daşımmaz tarixi və mədəniyyət abidəsi kimi qeydiyyata alınmayıb.

Ulu öndərimizin davamçısı kimi Sizə müraciət edərək, Tarixi Abidələrimiz olan və memarlıq səlnaməsi sayılan, tarixə memarlıq fonemeni kimi salınmış Bakının Yasamal rayonu, Azərbaycan prospekti ilə M.Fətəli Axundov küçələri və Ç.Mustafayev küçəsi ilə S.Tağızadə küçələrinin arasında yerləşən qədim Bakımızın turistlərin ciddi diqqət mərkəzində olan ərazisinin MƏHV EDİLMƏSİNİN, Mədəni irsimizi tərənnüm etdirən TARİXİ ABİDƏLƏRİMİZİN DAĞIDILMASININ qarşısının alınması və buradakı evlərin bərpa edilərək, öz statusunun saxlanılmasına göstəriş verməyinizi xahiş edirik.

**Hörmətlə: Cavadov Rüstəm Qaffar oğlu və digərləri (102 imza).**

**REDAKSİYADAN:** məsələ ilə bağlı aidiyyəti dövlət qurumlarına rəsmi sorğu göndərilmişdir. Əlavə məlumat veriləcək.

Lakin bir məsələ qaranlıq qalır: qeyd olunan tarixi binaların dağıdılmasında, yer üzündən silinməsində məqsəd nədir? Yəni, həmin binalar söküldükdən sonra ərazidə hansı işlər görüləcək, yaxud hansı ictimai-mədəni əhəmiyyət daşıyacaq tikintilər aparılacaq?

**“Təzadlar”**



## Əsgərin ölümü ilə bağlı cinayət işi başlandı

**Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Məcidov Maqbet Xətai oğlunun ölüm faktı ilə bağlı cinayət işi başlanıb.**

“Tezadlar.az” xəbər verir ki, bu barədə Respublika Hərbi Prokurorluğu məlumat yayıb.

Bildirilib ki, fakt əsasında Naxçıvan Hərbi Prokurorluğunun və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kriminalistika və İnformasiya Texnologiyaları idarəsinin əməkdaşları tərəfindən müvafiq baxışlar aparılıb. Məhkəmə tibbi ekspertin iştirakı ilə meyitin xarici və daxili müayinəsi keçirilib, eləcə də digər hərəkətlər icra edilib.

Fakt üzrə Naxçıvan Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müxtəlif ekspertizalar təyin edilərək, icraya yönəldilib və digər istintaq hərəkətləri həyata keçirilib.

Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi, o cümlədən hər bir fakta və əmələ hüquqi qiymət verilməsi təmin olunacaqdır.



## Generalın 21 yaşlı oğlu vəfat etdi

**Ədliyyə Nazirliyi Penitensiar Xidmətin rəis müavini general-mayor Orxan Qasımovun oğlu dünyasını dəyişib.**

“Tezadlar.az” “Unikal”a istinadən xəbər verir ki, generalın övladı Ayxan Qasımov 21 yaşında vəfat edib. Onun xəstəlik səbəbindən dünyasını dəyişdiyi bildirilib.

***

Vəfat edən Ayxan Qasımov Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin keçmiş rəisi Arif Qaraşovun nəvəsidir.

## Azərbaycanda 2024-cü ildə 58 kişi qadınlar tərəfindən döyülüb və... - İNANILMAZ



**Adətən qadınların kişilər tərəfindən döyülməsi və ya işgəncələrə məruz qalması halları ilə rastlaşırıq və cəmiyyət də bu cür rəftarları daim qınayıb... Statistika da təsdiqləyir ki, buna görə hər il nə qədər kişi həbs olunur, cəzalandırılır. Amma bu dəfə kişilərin qadınlar tərəfindən döyülməsindən danışılacaq. Ümumiyyətlə, dünyada belə hallar son illər artmaqdadır. Məsələn, Avropa ölkələrində bu cür faktlar çoxalmaqdadır. Ötən il isə Rusiyada az qala kişilərin zorakılığa məruz qalması faktı qadınlarınkına bərabər olub. Əlbəttə, bu qadın-kişi hüquqlarının bərabərliyinə dəlalət etmir. Fakt odur ki, zorakılıq və şiddət yolverilməzdir...**

Tezadlar.az Dövlət Statistika Komitəsinə istinadla bildirir ki, bununla bağlı məlumat Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2024-cü il üzrə hesabatında da öz əksini tapıb. Məlum olur ki, 2024-cü ilin yanvar-dekabr aylarında 860 Gender əsaslı zorakılıqla bağlı Dəstək Xəttinə 330 müraciət daxil olub. Onlardan 58-i kişi, 272-si isə qadınlar tərəfindən edilib, onlardan 205 nəfəri Bakıdan, 125-i isə regionlardan müraciət edib. Məsələn, 137 evli, 140 subay, 53 boşanmış şəxsin Dövlət Komitəsinə müraciəti daxil olub. Həmin şəxslərdən 64-ü ali təhsilli, 177-si orta, 89-u isə təhsilsiz insanlardır. 77 nəfər 18 yaş aralığında, 145 nəfər 19-35, 80-i 36-55, 28 nəfəri isə 56+ yaş aralığında olan şəxslərdir.

Bir sözlə, qadın və ya kişi, çalışın özünüzü döydürməyin ki, sizi döyən olsun...

**A.MƏMMƏDLİ**

# Professor iqtisadi təhlillərini ortaya qoydu: biz necə yaşayırıq?



*2025-ci ilin yanvar ayının iqtisadi göstəriciləri haqqında qısa xülasə*

**Dövlət statistika komitəsi yanvar ayının iqtisadi inkişaf nəticələrini elan etmişdir. Ürək açan bir nəticə yoxdur. Əsas iqtisadi inkişaf göstəricilərin, demək olar ki, hamısında gerilik var. Bu gerilik həm nəzərdə tutulan faktlar üzrə və həm də keçən dövrun göstəricilərinə görə nəzərə çarpır. Ümumi daxili məhsulun (ÜDM) həcmi üzrə hökumətin proqnoz göstəricisinə görə 4% geriləmə var, keçən ilin müvafiq dövrünə nisbətən 1% düşmə qeyd edilmişdir.**

Bu da o qədər təhlükəli meyl deyil, yəni müvəqqəti artım da ola bilər, azalma da, sağlam iqtisadi sistem olarsa bunu qısa zaman ərzində aradan qaldırmaq olar. Daha təhlükəli meyllər iqtisadiyyatı daha dərin böhrana sürükləyir və qarşısı alınmaz problemlər ortaya çıxara bilər:

Təmiz istehlakçı cəmiyyət qurulur və bütün cəhdlər istehlak tələbinin ödənilməsinə yönəldilir. Yaradıcılıq parametrləri sıfır vəziyyətinə endirilmişdir. Yanvar ayı bu meylin ciddi gücləndirilməsini göstərir. Yaradıcılıq əsasən əsas kapitala investisiyaların və elmi-texnoloji investisiyaların artırılması hesabına Nail oluna bilər. Hər iki göstərici sürətlə azalmaqda davam edir. Yanvar ayında əsas kapitala investisiyalar 50% azalmışdı, onların ÜDM -da payı isə Azərbaycan tarixində görünməmiş səviyyəyə 8,3%-ə düşmüşdur. Bu rəqəm Əfqanıstanda 17%, Gürcüstanda 32, Ermənistanda 33%-dir. Ayrılan vəsaitlər də əsasən istehlak xarakterli (mənzil tikintisi, infrastruktur və s.) obyektlərin qurulmasına yönəldilmişdir. 2024-cu ildə elm və inkişaf xərcləri 1980-ci ilin analoji göstəricisindən 4 dəfə azdır. Kəskin investisiya qıtlığı büdcədə 1,7 milyard büdcə artıqlığı şəraitində baş verir. Problem vəsait çatışmazlığında deyil, sistemin qurulmasındadı. Bu da daha bir meylin baş verməsini göstərir.

Bu meyl dövlətin iqtisadiyyata lüzumsuz müdaxiləsindən və kəskin dövlət inhisarın formalaşmasından gedir. Son dövrlər bu meyl xeyli güclənmişdir. Bud əmin gəlirləri və xərcləri müvafiq olaraq 116 və 136% artmışdır, vergi mənbəyi 1% azalmışdı. Özəl sektorun əlində hətta qəpik-quruş qalmayıb ki, yenidən investisiya etsin və yeni vergi obyekti yaratsın. Əsas məsələlərin tənzimlənməsi 90%-i dövlətin əlində (maliyyə, bank, valyuta, qiymətqoyma, tenderlər və s.) cəmlənmişdir ki, bu da bütün digər dövlətlərdə olduğu kimi korrupsiyanın, rüsvətin, çiçəklənməsinə, pul resurslarının səmərəsiz istifadə olunmasına gətirib çıxarır. Şəxslərin əlində qalan pul dövlətin sərəncamına keçən puldan 3-4 dəfə daha güclüdür, daha səmərəlidir və daha böyük nəticə verir. Bu yalnız Azərbaycanda deyil, butyolmərdə belədir.

*“2024-cu ildə elm və inkişaf xərcləri 1980-ci ilin analoji göstəricisindən 4 dəfə azdır”*

Daha bir təhlükəli meyl, xarici sektorun inkişafının da istehlakcılıq siyasətinə yönəlmәlidir. İdxal sürətlə artır, ixrac azalır.2024-cu ildə ixrac 10% azalmis, idxal isə 22% artmisdir. İxracın 96-97%-i xammal, idxalın bir o qədəri istehlak yönümlü mallardır. İxrac məhsullarının həcmi sürətlə düşməkdə davam edir. İdxala ehtiyac artır. Bir neçə ay əvvəl iqtisadiyyatın dərin islahatlara ehtiyacı olduğunu zəruri hesab etmişdir, 15 ən təcili tədbirlər haqqında hökumətə məlumat vermişdim. Bu prosesin mənbəyi proqnozlaran gəlir. O vaxt belə nəticələr gözlənilirdi. Hesab edirəm ciddi islahatlar həyata keçirmək çox zəruridir.Bu islahatları həyata keçirmək, iki rəqəmli artım səviyyəsinə nail olmaq üçün bu ölkədə hər cür imkan və şərait var. Sadəcə bu ölkənin iqtisadiyyatını xaosdan xilas etmək lazımdır

**Dərin hörmətlə,**
**prof. Saleh Məmmədov**

---

**Xəbər verdiyimiz kimi, fevralın 14-də Bakı İnzibati Məhkəməsində “Təzadlar” qəzeti rəhbərliyinin Dövlət İmtahan Mərkəzinə qarşı inzibati iddiasına baxılmışdır. Məhkəmənin İş№-2-1(112)-17311/2024 saylı, 28.12.2024-cü il tarixli SƏRƏNCAM-ı ilə iddia ərizəsi və ərizəyə əlavə edilmiş sübutlar hakim Orxan Həsənovun icraatına verilmişdi. Hakim həmin gün DİM-in nümayəndəsinin iştirakı ilə məhkəmənin hazırlıq iclasını keçirdi, cavabdehə vəkillik etməkdən belə çəkinmədi.**

# Hakim Orxan Həsənovun qanunsuz hərəkətindən Məhkəmə Hüquq Şurasına şikayət olundu

## Asif Mərzili: “Hörmətli İnam müəllim, Bakı İnzibati Məhkəmənin hakimi Orxan Həsənov cavabdehə vəkillik edirdi və...”



**Qəzetin baş redaktoru, Avropa Mətbuat Federasiyasının üzvü Asif Mərzili hakimin qanunsuz hərəkətindən Məhkəmə Hüquq Şurasının sədri İnam Kərimova şikayət ünvanlayıb. Şikayət məktubunda deyilir:**

**-Hörmətli İnam müəllim!** Bildirirəm ki, feralın 14-də Azərbaycan Respublikası İPM-nin 47-ci və 49-cu maddələrinə əsasən, iddiaçı “Təzadlar” Qəzeti Redaksiyasının cavabdeh Dövlət İmtahan Mərkəzinə qarşı “İnformasiya sorğusunun cavablandırılması” tələbinə dair iş üzrə iddia ərizəsinə Bakı İnzibati Məhkəmənin hakimi Orxan Həsənovun sədrliyi ilə baxıldı. Hakim ilk andan qarşı tərəfə tutalqa verən məlumatları sızdırmağa başladı. Məsələn, hakim dəfələrlə məndən soruşurdu ki, bu informasiya sorğusunda məqsədimiz nədir? Dərhal qarşı tərəf eyni sualla mənə suallar verirdi və mən izah etdikcə hakim məndən tələb edirdi ki, “Siz sualı ətraflı cavablandırın...” və s. Mən isə hakimin diqqətinə çatdırırdım ki, bu məqsəd “Media haqqında” Qanunda aydın şəkildə yazılıb... Hakim təkrar tələb edirdi ki, bir az da ətraflı izah verim. Təkrarən bir də izah edirdim ki, media subyekti və jurnalist informasiya toplamaqda, istehsal etməkdə və yaymaqda azaddır, onun üzərinə senzura tətbiqi yolverilməzdir! DİM rəhbərliyi isə bizim subyektiv hüquq və mənafelərimizi pozur, peşə fəaliyyətimizə əngəl törədir, senzuralıq edir. Jurnalistin və medianın məqsədi istehsal etdiyi informasiyanın ictimai əhəmiyyətliliyini nəzərə alaraq onu ictimailəşdirməkdir.

*“Hakimin bu hərəkətləri cavabdehin nümayəndəsi Mirzəağa Yaqubzadəni həvəsləndirərək təkrarən çaşdırıcı və gələcəkdə qəbul ediləcək qərarın məzmununa təsir edəcək sual verməyə yönəldirdi”*

Hakimin bu hərəkətləri cavabdehin nümayəndəsi Mirzəağa Yaqubzadəni həvəsləndirərək təkrarən çaşdırıcı və gələcəkdə qəbul ediləcək qərarın məzmununa təsir edəcək sual verməyə yönəldirdi. Məsələn, məhkəmənin hazırlıq iclasında hakim mənə bildirdi ki, axı bəzən bu tip sorğuları cavablandırmaq problemlər yaradır. Mən soruşanda ki, “Möhtərəm hakim, axı bu adi və sadə bir sorğudur. Sorğuda Bağırov Nahid Rza oğlu adlı şəxsin ali təhsili ilə bağlı məlumat özü tərəfindən artıq ictimailəşdirilmişdir, biz isə bunun DİM tərəfindən rəsmi təsdiqini xahiş etmişik”, hakim dərhal həmin şəxsin İsmayıllı rayon İH-nin başçısı olduğunu bildirdi.

**Sual yaranır:** Hakim bunu hardan bilirdi və ya bilirdisə də, bunu məhkəmə iclasında niyə açıqlayırdı? Axı mən informasiya sorğusunda həmin şəxsin statusu və ya vəzifəsi barədə heç nə yazmamışdım. Hansı ki, hakim məndən həmin sorğunun surətini istəyəndə sistemdə olmasına baxmayaraq, kağız variantını da ona təqdim etdim.

İkincisi və ən vacibi, məhkəmənin hazırlıq iclasında hakim DİM nümayəndəsinə nəsə müəmmalı və şübhəli işarə vurduqdan sonra, DİM nümayəndəsi M.Yaqubzadə məhkəməyə “İddiaya etiraz” ərizəsini təqdim etdi. Halbuki həmin sənəd əvvəldən məhkəmənin elektron kabinetinə yüklənməli idi. Hakim nümayəndəyə bildirdi ki, etirazın bir nüsxəsini iddiaçıya, yəni mənə də versin. Sonra məndən soruşdu ki, bu etirazı oxumusunuz? Dedim, xeyr, görürsünüz ki, indi təqdim edildi, amma niyə elektron kabinetə yüklənməyib? Ardınca bildirdim ki, oxuyub mövqeyimi bildirərəm.

Nəhayət, hərəkətindən və davranışından əvvəldən də sezildiyi kimi, hakim iddianın baxılmasının mümkünsüzlüyü barədə qərardad qəbul etdi və elan etdi ki, 10 gün müddətində həmin qərardaddan apellyasiya şikayəti verilə bilər.

**Hörmətli İnam müəllim,** əvvəla bildirim ki, mən fevralın 14-dən bu günədək elektron kabinetə daxil oluram və hakim hələ də qərardadı kabinetə yerləşdirməyib. Dünən sistemdə oxudum ki, guya qərardad fevralın 17-də, saat 14:38-də kabinetə yerləşdirilmişdir. Sitat: “e-2-1(112)-5911/2025 nömrəli iş üzrə 14.02.2025 tarixli Qərardad elektron kabinetdə yerləşdirildi”. Sistemə isə bu Qərardad hələ də yerləşdirilməyib. Niyə, nədir məqsəd??? Nəhayət, bu gün hakimin köməkçisinə zəng etdim, xanım israrla bildirdi ki, qərardad kabinetə yerləşdirilib. İzah etdim ki, xanım, mən kömpüterin önündəyəm, sistemdə yoxdur belə bir qərardad. Xanım dedi ki, yəqin sizin sistem işləmir. Bir daha başa salıram ki, xanım, hakim Orxan Həsənova çatdırın, bizim vaxtımız cəmi 10 gündür, bizi qəsdən yübadıb şikayət hüquqmuzu məhdudlaşdırmasın, qərardadı təcili olaraq sistemə yüklətdirsin. Köməkçi nə desə yaxşıdır: “Qoy onda hakimlə məsləhətləşim, görüm icazə verir?..”.

**Hörmətli İnam müəllim,** təsəvvür edirsimnizmi, hakim Orxan Həsənovun ölkəmizdəki qayda və qanunlardan qətiyyən xəbəri yoxdur, ölkə Prezidentinin məhkəmə sistemində aparılmalı olan islahatlara dair siyasi iradəsini belə saya salmır. Bəlkə də o sizin MHŞ-nin sədri olduğunuzu da bilmir!

Nəhayət, ən dəhşətli fakt: hakimin köməkçisi bir neçə dəqiqədən sonra mənə zəng edib deyir ki, hakim sistemə yükləməyə icazə vermədi, sabah gəlin kağız variantını götürün!

Bu artıq Azərbaycan dövlətinin adından qərar qəbul edən hakimin özbaşınalığının son həddidir! Görün canımızı və qanımızı qurban verdiyimiz, adını dünyaya ucaltdığımız bu dövlətin adından kim qərar qəbul edir!

**Hörmətli İnam müəllim,** sonda bir vacib məqam: DİM nümayəndəsinin “Etiraz” məktubunu bu gün oxumuşam. İnanın, məhkəmə iclası video və səs yazısı ilə qeydə alınırdı, araşdırsanız, təəssüflənəcəksiniz, hakimin hazırlıq iclasında mənə xitabən söyləyib, dolayısı ilə cavabdeh tərəf işarə vurduğu əsas xüsusatların hamısı bu “Etiraz”da əks olunub. Axı hakim həmin “Etiraz”ı mənimlə birlikdə məhkəmə zalında DİM nümayəndəsindən qəbul etdi. Hakim qabaqcadan “Etiraz”da yazılanları hardan bilirdi? Düşünürəm və əminliklə bildirirəm ki, savadlı tərtib olunmuş və müxtəlif qanunlara istinadlı həmin “Etiraz” hakim Orxan Həsənov tərəfindən əvvəlcə yazılıb DİM nümayəndəsinə verilmişdir. Çünki hakimin iddianın baxılmasının mümkünsüzlüyünü əsaslandıran fikirləri bu “Etiraz”da olduğu kimi əks olunub.

**Bunları nəzərə alaraq Sizdən xahiş edirəm:**

-”Məhkəmə və hakimlər haqqında” Qanunun tələblərini kobud surətdə pozduğuna görə hakim Orxan Həsənovun barəsində intizam icraatı başlaılsın!

Hörmətlə:

**Asif Mərzili, iddiaçı, jurnalist**
**Bakı şəhəri, 18 fevral 2025-ci il.**

# “Poz qazan” - vur dolsun qazan

**Sovet dövründə də lotereyalar oynanılırdı. 30 qəpiklik adi, 50 qəpiklik isə OADKYC (Orduya, Aviasiyaya, Donanmaya Könüllü Yardım Cəmiyyəti-Rus dilində “DOSAAF) lotereyaları var idi. Bu lotereyalar cəmiyyətdə çox obyektiv və düzgün qarşılanırdı. Çünki həmin lotereyalarla həm varlılar, həm də kasıblar nəsə uda bilirdilər. Kasıblar maşın udanda isə, varlılar həmin lotereyanı üçqat qiymətinə alırdılar. Çünki nə vaxtsa həbs olunma təhlükəsi olardısa, evi, əmlakı məhkəmə qərarı ilə müsadirə olunan zaman lotereya ilə udulmuş maşına dəymirdilər. Qısası, o dövrdə əhalidə bu lotereyalara böyük inam var idi. Uduşda maşından tutmuş, mebellərə, paltarlara və digər məişət avadanlıqlarına qədər, hər şey var idi. Hətta uduşda nağd pullar da olurdu. Özüm də bu uduşların şahidi və iştirakçısı olmuşam.**

## “Təzadlar”ın araşdırması dəhşətli faktları üzə çıxartdı

### *“Satılan hər 100 kartdan qazanılan 7 manatın da yarısını kəsirlər və bu azmış kimi, üstəlik, hər bir satıcı ayda “Azərlotereya”nın hansısa departamentinə adı məlum olmayan şəxsi karta 91 manat pul ödəyir...”*



Müstəqillik dövründə isə bir çox lotereya oyunlarını görmüşəm və açığı, bunlara heç vaxt inamım olmayıb. Son illər isə “Azərlotereya” ASC-nin “Poz qazan” adı altında”Tap qazan”(bunu nədənsə sonradan satışdan çıxartdılar) “Qızıl-9” və s. lotereya oyunları Bakı şəhərini və kəndlərini başına götürüb.

Özü də bu oyunlara ən çox aludə olan da binəva kasıb-kusublardır. “Bəlkə də bəxtim gətirdi” prinsipi ilə hər bir kasıb ən azından belə lotereyaların gün ərzində 3 və ya 4 ədədindən istifadə edir. Ən çox da guya 25 min manat uduşu olan 1 manatlıq kartlardan istifadə olunur. 2 manatlıq kartlarda 50, 3 manatlıq kartlarda 75, 5 manatlıq kartlarda 100, 10 manatlıq kartlarda isə, yalan olmasa, guya 500 min manat uduşlar var.

### Pozub qazanma, yoxsa, yazıb pozulma???

Bu dəfə redaksiyaya daxil olan şikayət və ya müraciətləri araşdırmaq, aydınlıq gətirmək üçün Bakının bir çox yerlərində həmin lotereyaları satanların yanında durub pozan müştəriləri müşahidə etməli oldum... Açığı, özüm də həvəslənib, banka borclu olduğumdan, “Bəlkə qazandım” arzusu ilə bu oyuna qoşularaq, bu dəfə qurbanlardan biri oldum. Məsələn, iki il ərzində, az da olsa inanmışam ki, bəlkə növbəti dəfə bəxtim gətirdi. Iri məbləğdə olan uduşlara qətiyyən ümid etməmişəm. Fikirləşmişəm ki, bəlkə 100, 1000 manat uda bildim. Aylarla bu uduşları nə özümdə, nə də başqalarında görmədiyimdən ümidimi 5, 10, ən çoxu isə 20 manatlığa bağlamışam. Həftədə 10-12 manat bu oyunlara pul xərcləmişəm ki, bəlkə hansısa bir uduşum oldu. Amma və lakin...

### Udub-uduzanların “Poz-qazan!” şəhəri...

Bu iki il ərzində inanın ki, nə mənə, nə də bir başqasına 20 manatdan yuxarı uduş düşməyib. Mənə cəmi 2 dəfə 20 manat düşüb. Nadir halda isə 1, 2, 3, 5 manatlıq uduşlar olub. Yəni, uduş bu məbləğlərdə olur. Artıq adamda şübhə yaranır ki, bu kartları mikroskopdan keçirib satışa buraxırlar. Ona görə də sonuncu manatını böyük ümidlə bu kartlara verən bədbəxt kasıb müflis olmasın, neyləsin...

***

...Burada bir maraqlı məqamı qeyd etmək istəyirəm. Həmin biletlərin sağ tərəfində “Bonus oyunu” deyilən yeri pozanda pul şəkli çıxsa, deməli, onun altında yazılan məbləği udmuş olursan. Çox vaxt isə həmin yerdən çətir, boyunbağı, at nalı, zər, tac və digər əşyaların şəkli çıxır. Altından yenə də 1, 3, 5, 10, 20 manat və sair rəqəmlər yazılmış olur. Bu lotereyanı dizayn edənlərin bir qram da olsun dəqiqliyi yoxdur. Əgər pul şəkli çıxıb, altında hansısa rəqəm varsa, deməli, həmin məbləğdə pulu udmusan də! Amma çətir şəklinin altında müxtəlif uduş rəqəmlərini yazmağın nə mənası var? Onsuz da çətirin altından çıxan rəqəm uduşlu deyil. Yaxşı olmazmı ki, həmin bonus yerində çıxan şəklin altında heç bir rəqəm olmasın! Yalnız pul şəkli çıxanda, müştəri onun altındakı rəqəmli pulu udduğunu biləcək. Əgər uduş üçün pul şəkli yoxdursa, çətirin altında 5 manat, 10 manat yazmağın mənası yoxdur!

*“Axtarışlarımdan və sosial şəbəkələrdən öyrənmişəm ki, bu “Poz-qazan” lotereyasını buraxanların illik qazancı 628 milyon manatdır”*

### Kim uduzdu, kim uddu...

İndi keçək mətləbə: dediyim kimi, araşdırma yazı hazırayıb bəzi mətləblərə aydınlıq gətirilməsi üçün bu biletlər satılan yerlərdə çoxsaylı müşahidələr aparmışam, şəkillər çəkmişəm. Neçə ay ərzində apardığım müşahidələr zamanı bircə dəfə də olsun iri məbləğdə pullar udan görməmişəm. Düzdür, ara-sıra eşidirəm ki, kimsə guya 25-50-100 min manat udub. Nəyə desəniz and içərəm ki, bunlar hamısı feykdir, ya da... o söz! Həmin “şanslı” adamlar niyə mediada sevincini bəzi klipli müğənnilər kimi paylaşmırlar, kimliklərini aydın şəkildə ictimaiyyətə açıqlamırlar???

Məsələ ondadır ki, imkanlıların onsuz da bu məbləğlərə ehtiyacı yoxdur. Çünki hər birinin korrupsiya və rüşvət yoluyla qazandıqları milyonlar var. Nəyinə lazımdır onlar üçün “semiçka pulu” olan 50 və ya 100 min manat? Amma o yazıq kasıbların 10-20 manata da ehtiyacları var. Elə bu “Poz-qazan” lotereyasını yaradıb, ortaya çıxardanlar da yalnız kasıblara “stavka” edirlər. Kasıblara da ki, bir hay lazımdır. İşsiz olduqlarından bütün günü düşürlər bu “Poz-qazan” lotereyalarının canına ki, guya onlar da nə vaxtsa, varlanacaqlar. Amma onların pulu ilə bəzi işbazlar babat varlanmayqdadırlar...

***

Çox təəssüf ki, bu lotereyaların tirajlarından məlumatım yoxdur və bunu öyrənmək də mümkün deyil. Amma axtarışlarımdan və sosial şəbəkələrdən öyrənmişəm ki, bu “Poz-qazan” lotereyasını buraxanların illik qazancı 628 milyon manatdır. Təsəvvür edirsinizmi? Onun kağızını və mətbəə xərclərini nəzərə alsaq, az qala “semiçka” puludur. Amma qazanca fikri verin - 628 milyon manat! Bu çox böyük rəqəmdir. Heç bir istehsal sahəsi olmayan, hansısa bir məhsul istehsal etməyən, adi kiçik bir kağız parçası ilə bir ildə 628 milyon manat qazanılması heyrətamizdir.




Dövlətə nə qədər vergi verilirsə, bu da məlum deyil. Məlum olan odur ki, “nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım”. Bu “Poz qazan” lotereyasının çanağı kasıbların başında çatlayır. Məhz o kasıbların sayəsində bu varlılar kapitallarını daha da artıraraq, necə deyərlər, qaz vurub, qazan doldururlar.

***

Bir çox instansiyalara müraciət etsəm də, bu, qazan dolduran “Poz-qazan”nın sahibinin kim olduğunu müəyyən edə bilmədim. Bu oyunun başında duran məmur kimdirsə, bəlli deyil...

***

Azərbaycanda qumar oyunları rəsmi qaydada qadağan edilib. Amma bu “Poz-qazan” lotereyaları elə əsl qumar oyunudur ki, var. Yəni, cüzi pula “stavka” etməklə milyonlar qazana bilirlər. Düzdür, “Azərlotereya” ASC rəsmi qurum sayılır.

### Bəs əmək qanunvericiliyinə “Azərlotareya” ASC-də necə əməl edilir?

Araşdırmamıza əsasən demək olar ki, bu qurumda əmək qanunvericiliyinin heç bir bəndinə əməl olunmur. Məlumat üçün deyim ki, Bakının küçələrində, ətraf qəsəbə və kəndlərdə, həmçinin rayonlarda bu kartları satanların sayını müəyyən etmək mümkün deyil. Belə insanların sayı minlərlədir. Bu insanların heç birinə aylıq əmək haqqı verilmir. Maraqlı deyilmi? Qeyd etdiyim kimi, qazanc ildə 628 milyon manatdır. Amma bu puldan heç kimə əmək haqqı nəzərdə tutulmur. Üstəlik, bu işçilərlə heç bir əmək müqaviləsi də bağlanmır. Bu isə açıq-aşkar vergidən yayınma və korrupsiya faktı deyilmi? Əlbəttə, məhz belə qanusuzluqların sayəsində bu oyunun arxasında duran işbazın bir ildə 628 milyon manat qazanması təəccüb doğurmamalıdır... Çünki uduşa pullar qoymur, ona bu milyonları qazandıranlara isə, əmək haqqı verilmir. Belə olan surətdə də kasıbların hesabına pullar sel kimi gələcək və necə ki, gəlir.

### “Poz-qazan”ın sirri açılır...

Araşdırma zamanı müəyyən etdim ki, bu kartları satanlar hər satılan 100 kartdan 7 manat, kart sahibləri isə 93 manat qazanır. Gün ərzində yağışdan sonrakı göbələklər kimi artmış bu dəmir köşklərin hər birində 400, 450 və 500 ədəd birmanatlıqdan 10 manatlığa qədər olan kartlar satılır. Bu satışdan satıcılara əmək haqqı olaraq qazandıqları 7 manatdan yox, yuvarlaqlaşdırıb 400-dən 500 manata qədər pul verirlər. Yəni, satılan hər 100 kartdan qazanılan 7 manatın da yarısını kəsirlər və bu azmış kimi, üstəlik, hər bir satıcı ayda “Azərlotereya” ASC-nin hansısa departamentinə “KapitalBank”dan olan şəxsi karta 91 manat pul ödəyir. O da maraqlıdır ki, heç kim də onlara demir ki, bu 91 manat nədir və nə üçün ödənilir? O da təəccüblüdür ki, həmin 91 manatı ödəmək üçün satıcılara verilmiş 16 rəqəmli kodu yığanda heç bir ad, soyad çıxmır. Pul banka yox, adı məlum olmayan şəxsin hesabına ödənilir. Bu şəxsi heç satıcılar da tanımır. Qədimlərdə yığılan “dinmə, ver” töycüsü kimi, həmin şəxs də satıcıları beləcə soyub, talayaraq, qul kimi istismar edir. Özü də yüksək texnologiyalar dövrü olan XXI əsrdə, belə talançılığı etməyə risk edirlər. Bu faktlardan korrupsiya iyi gəlmirmi? Bəs Dövlət Vergi Xidməti hara baxır? Əmək müfəttişləri də yəqin uzun müddətli “ezamiyyətə çıxıblar...”.

Hamının gözü qarşısında baş verən bu boyda cinayətləri niyə görmək istəmirlər? Axı şəhərin bütün nöqtələrində bu lotareyaları satanların heç bir zvzr müqaviləsi yoxdur, az olan əmək haqqı nağd şəkildə verilir, pullar bank hesablarına yox, adı məlum olmayan şəxsin kart hesabına ödənilir və s. Bunu bizə söyləyən satıcılar var... Daha nə baş verməlidir ki, sadladığım qurumlar qanunsuzluqları aradan qaldırmaq üçün hərəkətə keçsinlər? Maraqlıdır, deyilmi? Yayın istisində, qışın soyuğunda, səhərdən axşama qədər açıq havada bir tikə çörək puluna görə dözüb dayanan bu insanları anlamaq çətindirmi?

***

Bi məqamı da qeyd etmək istəyirəm. Qiymətindən asılı olmayaraq, hər bir kart bağlamada 200 ədəddir. Həmin bağlamaya satıcılar 186 manat verib hansısa adını bilmədikləri department rəsmisindən qəbul edirlər. Qazancları isə zəhmət haqqına uyğun olmur. Satıcılarla etdiyim söhbətdən aydın olur ki, onlarla əmək müqaviləsi yox, bu lotareyaları satmaq üçün adi bir müqavilə bağlanır. Deməli, bu yazıq insanlar üçün Dövlət Sosial Müdafiə Fonduna (DSMF) heç bir pul köçürülmür. Bu isə o deməkdir ki, pensiya yaşına çatanda əməyə görə yox, yaşa görə çox cüzi məbləğdə pensiya alacaqlar. Bu gün qazandıqları 3-5 manata “şükür” edənlər, gələcək həyatlarının problemlərini düşünmürlər. Amma onları qınamağın da yeri yoxdur. Bu satıcılar haqqında onları qul kimi işlədən, özləri isə bir ildə 628 milyon manat qazanan “Azərlotereya” ASC-nin sahibləri düşünməlidirlər.

Bundan əlavə, hamının gözü qarşısında minlərlə insanı müqaviləsiz işlədərək vergidən yayınan bu qurumun qanunsuzluğuna göz yuman Dövlət Vergi Xidməti, Əmək Müfəttişliyi də öz sözünü deməlidir. Baş Prokuror yanında Korrupsiyaya Qaşı Mübarizə Baş idarəsinin rəsmiləri, nəhayət, yerindən silkələnməli və üzünü baş verən korrupsiya faktına tərəf çevirməlidir.

Yazımı türk dünyasının nəhəng şairi Bəxtiyar Vahabzadənin 1996-cı ildə yazdığı “Vaydır əkdiyiniz” şeirinin 1-ci misrası ilə tamamlayıram:

*“Ey cibləri dolu, ürəyi boşlar,*
*Ey sərvət dəlisi, köhnə naxoşlar...”.*

Nə isə...

**Elçin MƏMMƏDLİ**

**Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayəti işləri üzrə məhkəmə prosesinin baxış iclası fevralın 18-də davam etdirilib. Tezadlar.az xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.**

# Onların Qarabağda törətdiyi qanlı cinayətlər sərhəd tanımır!

*“Təcavüzkar müharibə nəticəsində Azərbaycan Respublikasının mülki infrastrukturuna, iqtisadiyyatına, ekologiyasına, müdafiə arsenalına və digər sahələr üzrə Azərbaycan Respublikasına ümumilikdə 100 milyard manatdan artıq maddi ziyan vurulub”*



Məhkəmənin baxış iclasında zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, habelə Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak ediblər.

Budəfəki məhkəmə iclasında ittiham aktının Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş ayrı-ayrı cinayət faktlarına dair epizodlar, habelə Azərbaycan Respublikasının hərbi arsenalına və mülki infrastrukturuna vurulmuş maddi ziyanın məbləği elan edilib.

Dövlət ittihamçıları Fuad Musayev və Vüsal Abdullayev təcavüzkar müharibənin gedişində törədilmiş ayrı-ayrı cinayət faktları və iş üzrə təqsirləndirilən şəxslərin həmin cinayətlərdə iştirakına dair ittiham aktının hissəsini elan ediblər.

Bildirilib ki, 1988-2024-cü illər ərzində 3493 nəfəri mülki, 15 min 357 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 18 min 850 şəxs qəsdən öldürülüb, 4435 nəfəri mülki, 51 min 803 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 56 min 268 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə qəsdən öldürülmələrinə cəhd edilib.

Sonra dövlət ittihamçısı Təranə Məmmədova təcavüzkar müharibənin gedişində törədilmiş bir sıra konkret cinayət faktlarını sadalayıb.

Qeyd edilib ki, 1988-ci ilin fevralından başlayaraq Xankəndi şəhərində yerləşən Xankəndi Pedaqoji İnstitutunda müəllim işləyən azı 17 pedaqoji işçi, habelə ali təhsil alan azı 17 azərbaycanəsilli tələbə məhz azərbaycanlı olduqları üçün məcburi qaydada kütləvi şəkildə həmin institutdan qovulub.

1988-ci il fevralın 20-də - Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR-ə verilməsi haqqında qərarın çıxarılaraq SSRİ Ali Sovetinə göndərilməsindən cəmi bir gün sonra, yəni, 1988-ci il fevralın 21-də Əsgəran rayonu ərazisində odlu silahlarla aramsız atəşlər açılması nəticədə Xankəndi şəhərinin dinc mülki sakini Əhmədov Əhməd Bəhmən oğluna güllə yarası xəsarəti yetirilib.

1988-ci il iyulun 9-da milis orqanlarına daxil olmuş məlumat əsasında həmin ilin mart-aprel aylarında Xankəndi şəhərində yerləşən Kondensator zavodunda müxtəlif qurğular vasitəsilə kustar üsulla hazırlanmış silahlar və partlayıcı qurğular, habelə əl qumbaraları aşkar edilərək götürülüb.

1988-ci il sentyabrın 20-də Xocavənd rayonunun Günəşli kəndinə odlu silahlardan və tüfənglərdən istifadə olunmaqla edilmiş hücum nəticəsində həmin kəndin dinc sakini Balakişiyev Məhəmmədəli Qəhrəman oğlu qəsdən öldürülüb.

Qarabağ İpək kombinatının təmir-tikinti sahəsinin rəisi Ayrapetyan Slavik Calaloviç, kombinatın partiya komitəsinin katibi Köçəryan Robert Sedraki, baş mühəndis Simonyan Vladimir Semenoviç, həmkarlar təşkilatının sədri Mesropyan Bella Surenovna və qeyriləri 1988-ci ilin sentyabr ayı ərzində iş yerinə buraxmamaqla və hədə-qorxu gəlməklə Qarabağ İpək kombinatında işləyən azərbaycanəsilli şəxsləri kütləvi şəkildə iş yerindən qovaraq əmək hüquqlarından zorla məhrum ediblər.

**Ermənistan Respublikası Silahlı Qüvvələrinin törətdiyi çoxsaylı cinayətləri videolentə alaraq dünya ictimaiyyətinə çatdırmaq məqsədilə 1992-ci il iyunun 15-də Xocalı rayonunun Naxçıvanlı kəndinə ezam olunmuş Azərbaycan Dövlət Televiziyasının “215 KL” studiyasının rəhbəri, jurnalist Mustafayev Çingiz Fuad oğlu həmin gün saat 11:00 radələrində çəkiliş aparаrkən yaxınlığına düşüb partlamış minaatan mərmisinin qəlpələrinin bədəninin müxtəlif nahiyələrinə dəyməsi nəticəsində qəsdən öldürülüb.**

2017-ci il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndi istiqamətində müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və mülki əhaliyə zirehli texnikalardan atəş açılıb, “OQ-9M” markalı 73 millimetr çaplı, qəlpəli qumbaranın Alxanlı kəndinin ərazisinə düşərək partlaması nəticəsində kəndin dinc sakinləri Allahverdiyeva Sahibə İdris qızı və 2016-cı il təvəllüdlü azyaşlı Quliyeva Zəhra Elnur qızı müxtəlif bədən xəsarətləri alaraq qəsdən öldürülüb.

2020-ci il iyulun 14-də Ermənistan Respublikasının Tavuş vilayəti Berd rayonu Movses kəndi ərazisində yerləşən mövqelərdən və ələ keçirilmiş “Ara postu” adlanan döyüş mövqeyindən iriçaplı artilleriyadan Müdafiə Nazirliyinin Tovuz rayonunun Ağdam kəndində yerləşən “N” saylı hərbi hissəsinin müvafiq döyüş postunun yaxınlığında qurulmuş sığınacaq istiqamətində atəşlər açılıb, atılmış mərminin sığınacağa düşərək partlaması nəticəsində general-mayor Həşimov Polad İsrayıl oğlu, polkovnik Mirzəyev İlqar Anzor oğlu, mayor Əhmədov Namiq Hajan oğlu, mayor Novruzov Anar Gülverdi oğlu və gizir Babayev Yaşar Vasif oğlu qəsdən öldürülüb.

2020-ci il oktyabrın 2-də işğal altında saxlanılan Ağdərə, Ağdam rayonları və digər ərazilərdəki mövqelərdən “Qrad” (“BM-21”) reaktiv yaylım atəş sistemlərindən, iriçaplı digər silahlardan Tərtər rayonunun hərbi əməliyyatların aparılmadığı, hərbi obyektlərin yerləşmədiyi, dinc əhalinin sıx yaşadığı yerlərinə açılmış çoxsaylı atəşlərin mərmilərindən birinin Tərtər rayon prokurorluğunun inzibati binasının qarşısında avtomobil yolunun üzərinə düşüb partlaması nəticəsində Ermənistan silahlı qüvvələrinin törətdiyi cinayət faktlarına görə başlanmış cinayət işləri üzrə yaradılmış istintaq qruplarının üzvü, Sumqayıt şəhər prokurorluğunun Tərtər rayon prokurorluğuna ezam olunmuş böyük müstəntiqi Həsənov Ozal Mübariz oğluna sağlamlığa ağır zərər vurmaya aid xəsarətlər yetirilib.

Daha sonra çıxış edən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev elan edib ki, 1990-cı illərin əvvəllərindən 2023-cü il sentyabrın 20-dək olan müddət ərzində müxtəlif iri və kiçik çaplı silahlar, sursatlar, artilleriya qurğuları, raketlərdən atəşlər açılmaqla edilmiş silahlı hücumlar nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin müdafiə arsenalına aid, 908 milyon manatdan artıq dəyərdə hərbi əmlaklar məhv edilib, yararsız hala salınıb və ya ələ keçirilib.

2001-ci ilin əvvəllərindən 2021-ci il mayın sonlarınadək olan müddət ərzində “İsgəndər-M” əməliyyat-taktiki təyinatlı ballistik raketi, “Toçka-U” taktiki raket kompleksi, “9K33 OSA” özü yeriyən zenit raket kompleksi, “S-8” idarə olunmaz təyyarə raketi, “Smerç”, “TOS-1A Solntsepek” sistemləri, “İqla-S” zenit-raket kompleksləri, tank əleyhinə idarə olunan “Konkurs” və “Kornet” raketləri, “RPQ-26” qumbaraatanları və digər iriçaplı odlu silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular qanunsuz əldə edilərək Rusiya Federasiyasından gizli üsullarla Ermənistan Respublikasına, oradan isə Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində əvvəllər işğal altında olmuş Azərbaycan Respublikasının ərazisində qanunsuz olaraq qurulmuş mühəndis-istehkam mövqelərinə yerləşdirməklə Azərbaycana qarşı təcavüzkar müharibədə istifadə edilib.

Eyni zamanda, təcavüzkar müharibə nəticəsində mülki infrastruktura Birinci Qarabağ müharibəsi və sonrakı dövrlərdə, habelə İkinci Qarabağ müharibəsi dövründə ümumilikdə 5,2 milyard manatdan artıq məbləğdə maddi ziyan vurulub.

Təcavüzkar müharibə nəticəsində Azərbaycan Respublikasının mülki infrastrukturuna, iqtisadiyyatına, ekologiyasına, müdafiə arsenalına və digər sahələr üzrə Azərbaycan Respublikasına ümumilikdə 100 milyard manatdan artıq maddi ziyan vurulub.

Yekunda Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli təqsirləndirilən şəxslər Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, Harutyunyan Arayik Vladimiri, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi, Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Babayan Madat Arakeli, Paşayan Melikset Vladimiri, Martirosyan Qarik Qriqori, Balayan Levon Romiki, Stepanyan Qurqen Homerosi, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti və Allahverdiyan Davit Nelsoninin ittiham olunduqları Cinayət Məcəlləsinin müvafiq maddələrini elan edib.

Bununla da iş üzrə ittiham aktının nəticəvi hissəsinin elanı başa çatıb.

Daha sonra məhkəmə iclasına sədrlik edən hakim Zeynal Ağayev təqsirləndirilən şəxslər Arayik Harutyunyana və Arkadi Qukasyana qarşı irəli sürülmüş hər bir ittihamın mahiyyətini, onlara istinad edilən əməllərin hüquqi tövsifini, həmin əməllərə görə cinayət qanunu ilə nəzərdə tutulan cəzanı və təqsirləndirilən şəxslərin malik olduğu hüquqları izah edib, habelə özlərini təqsirli bilib-bilməmələrinə dair suallar ünvanlayıb.

Arayik Harutyunyan və Arkadi Qukasyan məhkəməyə müraciət edərək müdafiəçiləri ilə konfidensial görüş keçirmək istədiklərini, bundan sonra suallara cavab verəcəklərini bildiriblər.

Məhkəmənin növbəti iclası fevralın 20-nə təyin olunub.

Növbəti məhkəmə iclası təqsirləndirilən şəxslərin hər birinə onlara qarşı irəli sürülmüş hər bir ittihamın mahiyyəti, onlara istinad edilən əməllərin hüquqi tövsifi və həmin əməllərə görə cinayət qanunu ilə nəzərdə tutulan cəzaların izah olunması, irəli sürülmüş ittihamlar üzrə özlərini təqsirli bilib-bilməmələrinə dair sualların aydınlaşdırılması ilə davam etdiriləcək.

**Xatırladaq ki, sözügedən cinayət işi üzrə 15 nəfər - Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiriyə qarşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.**

# General-mayor Həzi Aslanovla bağlı şok xəbəri Azərbaycana kim gətirib?!

*Həzi Aslanovun şəxsi həkimi Georgi Beqiaşvili: "O yaralanarkən yanında olmuşam. Çoxlu qan itirmişdi. Qan qrupumuz eyni olduğu üçün ona mənim qanım vuruldu və o gözlərini açarkən dedi: "Bundan sonra sən mənim qan qardaşımsan.”*

**Bu günlərdə tanımadığım bir nömrədən mobil telefonuma zəng gəldi. Açdım. Salam verib danışan gənc bir oğlan özünü təqdim etdi: -Adım Ağamirdi, sizin dostunuz olmuş rəhmətlik vəkil Əlizadə Kazımovun oğluyam.**

Çox sevindim ki, doğrudan da tək mənim yox, baş redaktor Asif Mərzilinin və qəzet kollektivinin yaxın dostu olmuş Əlizadə Kazımovun oğlu ilə danışıram. Ə.Kazımov çox prinsipial və obyektiv vəkil idi. Uzun müddət polisdə yol-nəqliyyat hadisələri üzrə təhqiqatçı olduğundan, bu iş üzrə məhkəmələrdə balıq özünü suda hiss edən kimi hiss edirdi. Ona görə də vəkil kimi fəaliyyəti dövründə 60-a qədər bəraət hökmünün çıxarlmasına nail olmuşdur. Qəzetimiz və saytımızla yaxından əməkdaşlıq edən Əlizadə müəllim, müdafiə etdiyi şəxslərin hüquqlarını axıra qədər obyektiv və qərəzsiz qorumuşdur. Vətəndaşların hüququ tərəfdən maarifləndirilməsi üçün qəzetimizin səhifələrində maraqlı yazıları ilə çıxış edirdi. Allah Əlizadə müəllimə qəni-qəni rəhmət eləsin. Ağamirlə danışarkən bütün bunlar yenidən lent kimi gözlərimin önündən keçdi...

Hal-əhval tutandan sonra Ağamir bəydən hansısa probleminin olub-olmadığını soruşdum. Cavab olaraq təşəkkür etdi və heç bir probleminin olmadığını bildirərək dedi:- Elçin müəllim, şəxsi heç bir problemimiz yoxdur. Amma Həzi Aslanov haqqında dayım Seyfəddin Əliyevin bir yazısı var. Ana babam, məşhur həkim olmuş Baldadaş Əliyevin, vaxtı ilə gərgin əməyi sayəsində Həzi Aslanova 2-ci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi üzə çıxmışdır. Lakin bunu başqasının adına çıxıblar. Fevralın 15-də mərhum babamın doğum günüdür. Belə bir gündə bu mövzuda yazını dərc edə bilərsiniz?

Təklif etdim ki, yazını elektron poçtuma göndərsin.Göndərdi. Yazı ilə tanış olandan sonra, gördüm çox maraqlı bir mözudur. İnanıram ki, II dünya müharibəsində göstərdiyi misilsiz qəhrəmanlıqlara görə İki dəfə Sovet İttifaqı Qəhrəmanı adını almış general-mayor Həzi Aslanov haqqında bu yazı, əsl sensassiya olacaq. Belə maraqlı yazını bizə göndərdiyi üçün, yaxın dostumuz olmuş, rəhmətlik Əlizadə Kazımovun oğlu, dəyərli Ağamir Kazımova dərin təşəkkürümü bildirirəm. İndi isə, Seyfəddin Əliyevin çox ustalıqla qələmə aldiğı yazını, olduğu kimi, sevimli oxucularımızın diqqətinə təqdim edirəm.

***

Peşəkar, bacarıqlı sərkərdə, Həzi Aslanovla bağlı son illərdə çəkilmiş sənədli filmlər tamaşaçıda 1944-cü ildə verilmiş ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının bərpasını, Əməkdar Jurnalist mərhum Musa Bağırovun zəhmətinin bəhrəsi olması qənaətini yaradır.Həmin sənədli filmlərdə bir həkim də ekspert kimi yer alır.Bu lənkəranlı burun-boğaz-qulaq (LOR) həkimi Baldadaş Əliyevdir.Həmin sənədli filmlərin hər birində dominant olaraq professor Musa Bağırovun və onunla yanaşı, doktor Baldadaşın müsahibəsi təqdim olunur. Tamaşaçı da bilmir ki, bu şəxs lənkəranlı el ağsaqqalıdır, Həzi Aslanovun döyüş yoldaşıdır, yoxsa qəhrəmanımızın aldığı yaranın, bədən xəsarətinin ağırlığını xarakterizə etmək üçün dəvət olunmuş həkim-ekspert?! Təsəvvür edin ki, doktor Baldadaş çəkilişlərə dəvət olunur, müsahibə verir, amma sonradan istədikləri yerləri qayçılayırlar. Həmin sənədli filmi izləyən tamaşaçı bilmir ki, 1944-cü ildə Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi xəbərini Azərbaycana ilk gətirən şəxs bu kişidir! Bu nə qısqanclıq, bu nə ayrı-seçkilikdir? O da maraqlıdır ki, bu həqiqəti saxtalaşdırmaq kimə sərf edirmiş? Google axtarış sisteminə daxil olub ”Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi” sözünü yazıram.

Əlbəttə, bunu Google-a kimsə yerləşdirib. Materialda qeyd olunur ki, guya rejissor Musa Bağırov 1983-cü ildə Azərbaycan Televiziyasının sifarişi ilə General Həzi Aslanov haqqında sənədli film çəkir və həmin sənədli filmin təqdimatında hansısa müharibə veteranı deyir ki, H.Aslanov ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür... Buradan bir neçə sual doğur: Əvvəla, o veteran hərbçinin adı, soyadı nə idi? Niyə Musa Bağırov ondan heç olmasa, arayış formasında bir yazılı izahat almadı?Bilirik ki, Professor Musa Bağırov arqument olaraq, rəsmi məlumata istinad edən peşəkar jurnalist idi. Deməli, belə bir şey olmayıb. Əslində o zamanlar Azərbaycanda kimsənin yuxusuna belə girməzdi ki, Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilib...1984-cü ilin aprelinə qədər Azərbaycanda bir insan deyə bilməzdi ki, mən kimdənsə belə bir şey eşitmişəm...Bu mümkün deyildi! Niyə?Niyə məhz 1984-cü ilin apreli? Bax bunun çox maraqlı bir tarixi var...



1984-cü ilin aprel ayı...Doktor Baldadaş təkmilləşmə kursu keçmək üçün Tbilisi Həkimləri Təkmilləşdirmə İnstitutuna ezam olunur. Həmin institutun prorektoru, professor G.R.Beqiaşvili kursa gəlmiş həkimlərin anket sənədləri ilə tanış olarkən Lənkəranlı LOR həkim Baldadaş Əliyevi kabinetinə çağırtdırır və ona belə deyir:

- Sizi lənkəranlı olduğunuz üçün çağırtdırmışam. Həmyerliniz Həzi Aslanov mənim cəbhə yoldaşım olub.Mən onun şəxsi həkimi olmuşam. O yaralanarkən yanında idim. Çoxlu qan itirmişdi. Qan qrupumuz eyni olduğu üçün ona mənim qanım vuruldu və o gözlərini açarkən dedi: ”Bundan sonra sən mənim qan qardaşımsan.”

O tamam sağaldı. Sonra məni başqa bir yerə göndərdilər və daha sonra məlum oldu ki, o müəmmalı şəkildə vəfat etmişdir.Onun ölümü mənim üçün sirr olaraq qaldı. Baldadaş həkim, sənə 40 il qəlbimdə gizlədiyim bir sirri açacağam.1944-cü ildə göstərdiyi fövqəladə rəşadətə görə ona ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilməsi ilə əlaqədar təqdimat hazırlanır, sərəncam imzalanır. Lakin təltif mərhələsinə az qalmış Həzinin müəmmalı ölümü ilə, müvafiq sənədlərin yoxa çıxması eyni vaxta təsadüf edir. Buna baxmayaraq, SSRİ Müdafiə Nazirliyinin Baş arxivində bütün sənədlər saxlanılır.Vətənə qayıdan kimi bu məsələni əlaqədar təşkilatlar qarşısında qaldırın və bu sənədlərin axtarılıb tapılmasında mən sizə hər cür kömək etməyə hazıram.

Kursu başa vurandan sonra doktor Baldadaş Vətənə qayıdır və mücadiləyə başlayır. Heç kim bu məlumatı ciddiyə almır. Hamı bunu absurd sayır və ona heç kəs inanmır. Doktor Baldadaş Moskvaya gedir və SSRİ Müdafiə Nazirliyinin Baş arxivinə daxil olmaq üçün münasib adam axtarır. Lakin ondan səlahiyyət tələb olunaraq, yaxına buraxılmır.Hətta əsəbdən və həyəcandan bədənində allergik səpkilər yaranır. Kor-peşman Azərbaycana qayıdan doktor Baldadaş qarşısına məqsəd qoyur ki, Həzi Aslanovun oğlu, Azərbaycan SSR Daxili İşlər Nazirinin müavini Tofiq Aslanovu Georgi Rafaeloviç Beqiaşvili ilə görüşdürməlidir! O dəfələrlə Tofiq Aslanovun qəbulunda olur, onu inandırmağa cəhd edir və ən nəhayət, onun G.R.Beqiaşvili ilə telefon əlaqəsinin yaranmasına nail olur. G.R.Beqiaşvili onu Tbilisiyə dəvət edir, onlar görüşürlər.Bundan sonra hadisələr yüksələn xətt üzrə inkişaf edir.Tofiq Aslanovun əməkdar jurnalist Musa Bağırovu proseslərə cəlb etməsindən sonra, doktor Baldadaş arxa plana keçir.7 illik mübarizədən sonra Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsilə əlaqədar SSRİ Ali Sovetinin sədri M.S.Qorbaçov fərman imzalayır. Bu mühüm hadisə ilə bağlı sənədli filmlər çəkilir, silsilə televiziya verilişləri təşkil olunur və kimsə bir kəlmə belə demir ki, doktor Baldadaş, sağ olun ki, bu haqq mübarizəsini siz başladınız, əzm, iradə nümayiş etdirdiniz, xarakter göstərdiniz! M.S.Qorbaçovun imzası ilə yekunlaşan 7 illik ədalət, həqiqət mübarizəsinin əsas carçısı, detanatoru, təəssübkeşi siz oldunuz!

Hörmətli oxucular! Sizi uzun-uzadı mülahizələrlə yormaq istəmirəm.Sonda sizə iki fotoşəkil təqdim etmək istəyirəm.



1944-cü il. Aşağı cərgədə soldan üçüncü Həzi Aslanov, yuxarı cərgədə sağdan birinci isə Georgi Beqiaşvilidir.



1984-cü il. Aşağı cərgədə sağdan birinci Georgi Beqiaşvili (qara oxla göstərilib), yuxarı cərgədə soldan 6-cı isə Baldadaş Əliyevdir (ağ oxla göstərilib).

İndi bu iki fotoşəkili uzlaşdırın və məntiqinizə əsaslanaraq bir sualıma cavab verin: Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi faktının gizlədilməsi xəbərini Azərbaycana ilk gətirən kişi kimdir?

P.S. Əziz oxucu! Bu xəbəri Azərbaycana gətirən, hətta bu xəbəri qeyri-ciddi sayaraq, bu fakta istehza edib, lağa qoyanların fikrini alt-üst edərək, yorulmadan, usanmadan mücadilə aparan kişinin, fevralın 15-də mövlud günüdür... Təəssüflər olsun ki, doktor Baldadaş dördüncü aydır ki, aramızda yoxdur və bu gün, 15.02.2025-ci il tarixində o doğumunun 89-cu ildönümünü soyuq məzarda qarşılayır... Nə yaxşı var olmusunuz, doktor Baldadaş! Milli iftixarımız, görkəmli sərkərdəmiz Həzi Aslanovla bağlı göstərdiyiniz çabalar, çəkdiyiniz əziyyətlər öz bəhrəsini verdi... Xalqımız bu əziyyətinizi heç vaxt unutmayacaq... Əcrinizi Allah verəcək! Rahat yatın! Allah Sizə Rəhmət eləsin! Amin...

***

Gecikmiş etiraf: Əməkdar İncəsənət Xadimi Polkovnik Abdulla Qurbaninin 2012-ci ildə nəşr olunmuş ”General M.Nəsirov xatirələrdə” kitabının 139-cu səhifəsində Əməkdar Jurnalist, professor Musa Bağırov yazır: ”1984-cü ildə belə bir xəbər eşitdim ki,Tank qoşunları general-mayoru H.Aslanova bir deyil, iki dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Düzdür, əvvəllər də belə söz-söhbət gəzirdi.Ancaq bunun şahidi olan bir nəfərin Gürcüstanda yaşadığını bilmirdim, daha doğrusu bu xəbəri Azərbaycana ilk dəfə ixtiraçı-həkim Baldadaş Əliyev gətirmişdir.”

Belə yerdə deyiblər ki, ”haqq nazilər, amma üzülməz”. Gec də olsa, B.Əliyev zəhmətinin bəhrəsini görüb...

***

***Qısa tanıtma:***

Baldadaş Əliyev həm də görkəmli ixtiraçı-həkim olmuşdur. O, 350-dən artıq ixtira, səmərələşdirici təklif və ideyalar müəllifidir. Onlardan 9-na SSRİ Dövlət İxtira Komitəsi, Rusiya Federasiyası Dövlət İxtira Komitəsi tərəfindən müəlliflik şəhadətnaməsi və patentlə bağlı sənədlər verilmişdir.

Allah rəhmət eləsin!

**Seyfəddin Əliyev**

**Hazırladı və təqdim etdi: Elçin MƏMMƏDLİ**

---



**Ramiz MÖVSÜM**

## TELEFONÇU QIZ

*BAKCELL şirkətinin əməkdaşı*
*Çinarə xanım Qurbanovaya*
*Ithaf olunur*

Bir gün düşdü həmən xanıma işim;
Nəyə desən, dəydi səmimiyyəti...
Ürəyimcə oldu bura gəlişim, -
Məni valeh etdi mədəniyyəti!..

O, iş əsnasında başqaları tək,
Bəzək-düzəyilə məşğul olmayır.
Fayda versin deyə, çəkdiyi əmək, -
Vaxtı əsas meyar, əsas şərt sayır.

Boyasız üzündə ilıq təbəssüm,
Gözlərində işıq, nur gördüm onun.
Əzminə güc verdi iradə, dözüm;
Qalxdı zirvəsinə sənət yolunun!..

Düşüb nəzərindən süni nə varsa,
Boş yerə olmayıb yəqin gileyi.
Nəyi sevdiyini kim ondan sorsa,
Deyər ki, bəyənir təbiiliyi!..

Dəbə göstərməyib zərrə həvəs də,
Əyninə ən sadə paltar geyibdi.
Özünün təbii dırnağı üstə
Süni dırnaq qaynaq etdirməyibdi...

Uymayıb plastik əməliyyata;
Bu işi lüzumsuz, hədər sayıbdı.
Tanrı verən canla gəlib həyata,
Əzasına ”yamaq” vurdurmayıbdı...

...Qarışıb dünyanın qarası, ağı;
Həyat həm şirindir, həm də acıdır...
Sadəliyi onun baş ucalığı,
Namusu, isməti qeyrət tacıdır!..

***27 yanvar 2025.***

# Ədliyyə Nazirliyi niyə Nərimanov rayonunun məhkəmə icraçısı Rəfail Hüseynovun öhdəsindən gələ bilmir?

## “MTN işi”ndən “Qurd” çıxdı: Bakı Apellyasiya Məhkəməsindən “Qatığ”ın qara olması qərarı aləmi bir-birinə qatdı”

**Nəhayət, “MTN işi” üzrə zərərçəkən Hüseyn Səfərovun Nərimanov rayon Məhkəməsinin qərarından verdiyi apellyasiya şikayətinə Bakı Apellyasiya Məhkəməsində (hakim Elmar Rəhimovun sədrliyi ilə) baxılaraq qərar qəbul edilib. Zərərçəkmiş H.Səfərov “Təzadlar”a bildirdi ki, Nərimanov rayon İcra Şöbəsinin məhkəmə icraçısı Rəfail Səfərovun qanunsuz olan və Bakı Hərbi Məhkəməsinin Azərbaycan Respublikası adından çıxardığı hökmə açıq-aydın müdaxilə edən qərarının ləğvini tələb edərək məhkəmə qərarının icrasını tələb edir.**



**Sitat: “”Lakin məhkəmə icraçısı hansısa maraqlar naminə Azərbaycan Dövlətinin adından çıxarılan qərarı icra etmək istəmir. Belə çıxır ki, məhkəmə məhkəmə icraçısının tələblərinə tabedir?! Bildiyiniz kimi, 2023-cü ildə Bakı Apellyasiya Məhkəməsi Mövlam Şıxəliyev və digərilərinin apellyasiya şikayətini təmin etmədi. Bundan sonra Mövlam Şıxəliyev və başının dəstəsi Ali Məhkəməyə kassasiya şikayət verdilər. Bakı Apellyasiya Məhkəməsinin bu cinayət işi üzrə qərarından sonra mülki iddialarımız icraya yönəlməsi üçün Bakı Hərbi Məhkəməsinə göndərildi. Bakı Hərbi Məhkəməsi iş üzrə 16 mülki iddiaçının adına icra vərəqələri yazıb Nərimanov Rayon İcra Şöbəsinə göndərdi. İcra materialları icra məmuru Rəfail Səfərovun qərarı ilə eyni icraatda birləşdirildi. Lakin Nərimanov Rayon İcra Şöbəsi 2 ilə yaxın icraya başlamaqdan ən müxtəlif bəhanələrlə yayındı. Nəhayət, aidiyyəti üzrə şikayətlərimizdən sonra Nərimanov Rayon İcra Şöbəsinin rəisi Zaur Abdullayev 10 iyun 2024-cü ildə Bakı Hərbi Məhkəməsinə məktub yazıb icra məmuru Rəfail Səfərova məhkəmə qərarının izah olunması barədə ərizə təqdim etdi. Vaxt uzatmağa hesablanan bu ərizəyə məhkəmə gözlənilən cavabı verdi. İcra məmuru Rafail Səfərovun ərizəsinə məhkəmədən cavab yazıldı ki, hökmdə aydın olmayan heç bir müddəa, izah olunası xüsusat yoxdur. Yəni, ağlını başına yığ, məhkəmə qərarını icra et! Hökm aydındır, ikimənalı və ya anlaşılmayan ifadə yoxdur. İcra sənədləri, sənədlərin mətninə uyğun şəkildə icra olunmalıdır və sair” Bu cavabdan sonra, nəhayət, icra işinin başlayacağı və Bakı Hərbi Məhkəməsinin hökmünün icra ediləcəyini düşündük. Lakin bunun əvəzinə məhkəmə icraçısı Rəfail Səfərov Cavidan Hacıyevi də yanına alıb bu dəfə də eyni mahiyyətli izah tələbi ilə Bakı Hərbi Məhkəməsinə müraciət etdilər. Bakı Hərbi Məhkəməsində 1 iyul 2024-cü ildə hakim Fikrət Əliyevin sədrliyi ilə məhkəmə icraçısı Rafail Səfərovun növbəti və eyni məzmunlu izah tələbinə baxıldı. Bakı Hərbi Məhkəməsinin 01.07.2024-cü il taxixli, İş N 7-1(093)-12/2024 Qərarı ilə icra məmuru Rafail Səfərova və yanına aldığı Cavidan Hacıyevin izah tələbinə belə bir cavab verildi: “Hökmdə aydın olmayan heç bir müddəa, izah olunası xüsusat yoxdur. Hökm aydındır, ikimənalı və ya anlaşılmayan ifadə yoxdur. İcra sənədləri sənədlərin mətninə uyğun şəkildə icra olunmalıdır!”. Bu qərardan sonra da icra işi başlanmadı. Bu dəfə məhkəmə icraçısı Rəfail Səfərov həmin izah qərarından Bakı Apellyasiya Məhkəməsinə şikayət verdi. Yenə də izah tələbi irəli sürdü. Bakı Apellyasiya Məhkəməsində hakim Emin Mehdiyevin sədrliyi ilə 26 avqust 2024-cü ildə şikayətə baxıldı. Məhkəmənin 7-1(103)-3/2004 saylı qərarında yazıldı ki, “”birinci instansiya məhkəməsi düzgün olaraq hesab etmişdir ki, hökmlə həll edilməyən və ya hansısa qaydada həll edilmiş məsələlərə hökmə izah verilməsi qaydasında yenidən baxılması, yeni halların müəyyən edilməsi, hökmdə həll edilən məsələlərin mahiyyətinin dəyişdirilməsi qanunda nəzərdə tutulmamışdır. Mülki iddia verməyən zərərçəkmiş şəxslərə dəymiş ziyanın ödənilməsi, mülki iddianın təmin edilməsi barədə müddəanın fərqli qaydada izah və təfsir edilməsi qanuni və əsaslı sayıla bilməz. Birinci instansiya məhkəməsi düzgün olaraq hesab etmişdir ki, icra sənədi verilməsinə əsas olmuş hökmdə aydın olmayan heç bir müddəa, izah olunası xüsusat yoxdur. Hökm aydındır, ikimənalı və ya anlaşılmayan ifadə yoxdur. İcra sənədləri sənədin mətninə uyğun şəkildə icra olunmalıdır. İzah verilməsinə dair ərizə təmin olunmamalıdır”.**

> *“Bakı Apellyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin gəldiyi qənaəti qanuni, əsaslı və işin faktiki hallarının düzgün qiymətləndirilməsi kimi qəbul etdi, amma...”*

**Beləliklə, Bakı Apellyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin gəldiyi qənaəti qanuni, əsaslı və işin faktiki hallarının düzgün qiymətləndirilməsi kimi qəbul etdi. Bundan sonra məhkəmə icraçısı Rəfail Səfərov məcbur olub icra işinə başladı. Lakin özünün tələbi ilə Bakı Hərbi Məhkəməsinin və ardından Bakı Apellyasiya Məhkəməsinin verdikləri izahlara məhəl qoymadı. O, özünün verdiyi icra haqda qərarında Bakı Hərbi Məhkəməsinin hökmünün adını çəksə də, özünün izah tələbinə dair Bakı Hərbi Məhkəməsinin adını belə çəkmir, qərarın mahiyyəti, nə qərar verilməsinə toxunmur. Bakı Apellyasiya Məhkəməsinin qərarı haqda isə heç bir qeyd aparmadan özünün şəxsi maraqlarından çıxış edərək tam qanunsuz qərarla icra işinə girişdi”.**

Zərərçəkmiş H.Səfərov onu da əlavə etdi ki, məhkəmə icraçısı Rəfail Səfərov qərar verməzdən əvvəl 16 nəfər zərərçəkəni Nərimanov İcra Şöbəsinə dəvət edərək növbəti qanunsuzluğa imza atıb. Sitat: **“Rəfail Səfərov dedi ki, əgər hər biriniz ərizə yazıb hər hansı bir şikayətinizin olmadığın bildirməsəniz, icra işinə başlamayacağam. Məcbur olub onun dediyi, faktiki olaraq şikayət etmək hüququmuzu məhdudlaşdıran qanunsuz ərizəni yazdıq. Biz qanunsuz olmasını bildiyimizdən icra işinin əngəllənməməsi üçün Rəfail Səfərovun qanunsuz tələbini yerinə yetirdik. Bu dəfə də bizə məlum oldu ki, Rəfail Səfərov özünün izah tələblərinə dair məhkəmə qərarlarını bir kənara atıb, özü bir siyahı tutub, məhkəmə hökmündə olan 16 nəfərə özünün istədiyi, şəxsi maraqlarından çıxış etməklə əlavə 6 nəfəri də qoşub. Rəfail Səfərovun özbaşına verdiyi bu qərarın ləğvi üçün Nərimanov Rayon Məhkəməsinə müraciət etdik. Bu dəfə də Rəfail Səfərov və himayədarları Nərimanov Məhkəməsində qanunsuz verdikləri icra haqqında qərarın ləğvinə imkan vermədilər. Axı necə ola bilər ki, Azərbaycan Respublikası adından Bakı Hərbi Məhkəməsi tərəfindən verilən hökm məhkəmə icraçısı tərəfindən bir kənara atılsın və məhkəmə icraçısı Rəfail Səfərovun istəyinə uyğun icra işi aparılsın? Əgər icra məsələsini məhkəmə icraçısı Rəfail Səfərov öz istədiyi kimi icra edəcəkdisə, daha Bakı Hərbi Məhkəməsinə müraciət edib izah istəməsinə nə ehtiyac vardı? Bakı Apellyasiya Məhkəməsinə niyə müraciət edib izah tələbini yenidən təkrar edirdi? Nərimanov Məhkəməsi tam qanunsuz olaraq Rəfail Səfərovun icra işini öz istəyinə uyğun aparmasına öz qərarı ilə “don” geydirdi. Bakı Apellyasiya Məhkəməsinə şikayətimiz də bu instansiyanın sədri Mübariz Əkbərovun qarşı tərəflə əlaqələrinə görə qismən təmin edildi. Baxmayaraq ki, məhkəmənin gedişində Mübariz Əkbərovun qəbulunda olub Bakı Hərbi Məhkəməsinin qərarına məhkəmə icraçısı tərəfindən qanunsuz müdaxilə barədə məlumat vermişdim. Bakı Apellyasiya Məhkəməsində hakim Emin Mehdiyevin iş üzrə qərarını da təqdim etməklə faktiki olaraq məhkəmə icraçısının özbaşınalığını başa salmışdım. Nəticə etibarı ilə Bakı Apellyasiya Məhkəməsi əslində biz istəmədiyimiz 2 şəxslə bağlı qərar verməklə Nərimanov Məhkəməsində baş verən qanunsuzluqları ört-basdır etdi. Özlərinin qərarına qanuni görkəm vermək, gözə kül üfürmək kimi qanunsuz bir işə girişdilər. Bizə qarşı, Azərbaycan Respublikasına qarşı məhkəmə icraçısı Rəfail Səfərovun timsalında cinayətə bərabər böyük bir qanunsuzluq törədilib. Məhkəmə sədri Mübariz Əkbərov isə ortada Bakı Apellyasiya Məhkəməsinin hakimi Emin Mehdiyevin qərarı ola-ola yenə də məhkəmə icraçısı Rəfail Səfərovun qanunsuz qərarını qüvvədə saxlamağa nail oldu. Bakı Apellyasiya Məhkəməsinin bu qərarı Azərbaycan məhkəməsi adına böyük bir biabırçılıqdır! Ona görə də Prezident İlham Əliyevə müraciət etməklə bu işdə əli olan hər kəsin cəzalandırılması tələb ediləcək. Artıq müraciətimiz vəkillərimiz tərəfindən ətraflı izah və sənədlərlə hazırlanıb””.**

“Təzadlar” olaraq, inanırıq ki, nəhayət, məhkəmə icraçısı Rəfail Səfərova başa salınacaq ki, Azərbaycan Dövləti adından çıxarılan hökmün və qərarın icrasına müdaxilə cinayətdir və bağışlanılmaz səhvdir, ölkənin məhkəmə sisteminə arxa çevirməkdir!

**“Təzadlar”**

# ABŞ-da yaşayan professordan Qarabağın tikilməsinə dair unikal təklif!



**ABŞ- da yaşayan tanınmış professor Tariyel Azərtürk Qarabağın işğaldan azad edilmiş ərazilərində aparılan tikintinin sürətlənməsi və əhalinin həmin yurd yerlərinə daha tez köçürülməleri üçün maraqlı təklif və çağırışla çıxış edib. Özünün sosial media hesabında bu barədə yazan professorun belə bir çağırışı var: ”Ərazimizi Sovetdəki gənclər üçün elan edilmiş ”İnşaat Meydanı” elan etməsək, tək Ağdamı heç on ilə də tikmək olmayacaq!”**

Professor yazır: ”Milyon gənc də işsizdir. Kənarda iş axtarınca, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yüz minləri üçün iş var. Yetər ki: ”Gənclik, Qarabağı və Zəngəzuru qurub yaratmağa tələs!” şüarı ilə çağırış olsun. Millət vaxtilə Qazaxstanda Xam torpaqları- Çelinanı qaldırdı, Uzaq Şərqə min km-lik dəmir yolu çəkdi. Qarabaöda şəhərlərin kəndlərin proyektləri var, pul var, 3 ilə bütün ərazinin inşaat işlərin başa çatdırmaq olar, Çində on mərtəbəli evin karkasını 28 saata başa vururlar. Bizə bu cür sürət lazımdır. Pullu kişiləri də proyektlərin icrasına cəlb etmək lazımdır. Dövlətin gücü də, parası da var, maşallah, amma sürət lazımdır, sürət!”.

Bəli, Qarabağda tikinti üçün bir neçə vacib şərt var: sement, qum və çınqıl, bir də daş! Yerli tikinti materialı yetərincədir... Qalan material da Dərnəgül yolunda doludur. Bakını qarış- qarış tikən göydələnlilər hər cürə materialı tapırlarsa, bu Qarabağda da çətin deyil. Bir qalır tikinti monopoliyası aradan qaldırılsın, tenderlər ədalətli bölüşdürülsün, iş onu görənə və tikənə verilsin. Qalır vəsait- maaş, o da Allaha şükür, Azərbaycanın hazırda 72 milyard dollar ehtiyat Fondu var. Bu ölkə rəhbərliyinin rəsmi məlumatında qeyd edilib.

Beləliklə, həqiqətən də Azərbaycanda real işçi qüvvəsi kifayət qədərdir. Sosial mediada ”İş yoxdur, dolana bilmirəm!” deyən kütləni müxtəlif sahələr üzrə işlərə cəlb etmək niyə bu qədər çətin olsun?!

**ASİF MƏRZİLİ**

“TƏZADLAR” 02 (2390)
25.02.2025

# Qarabağda şəhər və ya şəhər tipli qəsəbələr salmaq daha məqsədəuyğun deyilmi?

*“Vaxtilə 25 min nəfər əhalisi olan Əsgəran rayonu yaradılıb, mərkəzi qəsəbə statusu olsa da, ermənilər işğal dövründə ora şəhər statusu vermişdilər”*



**...Statistika göstərir ki, Azərbaycanda hazırda 4244 kənd var və bu kəndlərin bəzilərinin faktiki təsərrüfat (ev) sayı bəzi hallarda 30-40 civarındadır. Qarabağın işğaldan əvvəlki, yəni 1990-cı ilədək olan zamanında isə elə kəndləri var idi, əhali sayı 100-150, bəzi hallarda isə 50-70 nəfər olub.**

Hazırda Qarabağın işğaldan azad edilmiş rayonlarında yenidənqurma işləri görülür, bərpa və yeni tikilən insan məskənləri salınır. Şübhəsiz ki, say çoxluğundansa, kənd və ya qəsəbələrin sambalına üstünlük verilməsi doğru olardı. Məsələn, 40-50 təsərrüfatı olan kəndlərin ərazisini bu az saylı insanların mal-qarasına, yaxud əkin yerinə ayırmaqdansa, kompakt kənd-qəsəbə modelindən istifadə etməklə, həm əhalinin lazımi sosial obyektlərlə təminatında operativlik qazanmaq olar, həm də onların sosial problemlərinin həllində keyfiyyət olar. Odur ki, əhali sayına görə şəhər tipli yaşayış məskənlərinə də üstünlük vermək mümkündür.

Yeri gəlmişkən, vaxtilə Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti tərkibinə daxil olan Azərbaycan rayonlarından biri Əsgəran idi. Əhalisi 25 min nəfər olub. Azərbaycan SSR Ali Sovetinin 15.05.1978-ci il tarixli Fərmanına ilə Stepanakert (Xankəndi) şəhəri, Kərkicahan kəndi daxil olmaqla ”respublika tabeli şəhər” statusu aldığı nəzərə alınaraq, mərkəzi Əsgəran qəsəbəsi olmaqla keçmiş Stepanakert rayonunun digər yaşayış məntəqələrinin ərazisində Əsgəran rayonu təşkil edilmişdi. 1990-cı ildə Qərbi Azərbaycandan (Ermənistan ərazisindən) qovulan Azərbaycanlıların, habelə SSRİ-nin digər ərzilərindən Azərbaycana pənah gətirmiş ağıska türklərinin Əsgəran rayonunun Xocalı qəsəbəsində yerləşdirilməsi ilə Azərbaycan SSR KPMK ikinci katibi Viktor Polyaniçkonun təşəbbüsü ilə ”Xocalı qəsəbəsi”, adı dəyişdirilərək, ”Xocalı şəhəri” adlandırılmışdır. Bununla da Əsgəran rayonunun mərkəzinin dəyişdirilməsi üçün hüquqi və iqtisadi əsaslar yaradılmışdır. ”Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında” Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli 279-XII nömrəli Qanununun 3-cü və 4-cü hissələri ilə qərara alınmışdı: ”3. Əsgəran və Hadrut rayonları ləğv edilsin. 4. Xocalı şəhəri mərkəz olmaqla Xocalı rayonu yaradılsın, ləğv edilmiş Əsgəran rayonunun ərazisi Xocalı rayonunun tərkibinə, Hadrut rayonunun ərazisi isə Xocavənd rayonunun tərkibinə verilsin”. Keçmiş Əsgəran rayonunun əraziləri 1992-1993-cü illərdə rus-erməni birləşmələri tərəfindən işğal olunduqdan sonra, 2023-cü ilə qədər qondarma rejim tərəfindən bu torpaqlar ”Əsgəran rayonu” adı altında idarə olunub. Həmin 1992-2023-cü illər ərzində ”Əsgəran rayonu” ərazisində az sayda binalar (əsasən kilsələr) tikilib və Azərbaycan ərazilərindən çıxarılan dövlət arxivləri, əsasən bu ərazidə saxlanılıb.

Gələk mətləbə: hazırda Azərbaycanda ümumilikdə 4244 kənd var. Dövlət Statistika Komitəsinin məlumatına görə, hazırda Azərbaycanın ən çox əhali yaşayan kəndi Abşeron rayonunun Masazır kəndidir. 2019-cu ildə keçirilmiş əhalinin sonuncu siyahıya alınmasına görə, Masazırda 68 273 nəfər sakin olub. Ümumiyyətlə, siyahıda ilk ”3-lük”də Abşeron rayonunun kəndləri yer alır. Digər kəndlər də belə sıralanır:

**1. Abşeron rayonunun Masazır kəndi 68273 nəfər**
**2. Abşeron rayonunun Məmmədli kəndi 17039 nəfər**
**3. Abşeron rayonunun Novxanı kəndi 14089 nəfər**
**4. Tovuz rayonunun Əyyublu kəndi - 11989 nəfər**
**5. Tovuz rayonunun Aşağı Quşçu kəndi - 10699 nəfər**
**6. Biləsuvar rayonunun Xırmandalı kəndi - 10243 nəfər**
**7. Quba rayonunun İkinci Nügədi kəndi - 10648 nəfər**
**8. Qazax rayonunun Daş Salahlı kəndi - 10112 nəfər**
**9. Şəmkir rayonunun Zəyəm Cırdaxan kəndi - 9599 nəfər**
**10. Lənkəran rayonunun Boladı kəndi - 9547 nəfər**
**11. Beyləqan rayonunun Birinci Şahsevən kəndi - 9409 nəfər**
**12. Şəmkir rayonunun Düyərli kəndi - 9143 nəfər**
**13. Şəki rayonunun Kiçik Dəhnə kəndi - 9099 nəfər**
**14. Sədərək rayonunun Sədərək kəndi - 8871 nəfər**
**15. Şəki rayonunun Baş Göynük kəndi - 8468 nəfər**
**16. Cəlilabad rayonunun Alar kəndi - 8462 nəfər**
**17. Quba rayonunun Birinci Nügədi kəndi - 8160 nəfər**
**18. Zaqatala rayonunun Muxax kəndi - 8132 nəfər**
**19. Zaqatala rayonunun Yuxarı Tala kəndi - 8127 nəfər və sair.**

Gülməli də olsa, əhali sayı bir nəfər olan kəndlərimiz də mövcuddur. Belə ki, Neftçalanın Kürdili kəndi, İsmayıllı rayonunun Gərzə və Pirəqanım kəndləri bu sıradadır. Lerikdə isə faktiki 10-20 nəfər əhalisi olan kəndlərin olduğu bildirilir. İş yeri olmadığından insanların kənar bölgələrə miqrasiyası kəndlərin boşaldılması ilə nəticələnməkdədir. Nümunə üçün: Rusiyanın vaxtilə 20-30 min nəfər əhalisi olan elə kndləri var ki, indi 10-20 nəfəri qalıb, hamısı köçüb gedib başqa ərazilərə.

***

Göründüyü kimi, vaxtilə 25 min nəfər əhalisi olan Əsgəran rayonu yaradılıb, mərkəzi qəsəbə statusu olsa da, ermənilər işğal dövründə ora şəhər statusu vermişdilər. Hazırda isə Əsgəran rayonundan daha çox əhalisi olan kənd və ya qəsəbələrimiz var. Təbii ki, Qarabağda aparılan quruculuq işləri ilə bağlı bir-birinə yaxın olan bir neçə kəndi birləşdirərək vahid idarəetmə sistemi olmaqla, yeni müasir qəsəbələr salmaq olar. Əhali sayı 30-40 mini keçən qəsəbələrə isə şəhər statusu verməklə Qarabağın coğrafi xəritəsini də təkmilləşdirmək mümkündür. Nəinki mümkündür, hətta deyərdik ki, bu strateji baxımdan çox vacibdir.

**A.Məmmədli**

# İşgəncəli istintaq

**Hörmətli alim, düşüncə insanı, tarix elmləri üzrə fəlsəfə doktoru, dosent, Bakı Dövlət Univerisitetinin müəllimi Boran Əzizin “Ağdam rayonunun Mərzili və bəzi başqa kəndlərindən repressiya edilmişlər” (Acı həqiqətlər, ağrılı faktlar”) adlı kitabını oxuyub qurtararkən aldığım təəssüratımı, keçirdiyim hiss və duyğularımı qələmə almaq qərarına gəldim.**




Kitab əsasən Stalinin ömrününün sonunadək davam edən, ancaq 1937-1938-ci illərdə daha da intensivləşən represiyadan bəhs edir. Eyni zamanda, bu kitabla ölkəmizin, o cümlədən Qarabağın XIX, XX, XXI yüzillikləri əhatə edən keşməkeşli tarixinə işıq salıb. Qeyd edilən dövrdə Mərzili əhalisinin həyat tərzi, məşğuliyyəti, sosial vəziyyəti, tərkibi, elmə-savada, ictimai-siyasi həyata münasibəti, bilavasitə iştirakçısı olduğu hadisələr, bu kənd əhalisinin bir-birinə, torpağına-vətəninə, millətinə, dininə bağlılığı maraqlı tarixi fakt olan və əsl reallıqları ehtiva edən arxiv sənədləri əsasında qələmə alınıb. Kitabın əvvəlindən sonunadək müəllifin faktlara yanaşmasındakı səmimiyyət oxucuda xoş duyğular yaradır.

Bəhs etdiyim kitabın “Ön söz” müəllifi tarix elmləri doktoru, Dövlət Mükafatı laureatı Nigar Rövşən qızı Gözəlovadır. Aydın görünür ki, Nigar xanım bu yazısı üçün bir çox ölkələrin nüfuzlu arxiv və kitabxanalarında qorunan sənədlərdən istifadə edib...

Boran Əziz kitabın girişində yazır: “...qırmızı terrorun qurbanları haqqında geniş məlumatlar ilk dəfə arxiv materialları əsasında araşdırılaraq elmi dövriyyəyə daxil edilmişdir. Oxucuların, geniş ictimaiyyətin, elmi dairələrin diqqətinə çatdırılan məlumatlar yalnız istintaq materialları əsasında hazırlanmışdır”. Bu isə o deməkdir ki, kitabda əksini tapan gerçəkliklər hər bir oxucu üçün yeni faktlardır. Mənə elə gəlir ki, Boran Əzizin bu kitabının maraqla qarşılanmasının ən mühüm səbəblərindən biri budursa, digər səbəbi bu acı faktların oxucuya peşəkarlıqla çatdırılmasıdır.

Tarix göstərir ki, ümumbəşəri dəyərləri qəbul edərək özünə hörmət edən heç bir dövlət tarixin faciəvi səhifələrindən olan represiya, işgəncə faktına biganə qalmır, onu gizlətmir. Əksinə, ondan nəticə çıxarmaq üçün xalqa bəyan edilir, gələcək nəslə çatdırılır. Elə buna görədir ki, Azərbaycan dövləti də problemi araşdırmaq üçün tədqiqatçı alimlərimizə hər cür şərait və imkan yaradır.

Beləliklə, 90 ilə yaxın bir müddətdə (1937-2024) tam məxfilik və digər səbəblərdən arxiv adlı “həbsxana”da saxlanılan, günəş işığına həsrət qalan “məşum sənədlər” müəllifin əzmkarlığı, illərlə çəkdiyi zəhmət hesabına 493 səhifəlik kitab şəklində xalqa, eləcə də repressiyaya-işgəncəli istintaqlara məruz qalmış insanların varislərinə çatdırılıb.

Bir daha qeyd etməyi vacib hesab edirəm ki, illərlə üzərində işlənmiş bu tədqiqat kitabı böyük fiziki və mənəvi zəhmətin bəhrəsidir. Kitabda öz əksini tapan acı reallığın biri də ondan ibarətdir ki, Mərzili kəndindən istintaqı aparılan 40-a qədər insanın, barələrində ölüm hökmü çıxarılan 23 nəfərin müstəntiq və hakimlərinin əksəriyyəti milliyyətcə erməni və rus olub. İstintaq sənədlərindəki sual və cavablardakı, toplanan sənədlərdəki oxşarlıq istintaqın qeyri-obyektivliyini göstərir. Nəticə etibarı ilə, tərtib edilmiş sual və cavabların, arayışların mətni - məzmunu yazıçı, dramaturq, ictimai xadim Cəlil Məmmədquluzadənin acı gülüş doğuran hekayələrini xatırladır.



İstintaqa cəlb olunanların hər biri üçün kənd sovetindən alınan arayışlarda şəxsə məxsus əkin yeri, tövlə, kotan, mala, at, öküz, qoyun, keçi, müxtəlif vergilər əksini tapıbdır ki, müəllif də onları cədvəl formasında sistemləşdirərək kitaba daxil edib. Həmçinin, əsər boyu müstəntiqlə məhkum arasında davam edən sual-cavab proseslərini hörmətli alimi Boran Əzizin təhlil-təfsiri, hüquqi-məntiqi yanaşması, izahlı qiymətləndirməsi kitabın əvvəlindən sonunadək davam edir. Bu yanaşma adi müstəntiqdən “ellər atası” İosif Stalinə qədər uzanan möcüzəli və sirli zəncirin mahiyyətini açaraq ifşa edir.

Kitabda əksini tapmış başqa bir məsələ barəsində: 1921-ci ildə Sovet işğal rejimi həm kənd təsərrüfatı ilə bağlı, həm də əhali arasında siyahıyaalma aparır. Bu barədə müəllif yazır: “Bu əhali sayının əvvəlkilərdən fərqi burasındadır ki, burada təsərrüfatın sayı, hər yaş qrupuna görə kişi və qadınların sayı, savadlı adamların sayı, sayım dövründə kənddə olmayanların sayı, işğalçı qırmızı ordunun tərkibində olanlar, atlar, onların yaşı, iribuynuzlu mal-qaranın, camışın, dəvənin sayı və onların yaşı... haqqında məlumatlar toplanmışdır”. Məllif haqlı olaraq fikrinin davamında yazır ki, belə geniş və əhatəli məlumat Sovet işğal rejiminin xalqı istəməyi ilə bağlı deyil, onların gələcəkdə vətənimizdə iqtisadi və mədəni sahədə həyata keçirəcəyi siyasətlə bağlı olub.

Bu kitaba görə bir daha Boran Əzizə təşəkkür edir, elmi araşdırmalarında uğurlar arzulayıram. Və demək istəyirəm ki, sizin əzmkarlığınız mənə xatırlatdı: 1. Dünya şöhrətli rəssam Sakit Məmmədov bir müsahibəsində çəkdiyi əziyyət və zəhməti xatırlayandan sonra deyir ki, “Mən alın yazımı alın tərimlə yuyub yenidən yazmışam”. Deməli, elə şəxsiyyətlər var ki, Allah-Tala onlara “korrektə” etməyə icazə verir. 2. Zəhmətsevərliyinə görə Qulam Məmmədlini, mütəfəkkirimiz Əhməd Ağaoğlunu, Həsən bəy Zərdabini xatırladım.

Boran Əziz düşüncə adamıdır və onun düşüncəsinin mayası doğulduğu kəndinə, el-obasına, insanlığa, bütövlükdə cəmiyyətə və elmə münasibətdə olan təşnəliyindədir.

**Uğur olsun, el-obasının, xalqının sevimlisi olan tarixçi-alim - Boran Əziz!**

**Nazim Nəsibov,**
*“Tərəqqi” medallı, “İlin müəllimi”, təqaüdçü müəllim*

## Nəriman Həsənzadə - 94

# Allah ondan heç nəyi əsirgəməyib...

*"Onun yaradıcılığı, davranışı adama həzin bir musiqini xatırladır. İnsanı düşündürən, xəyalən uzaqlara apara bilən musiqiyə"*



**Əsgərlikdə olarkən, günlərin birində anasının ölüm xəbərini alır. Tez gedib hadisəni komandirinə məruzə edir və təcili evə getməyinə icazə istəyir. Komandiri isə teleqramın üzərində Qazax rayon hərbi komissarının imzası və möhürü olmadığını bəhanə edib, ona icazə verməkdən boyun qaçırır. Anasından başqa kimsəsi olmadığını nə qədər desə də, komandir eşitmək istəmir. Əsəbləri gərilir, necə deyərlər, özünü saxlaya bilmir. Çiynindəki avtomatı komandirin üstünə çəkir. Komandir qorxusundan əllərini qaldırıb, onun çıxıb getməsini işarə edir.**

Binadan çıxanda görür ki, onu mühasirəyə alıblar. Avtomatı yerə qoymasını tələb edirlər. O da: "heç kim yaxın gəlməsin, vuraram!"- söyləyərək, oradan qaçıb uzaqlaşır. Qazaxa çatanda silahı qohum evinə qoyub qəbiristanlığa, anasının dəfninə yollanır. Dəfndən sonra xidmət etdiyi hərbi hissəyə qayıdır və əzablı günləri başlayır...

*"Qazaxa çatanda silahı qohum evinə qoyub qəbiristanlığa, anasının dəfninə yollanır"*

Bu ərəfədə hərbi hissədə şairlərin görüşü keçirilirmiş. Nigar Rəfibəyli, Rəsul Rza da bu görüşdə iştirak edirmişlər. Nigar Rəfibəyli onu tanıyıb tədbirdə şeir oxumasını təklif edir. O da ağlayaraq oxuya bilməyəcəyini söyləyir. Sonra baş verən hadisəni Nigar xanıma danışaraq, ondan kömək istəyir və bildirir ki, bu görüşdən sonra onu ağır cəza gözləyir. Azadlıqdan məhrum oluna bilər. Nigar xanımın israrlı xahişindən sonra hərbi hissənin komandanlığı onu bağışlayır...

Qəribə hekayədir, deyilmi? Bunu, bu günlərdə 93 yaşını qeyd edəcək, qosqoca şairimiz Nəriman Həsənzadə söyləyib. Onun yaradıcılığı, davranışı adama həzin bir musiqini xatırladır. İnsanı düşündürən, xəyalən uzaqlara apara bilən musiqiyə. Bəlkə də ondan irəli gəlir ki, şairin söz-söhbəti, səsi də həzindir...

1931-ci ildə anadan olub. Bir yaşında atasını, iyirmi üç yaşında isə anasını itirib. Erkən gəncliyindən həyata təkbaşına atılıb. Həsən bəy Zərdabi adına indiki Gəncə Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində ali təhsilə yiyələnib. Sonra SSRİ ordu sıralarında hərbi xidmətdə olub. Daha sonra Azərbaycan Yazıçılar İttifaqı onu Moskvadakı ikiillik ədəbiyyat kursuna göndərib. Bu kursu başa vuraraq Maksim Qorki adına Ədəbiyyat İnstitutuna daxil olub. Beş il də orada təhsil alıb. Uç il Azərbaycan Dövlət Universitetinin "Azərbaycan Ədəbiyyatı tarixi" kafedrasının aspiranturasında oxuyub. "Azərbaycan-Ukrayna ədəbi əlaqələri" mövzusunda dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsinə yiyələnib.

Ötən müddətdə müxtəlif vəzifələrdə çalışıb. Mətbuat və İnformasiya nazirinin birinci müavini vəzifəsinədək yüksələ bilib. Azərbaycan Respublikası Ali Sovetinin deputatı olub. Azərbaycanın xalq şairidir. "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenlərinə layiq görülüb. Prezidentin fərdi təqaüdçüsüdür. İndiyədək 30-dan yuxarı kitabı işıq üzü görüb...

Deyir ki,- **"Şair olmaq bədbəxçilikdir. Daim öz aləmində olursan, qəm-qüssə çəkirsən, duyğularla yaşayırsan..."**

Yəqin ki, bütün xoşbəxtlər kimi, onun da öz xoşbəxtliyindən xəbəri yoxdur. Erkən gəncliyindən kimsəsiz qalsa da, necə deyərlər, bütün ömrü boyu kimsəsizlər KİMSƏSİNİN kimsəsi olub. Allah ondan heç nəyi əsirgəməyib- İstedad, ailə, ağıllı övladlar, rahat həyat, şan-şöhrət və ən başlıcası uzun ömür. Uzun ömür isə Allahın bəndəsinə olan xüsusi mərhəmətidir. Elə bil, səni can borcunu geri qaytarmağa heç kim tələsdirmir...

***

Bəli, xalq şairi Nəriman Həsənzadə ömrünün ixtiyar çağlarını- qocalığını yaşayır. Elə yaşayır ki, ağlı, yaddaşı, nitqi, ədəb-ərkanı, davranışı, düşüncə və hərəkətləri ilə QOCALIĞI insanlara sevdirə bilir. Necə deyərlər, qoca olanda da Nəriman Həsənzadə kimi QOCA olasan...

Fevralın 18-i xalq şairinin növbəti ad günü idi, hələlik bir əsrdən altı il balacadır. Ona can sağlığı, ağrı-acısız günlər arzulayıram...

**Elman Eldaroğlu**

---

**Xəbər verdiyimiz kimi, bu gün fevralın 14-də Bakı İnzibati Məhkəməsində "Təzadlar" qəzeti rəhbərliyinin Dövlət İmtahan Mərkəzinin direktoru Məleykə Abbaszadəyə qarşı iddiasına baxılmışdır. Məhkəmənin İş№-2-1(112)-17311/2024 saylı, 28.12.2024-cü il tarixli SƏRƏNCAM-ı ilə iddia ərizəsi və ərizəyə əlavə edilmiş sübutlar hakim Orxan Həsənovun icraatına verilmişdir. Hakim bu gün DİM-in nümayəndəsinin iştirakı ilə məhkəmənin hazırlıq iclasını keçirdi.**

# Bakı Inzibati Məhkəmənin hakimi Orxan Həsənovun cavabdehə vəkilliyi

### Hakim Orxan Həsənov "Məhkəmələr və Hakimlər haqqında" Qanunun, eləcə də hakimlərin peşə etikası haqqında Kodeksinin tələblərini pozaraq məhkəmə zalında İsmayıllının icra başçısı Nahid Bağırovun müdafiəsinə qalxdı...



Bəri başdan deyək ki, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 47-ci və 49-cu maddələrinə əsasən, iddiaçı "Təzadlar" Qəzeti Redaksiyasının cavabdeh Dövlət İmtahan Mərkəzinə qarşı "İnformasiya sorğusunun cavablandırılması" tələbinə dair iş üzrə iddia ərizəsi və ona əlavə edilmiş sənədlərin surəti məhkəmənin elektron sistemində olduğundan hiss edirdik ki, hakim mübahisələndirilən məsələdən tam bilgilidir.

Beləliklə, hakim Orxan Həsənov hazırlıq iclasında qanunun tələblərinə və məhkəmə praktikasına uyğun olmayaraq, həmişə olduğunun əksinə, tərəflərin kimliyi ilə bağlı sorğu-sual aparmadı. Bu o demək idi ki, hakim məhkəmə iclasına tam hazırdır və qəbul edəcəyi qərarın mahiyyəti də ona bəllidir. Biz buna əvvəldən hazırlanmış qərar da deyə bilərik.

Əvvəlcə DİM-in nümayəndəsinə söz verildi. Adını deməyi unudan, bu səbəbdən bizim də adını bilmədiyimiz nümayəndənin sözündən belə çıxırdı ki, belə sorğunu cavablandırmaq mümkün deyil. Çünki guya DİM artıq TQDK-nın hüquqi varisi deyil, üstəlik, bəzən belə sorğuların cavablandırılması əlavə problemlər yaradır və s.

**"Təzadlar" qəzetinin nümayəndəsi Asif Mərzili** dərhal onun çıxışına etiraz edərək "Möhtərəm hakim, bu yoldaşın DİM-in çayxanasında eşitdiklərini burada danışıb vaxtımızı almasına ehtiyac yoxdur... O deyir ki, biz bu məlumatı nə məqsədə almaq istəyirik? Burada məsələ çox sadədir, buyurun DİM-ə göndərilən sorğu ilə tanış olun. Biz barəsində informasiya sorğusu verilmiş şəxs- Bağırov Nahid Rza oğlunun özü tərəfindən artıq ictimailəşdirdiyi informasiyanın DİM-dən rəsmi təsdiqini xahiş edirik...".

**DİM nümayəndəsi ilə Asif Mərzili arasında belə bir dialoq oldu:**

DİM nümayəndəsi:

-Xahiş edirik deyəsiniz ki, bu informasiyanın əldə edilməsində sizin məqsədiniz ictimai maraqdan irəli gəlir, yoxsa fərdi arzudan?

Asif Mərzili:

-Cənab, mən burada hüquqi şəxsi, yəni "Təzadlar" qəzetini təmsil edirəm, sorğu da qəzetin adından verilib, bunu bilmirdiniz? Yoxsa, siz iddia ərizəsini oxumadan bura gəlmisiniz...

**Hakim Orxan Həsənov:**

-Asif müəllim, biz sizi yaxşı tanıyırıq... Hörmətimiz var, buyurun sualı cavablandırın...

Asif Mərzili:

-Möhtərəm hakim, cavabdeh bilməlidir ki, bizim marağımız ictimaidir və hüquqi şəxs, yəni qəzet tərəfindən verilən informasiya sorğusu da "İnformasiya əldə etmək haqqında" və "Media haqqında" Qanunun tələblərinə uyğun olaraq verilib. O ki qaldı bizim arzu və istəyimizə, qanunda media subyektinin vəzifəsi və fəaliyyət istiqaməti aydın yazılıb...Cənab DİM nümayəndəs, Media qanununu oxumusuz? Oxumamısınız.

*"Möhtərəm hakim, məni məcbur etdiniz, bunu demək istəmirdim, əksinə, DİM bu sorğunu cavablandırmamağı ilə sübut edir ki, İsmayıllının icra başçısı Nahid Bağırovun ali təhsil diplomu ... o söz!"*

Oxusaydınız bilərdiniz ki, siz bizim peşə fəaliyyətimizə qəsdən maneçilik törədirsiniz və bu hüquqi məsuliyyyət yaradır. İnformasiyanın mənşəyi və mənbəyinə gəlincə, möhtərəm hakim, bu məlumat Bağırov Nahid Rza oğlu tərəfindən sosial mediada özü tərəfindən yayımlanıb. Artıq yayımlanmış məlumatın DİM tərəfindən təsdiqi niyə bu qədər problem yaradır. Bir cümlə yazıb göndərsinlər ki, bu belə deyil, yaxud belədir...

Hakim Orxan Həsənov məsələnin mürəkkəb məcraya yönəldiyini və maddi sübutların mötəbərliliyinə görə informasiya sorğusunun cavablandırılmasının məcburiliyini görəndə müdaxilə etdi:

-Bilirsiz, Asif müəllim, bu bir az qəliz məsələdir... Məsələn, bəzən olur ki, bu sorğuların cavablandırılması problemlərə yol açır... Barəsində sorğu verilən şəxs **Nahid Bağırov isə icra başçısıdır...**

Asif Mərzili əlavə etdi:

-Bəli... İş materiallarında sübutları təqdim etmişəm, DİM(əvvəllər TQDK) həmişə göndərdiyimiz informasiya sorğularını qanun-qayda ilə cavablandırıb. Belə çıxır ki, bu dəfə barəsində məlumat soruşulan icra başçısıdır deyə, onun maraqları qorunmalıdır?! Möhtərəm hakim, məni məcbur etdiniz, bunu demək istəmirdim, əksinə, DİM bu sorğunu cavablandırmamağı ilə sübut edir ki, İsmayıllının icra başçısı Nahid Bağırovun ali təhsil diplomu ... o söz! Hər il DİM ali məktəblərə qəbul olunan tələbələrin siyahısını həm özündə, həm də "Abituriyent" jurnalında dərc edir... Burda nə problem var ki!

Bu vaxt hakim DİM nümayəndəsinin üzünə baxdı... Deyəsən, məsələ həqiqətən də qəliz məcraya yönəlirdi. Amma çıxış yolu da tapmışdı:

-Onda gəlin iddianın baxılmasının mümkünlüyünü müzakirə edək... Asif müəllim, siz hesab edirsiz ki, iddiaya baxılmalıdır...

**Asif Mərzili:**

-Əlbəttə... Bu sadə bir sorğudur...

Bundan sonra qərar qəbul etmək üçün hakim müşavirəyə getdi... Təxminən 10 dəqiqədən sonra hakim zala daxil olub qərarını elan etdi:

-Məhkəmə iddianın baxılmasını mümkün hesab etmir!

Sonra üzünü Asif Mərziliyə tutub kədərli halda dedi:

-Asif müəllim, Qərardaddan 10 gün müddətinə şikayət verə bilərsiz...

**"Təzadlar"**

---

## Müdafiə Nazirliyinin iki yüksək rütbəlisinə hökm oxundu



**Müdafiə Nazirliyinin Mənzil istismar idarəsinin sabiq rəisi, polkovnik Elmar Məmmədov və həmin idarənin Əsaslı və cari təmir bölməsinin sabiq müdiri Rəhim Laçınovun cinayət işi üzrə məhkəmə istintaqı prosesi yekunlaşıb.**

Tezadlar.az xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakim Bilal Məmmədovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, Elmar Məmmədov və Rəhim Laçınov 1 il sınaq müddəti olmaqla 3 il müddətində şərti azadlıqdan məhrum etmə cəzasına məhkum edilib. Qeyd edək ki, Elmar Məmmədov və Rəhim Laçınov ötən ilin avqust ayında saxlanılıb. Onlara Cinayət Məcəlləsinin 179.4-cü, 311.3.1-ci, 341.2.3-cü və digər maddələri ilə ittiham elan edilib. Hərbi Prokurorluğun təqdimatına əsasən, barələrində həbs qətimkan tədbiri seçilib. İstintaq zamanı onların ittiham olunduqları maddə 341.2.3-cü maddəyə tövsif olunub və hər ikisi barəsində seçilən həbs qətimkan tədbiri ev dustaqlığı ilə əvəz olunub.

# Elmi bazara çevirmək olmaz!"- "Təzadlar"ın arxivindən

**Aşağıda təqdim edilən yazı-müsahibə "Təzadlar"ın aprel 2001-ci il tarixli sayında dərc edilib...**
**Həmin dövrdə elektron media yox idi... Və Azad Mirzəcanzadənin elmimiz haqqında söylədiklərinin bu gün də necə aktual olduğunu nəzərə alaraq saytımızda təkrarlamaq qərarına gəldik... Oxuyub düşünmək və nəticə çıxarmaq üçün...**

## *Azad Mirzəcanzadə:*
## "Daim keyfiyyətsiz işlərə qarşı mübarizə aparıram"



*...Bəzən bizimlə bir sırada dahi bir insanın dayandığını hiss etmirik. Və nədənsə özgələrin ayranını tərifləmək, qiymətləndirmək mərəzi hələ də içimizdədir. Dahilər tariflərə uymayan, sadə insanlardır. Elə bil Allah onlara qeyri-adi olduqları qədər də təvazökarlıq bəxş edib. Əslində, əlçatmaz hesab etdiyin müdrik şəxsiyyətlərlə üz-üzə olmaq da bir xoşbəxtlikdir. Amma onlara vaxtında qayğı göstərmədiyimizə görə sonralar təəssüflənən də elə bizik... Azərbaycan elminin fundamental tədqiqatları sahəsində böyük uğurları olan elə insanlar var ki, hələ sağlığında öz heykəlini qurublar. Ancaq belə insanların qədir-qiymətini layiqincə bilirikmi?*

Ali Attestasiya Komissiyasının sədri, akademik, Azərbaycanda neft elminin patriarxı Azad Mirzəcanzadə bu gün öz dəyərli tədqiqatları ilə məşhurdur. Onu Müstəqil Dövlətlər Birliyi məkanında, eləcə də dünyanın bir çox ölkələrində yüksək qiymətləndirirlər. Bu gün elmi kadrların yetişdirilməsində, elmi kəşf və tədqiqatların üzə çıxarılmasında müstəsna rolu, fədakarlığı ilə fərqlənən Azad müəllim haqqında yalnız fəxrlə danışmaq mümkündür.

Akademik Azad Mirzəcanzadə müasir Azərbaycan elminin problemləri və qayğıları haqqında maraqlı mülahizələrə malikdir. O, elmimizin gələcəyi haqqında narahatlıqla düşünür. Bu gün onunla apardığımız müsahibə də elə bu problemlər ətrafında qurulub.

*- Məhəmməd Peyğəmbərin belə bir kəlamı var: hər kəsin qiyməti onun biliyi qədərdir. Nədir bilik?*

- Bir var bilik, bir də var, başa düşmək. Başa düşmək nə deməkdir? Belə bir termodinamiklik modeli var. Suyu qaynadırsınız, qaynamır, sonra yenə təkrar edilsə belə, qaynamır. Çünki kritik temperatura çatmır və nəticədə buxar əmələ gəlmir. Deməli, kritik temperatur həddinə çatmayıb. Bu, ibrətamiz misaldır...

Başqa misal gətirim. "Oblomov effekti" var. Qonçarovun əsərindəndir: Oblomov 33 vərəq oxuyub yatırdı, sabah yenə də həmin 33 vərəqi... Mahiyyəti budur ki, o, kritik nöqtəni keçməmişdi ki, təzə bir vərəqi oxuya bilsin. Onun üçün belə deyirlər ki, gərək bilik başa düşmək səviyyəsinə keçsin. Məsələn, siz çox şey söyləmisiniz. Bu çox şey sizə o qədər lazım olur ki, bunları qeyri-standart vaxtda, birdəfəyə həll edəsiniz. Buna görə də ən əvvəl başa düşmək gərəkdir. Bilik - sizdə nə qalırsa, odur... Konkret desək, başa düşərək yadda saxladığımız nə varsa, bizim biliyimizdir. Mən ancaq belə deyərdim.

*- Bir alim, Ali Attestasiya Komissiyasının sədri kimi deyə bilərsinizmi ki, elmimizin bugünkü vəziyyəti necədir?*

- Mən deyim ki, elm sahəsində mənfi, müsbət hallar mövcuddur. Elmimizin vəziyyəti daha yaxşı ola bilərdi. İndi elmdə maddi problemlər var. Məsələn, cihazlar çatışmır, fundamental nəşrlər azalıb. Ümumiyyətlə, elmlə məşğul olanların bəzilərində yüksək intellektual bilik çatışmır. İnternetdən istifadə etmirlər. Iş o yerə çatıb ki, təqdim olunan dissertasiyaların əksəriyyəti 90-92-ci illərin ədəbiyyatı ilə başa çatır. Bu fakt özü çox şey deyir.

Bir var model, biri də var köçürmə. Çoxları müqayisəli əsər yazmaqdan uzaqdır. Beləları hadisələri analiz etmirlər. Olsa-olsa, xronoloji təfərrüatdan ibarət olan belə "əsərlər" kimə lazımdır? İndi humanitar sahədən yazılan işlər çoxdur, nəinki dəqiq elmlərdən. Bilirsiniz, son zamanlar kitab nəşrinin asanlaşması pullu, özü də elmdən xeyli uzaq adamların əl-qolunu açıb. Belə olan halda, həqiqi elmi nəşrlərin əvəzinə makulatura yaranır. Biz bununla barışa bilmərik. Gərək Elmlər Akademiyası, Təhsil Nazirliyi bu işi tənzimləsinlər. Əlbəttə, demək olmaz ki, yolu bağlamaq lazımdır. Ancaq yaxşı əsərlərin çapına əngəl olanlar da az deyil. Kimin dostu, yaxın adamı, pulu varsa, əsəri çap olunur. Amma... Bax elə humanitar elmlərdə də vəziyyət belədir. Yenə deyirəm, qayda yaratmaq lazımdır.

□ *Belə çıxır ki, elmimizin vəziyyəti yaxşı deyil...*

□ Deməzdim ki, yaxşı deyil. Amma heç yüksək də deyil.

*- Elmimizin də keçid dövrü yaşadığını desək, yəqin ki, yanılmarıq...*

- Orası elədir. Hər sahədə olduğu kimi, elmdə də oxşar problemlər, eləcə də çətinliklər mövcuddur. Ancaq buna baxmayaraq, o da həqiqətdir ki, bizdə dəqiq elmlər üzrə müəyyən dəyərli işlər nəzərə çarpır. Əfsus ki, bunu başqa elm sahələrinə aid etmək olmur.

*- Hər bir İnstitutun öz elmi şurası var. Onların fəaliyyəti martın əvvəllərindən dayandırılıb. Bu, tez deyilmi? Ola bilməzdi ki, şuralar may-iyun aylarına qədər fəaliyyət göstərsin?*

- Olmaz. Görün nə qədər işlər göndərilir və onlar keyfiyyət baxımından bizi qane etmir. Həqiqi elmi iş yazılmalıdır. Vəziyyətə baxın ki, humanitar sahələrdən hazırlanan dissertasiyaların sayı - hələ keyfiyyəti demirəm - fundamental tədqiqatları üstələyib. İndi onlar dissertasiya göndərir, biz geri qaytarırıq ki, yenidən yazsınlar. Bir də ki, göbələk kimi artan lüzumsuz işlər o qədər çoxalıb ki, onları oxumaq üçün AAK-ın işçilərinin sayı da gərək beş dəfə indikindən çox olsun. Hətta elə olur ki, qaytarılmış zəif işləri heç on beş gün keçməmiş təkrar göndərirlər ki, bəs hazırdır... Belə vəziyyət olarmı?

Bir də səbəb odur ki, bizdə işlər 520-525 ixtisas üzrə qəbul edilir. Bu çoxdur axı. Elə bu səbəbdən də nazirliklə danışmışıq, yazmışıq və qərara gəlmişik ki, oxşar ixtisasları birləşdirək. Və etmişik də. 125 ixtisas üzrə elmi işləri qəbul etmək qərarına gəlmişik. Ancaq bu, nə səbəbdənsə hələlik öz həllini tapmayıb, qalıb Prezident Aparatında. Bilirsiz, 520-525 ixtisas üzrə işlərin qəbulu çətindir. Ona görə də biz bəzən bu işlərin bir hissəsini Gürcüstana, bir hissəsini də Rusiyaya göndəririk. Elə olur ki, yarıtmaz olan işlər - köçürmələr onlar tərəfindən qəbul edilir. Uyğun olmadığı halda namizədlik, yaxud doktorluq alırlar. Ancaq biz bunlara qarşı barışmaz mövqedə dururuq və əslində köçürmə olan belə işləri qəbul etmirik. Nəticədə isə qalmaqal başlayır. Biri komitə düzəldir, biri də... Olmaz axı.

*- Deməli, başqa yerdə müdafiə edilən üzdəniraq "doktorluq" və "namizədlik" işlərini AAK qəbul etmir.*

- Bəli, qəbul etmirik. Başqa cür də ola bilməz.

*- Elmi işlərdə istifadə edilən ədəbiyyatın struktur dəyişikliyi nə ilə bağlıdır? Yəni bu yazılmış elmi işin dəyərli olmasına nəsə bir təsir göstərirmi? Ümumiyyətlə, elmi işlərin işlənməsində tez-tez struktur dəyişikliyinin edilməsinə ehtiyac varmı?*

- ...Bunlar prinsipial məsələ deyil. Belə şeyləri əsas tutmasınlar. Bu, ümumi qanundur, özümüzdən çıxarmamışıq. Bilirsiniz, əsas məqsəd odur ki, yazılan dissertasiya işləri səviyyəli, keyfiyyətli olsun. Keyfiyyət əsas götürülsün. Gəlin, bu günün problemlərindən danışaq. Ondan söhbət edək ki, bir-iki ilin içində namizədlik, iki ilə doktorluq yazırlar. Bəla bundadır. İldə 200-300 adam müdafiə edir. Heç vaxt Azərbaycanda belə hallar olmayıb. Bəs səbəb nədir? Sərbəstlik. Verilən imkandan sui-istifadə edib elmi bazara çevirmək olmaz.

Əlbəttə, köçürmə və tərcümə vasitəsilə yaranan saxta dissertasiyaların qarşısını kəsmək üçün tədbirlər görürük və görəcəyik də.

*- Sizin rəhbərliyiniz altında 9 ilə yaxındır ki, AAK fəaliyyət göstərir. Bu illərdə A.Mirzəcanzadə nələrə nail ola bilib? Ümumiyyətlə, ən böyük məqsədiniz nə olub və o məqsədə çatmısınızmı?*

- Açığını deyim: göndərilən 250 işin keyfiyyətlilərinin 50-ni təsdiq edirik. Çalışıram ki, layiqli dissertasiyalar kənarda qalmasın. Bu, nailiyyətdir. İndi elmlər doktorlarının sayı 100 dəfə çoxalmayıbsa, deməli, bu da uğurludur. Daim keyfiyyətsiz yazılmış işlərə qarşı mübarizə aparıram. İmkanım qədər...

...Mənim məqsədim ancaq işləmək olub. Öz sənətimi, məsuliyyətimi bilən adamam. Şöhrətpərəst deyiləm. Cavanlara kömək etməyi, yol göstərməyi həmişə mənəvi borc bilmişəm.

Məsələn, liseyə gedəndə, orada şagirdlərlə görüşəndə, onlarla söhbət edəndə daxilən rahatlıq tapıram. Çalışıram ki, bildiklərimi onlara öyrədim. Bəlkə onlar gələcəkdə, doğrudan da, dünya şöhrətli alimlər olacaqlar?

Bir də onu deyim ki, AAK əvvəlki deyil. Əgər mən olmasaydım, buranı bazara döndərmişdilər.

□ *Bu, bir alim kimi... Bəs bir insan kimi?*

- Bir insan kimi də həyatda öz məqsədimə çatmışam. İnsan həyatda nə isə alıb qaytara bilirsə, o, məqsədinə çatır, hər kəsin öz yolu var.

*- Şekspirin belə bir fikri var ki, həyat bir teatrdır. Biz onun aktyorlarıyıq. Bu fikrə münasibətiniz?*

- Mən bu fikirlə razıyam. İngiltərənin baş naziri Toni Bleyer deyir: biz hamımız oynayırıq. Ancaq elə oynamalıyıq ki, İngiltərə yüksəlsin.

...Hər adamın öz oyunu var. Biz də Vətənin ucalığı naminə oynayırıq.

□ *Azad Mirzəcanzadənin həyatda qorxduğu nədir?*

- Hər kəs öz hərəkətlərinə görə nə vaxtsa cavab verməlidir. Qorxduğum odur ki, mənə verilən sualların çoxuna cavab verə bilməyim.

□ *Ən çox nədən həzz alırsınız?*

□ Yaşamaqdan, mübarizədən.

□ *Elə bir xarakteriniz varmı ki, özünüzə bağışlaya bilmirsiniz?*

- Ürəyiyumşaqlıq. Bax, görürəm bu yazıq adamdır, kömək edirəm. Gözlədiyim cəhəti onda görməyəndə isə fikirlərim alt-üst olur.

□ *Siyasətlə maraqlanırsınızmı?*

□ Maraqlanıram. Ona görə ki, bilim hara gedirik.

□ *Alın yazısı... Bu nə deməkdir? Bunu nə cür qəbul edirsiniz?*

- Alın yazısı biz hərəkətlərimizlə yaradırıq. Bu da uşaqlıqdan başlanır. Necə tərbiyə ediblərsə, o cür də öyrənirik. Vəssalam...

**Söhbəti yazdı:**
**Almaz Məmmədli**

***"Elm, təhsil və həyat" qəzeti, 6 aprel 2001-ci il.***




# "Bəxtiyar Vahabzadənin Anım İli" TÜRKSOY-da da təqdim ediləcək

**Mərasim proqramı Elnarə Kərimovanın rəhbərliyi ilə TRT-nin Ankara radiosu xorunun çıxışı ilə başlayıb. B.Vahabzadənin sözlərinə bəstələnmiş "Ana torpaq" və "Azərbaycan-Türkiyə" kompozisiyaları ifa olunub. Tədbir çərçivəsində görkəmli Azərbaycan şairi və dramaturqunun kitablarından ibarət sərginin açılışı olub. Azərbaycan Milli Kitabxanasının səyləri ilə yaradılmış sərgi B.Vahabzadə yaradıcılığının pərəstişkarlarında böyük maraq doğurub.**

Müzakirələri açan TÜRKSOY Baş katibinin müavini Sayit Yusuf təşkilatın rəhbəri Sultan Rayevin təbrik məktubunu oxuyub.

Baş katibin müraciətində Azərbaycanın Xalq şairinin ədəbi irsinin bütün Türk dünyası üçün əhəmiyyəti vurğulanıb: "Bəxtiyar Vahabzadə Azərbaycanın Türk dünyasına bəxş etdiyi əvəzsiz irsin bir parçasıdır".

TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Komitəsinin 40-cı iclasının "Bəxtiyar Vahabzadənin Anım İli"nin keçirilməsi ilə bağlı qərarını yüksək qiymətləndirilən S.Rayevin müraciətində deyilir: "Vahabzadə, şübhəsiz ki, dövrümüzün ən parlaq şairlərindən biridir. O, həyatını xalqına həsr edib".

"Bəxtiyar Vahabzadənin Anım İli"nin ən yüksək səviyyədə təşkili məqsədi ilə Beynəlxalq Tədbirlər Planını açıqlayan Rayev əlavə edib: "O, Azərbaycanın və Türkiyənin dərdinə şərik olub, əsərlərində Vətən sevgisini, türk ölkələrinin birliyini tərənnüm edib".

Sonra çıxış edən Azərbaycan mədəniyyət nazirinin müavini Fərid Cəfərov görkəmli şairin yaradıcılığının təbliğinə verdiyi töhfəyə görə TÜRKSOY-a təşəkkürünü bildirib. "Türk dünyasının birliyi və həmrəyliyi Bəxtiyar Vahabzadə yaradıcılığının mühüm ideoloji xətti olub", - deyən nazir müavini qeyd edib ki, azərbaycanlıların nəsilləri, o cümlədən Vahabzadənin yaradıcılığı sayəsində vətənpərvərlik ruhunda böyüyüb.

Nazir müavini Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ədəbiyyata və incəsənətə, o cümlədən Vahabzadə yaradıcılığına verdiyi dəstəyi xatırladıb. "Heydər Əliyevin Sərəncamı ilə Xalq şairi 1997-ci ildə Azərbaycan Respublikasının ali dövlət mükafatı - "İstiqlal" ordeni ilə təltif edilib", - deyə F.Cəfərov xatırladıb.

Fərid Cəfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması barədə Sərəncam imzalandığını və il ərzində dahi şairin yubileyinin geniş şəkildə qeyd olunacağını bildirib.

O, "Bəxtiyar Vahabzadənin Anım İli"nin elan olunmasını Xalq şairinin yaradıcılığına və ideallarına ehtiramın və diqqətin layiqli təzahürü kimi qiymətləndirib.

Türkiyə mədəniyyət nazirinin müavini Serdar Çam, öz növbəsində, Bəxtiyar Vahabzadənin yaşayıb-yaratdığı tarixin çətin dövrünə diqqət çəkib. "Bütün çətinliklərə və maneələrə baxmayaraq, o, vətənpərvərliyi, azadlığı, Türk dünyasına sevgini tərənnüm etməyə davam etdi və xalqının səsinə çevrildi", -deyə Çam vurğulayıb.

Nazir müavini qeyd edib ki, Azərbaycanın Xalq şairinin əsərləri bu gün də bütün türk xalqlarının nümayəndələrinin qəlbində öz əksini tapıb. O əlavə edib: "2020-ci ildə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışlarının birində Bəxtiyar Vahabzadənin "Torpaqdan pay olmaz" şeirini oxumuşdu. Biz ürəkdən şadıq ki, bu sözlər peyğəmbərcəsinə yerinə yetirildi və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğal olunmuş torpaqları azad etdi. Bu gün azad Şuşada xarıbülbül gülü çiçək açır".

Sonra çıxış edən Azərbaycanın Ankaradakı səfiri Rəşad Məmmədov Bəxtiyar Vahabzadənin fəaliyyətinin hər bir Azərbaycan vətəndaşı üçün əhəmiyyətini vurğulayıb və dövlətin görkəmli ziyalı nümayəndələrinin irsinin təbliğinə bundan sonra da töhfə verməyə hazır olduğunu bildirib.

Daha sonra türk mədəniyyətinin görkəmli şəxsiyyətinin həyat və yaradıcılığından bəhs edən film təqdim olunub.

Xalq şairi Sabir Rüstəmxanlı, Qafqaz Universitetinin (Qars) professoru Mihah Durmuş, Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, professor Əlizadə Əsgərli və Ankara Universitetinin dosenti Riza Heyetin iştirakı ilə panel müzakirələri olub.

Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "Türk dünyasının Bəxtiyarı" adlı elektron məlumat bazasının təqdimatı da olub.

Türkiyə paytaxtı ali məktəblərinin tələbələri görkəmli Azərbaycan şairinin şeirlərini oxuyublar.

Proqrama əsasən, Ankaradakı B.Vahabzadə adına orta məktəbdə "Bəxtiyar Vahabzadə və Azərbaycan" mövzusunda rəsm sərgisinin açılışı planlaşdırılır.

# Həftəbecər




Müğənni Şəbnəm Tovuzlunun "Xəbər axşamı" verilişində qonaq olarkən 1 milyon manata ev almağından danışması sosial şəbəkələrdə təəccüblə qarşılanıb və geniş müzakirələrə səbəb olub.

***P.S. Burada müzakirəyə və təəccübə səbəb olan nə var axı? Rəhmətliyin uşağı, Şəbnəm Tovuzlu həmişə deyib ki, onun sponsoru Həcidir. İndi nə deyirsiniz, Həcinin pulu yoxdur ki, Şəbnəmə 1 milyon manatlıq ev alsın? Həci müqəddəs adam olduğu üçün Allah ona həmişə yetirir. Adamın da sponsoru Həci olanda nəinki bahalı ev, hətta həmin evə gedib-gəlmək üçün "vertalyot"u da ola bilər. Nə qəribə insanlar var e, mən ölüm.***

***

Bu günlərdə DİN rəsmi məlumat yaydı ki, son vaxtlar vətəndaşların şəxsi bank kartlarından 22.5 milyon manat pullar oğurlanıb.

***P.S. Bəli, son vaxtlar əsasən "KapitalBank" və "Beynəlxalq Bank"da olan müştərilərin kartlarından külli miqdarda pullar oğurlanır. Banklar isə xaker hücumlarına görə cavabdeh olmadıqlarını deyirlər. Əlbəttə, bu münasibətə bişmiş toyuğun gülməyi gəlir. "Kəndxudanı gör, kəndi çap" prinsipi ilə yanaşsaq, bank əməkdaşlarının əli olmadan bu oğurluq baş verə bilməz. Xaker hücumlarını inkar etmirik. Xakerin bankla ələqəsi olmasa, bu qədər pullar oğurlana bilməzdi. Yaxud, DİN-nin Kiber Cinayətlərə Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları indiyə qədər oğrulardan heç olmasa birini tapardı. Tapmayıblarsa, onda yaşasın bank və xakerlərin birgə qardaşlığı!!!***

***

Ermənistanın sabiq prezidenti, Xocalı qatili Robert Köçəryan ötən həftə İrəvanda keçirdiyi mətbuat konfransında Qarabağdan könüllü gedən erməniləri geri qaytarmaqdan danışarkən belə deyib: "Ermənilərin Dağlıq Qarabağa qayıtması üçün yeganə mümkün görünən variant 9 noyabr 2020-ci il tarixli bəyanatdan yapışmaqdır".

***P.S.Ay sən öləsən, ac toyuq yuxusunda darı görən kimi, bu daşnak köpək oğlu da yuxusunda ermənilərin Qarabağa qayıtmağını görür. Adama deyərlər, a şərəfsiz, məgər qəbristanlığa gedən ölü bir də geri qayıda bilər? Amma sən də və sənin qardaşlığın Serj Sərkisyanla bir yerdə Xocalıda qırğın törədəndən sonra öz yurdunuz saydığınız Xankəndinə necə qayıda bilərsiniz? Amma ikiniz qayıtmalısınız... Dar ağacı sizi gözləyir. Çünki əlləriniz bizim xalqın qanına batıb. Amma qayıdarsınız. Özü də nəinki Xankəndinə, hətta Bakıya da gələ bilərsiniz. Bakıda DTX-nın zirzəmisində Araik, Ruben və başqa dostlarınız sizlərlə çay içmək üçün yaman darıxıblar. Onlara qovuşacağınız gün çox uzaqda deyil.***

***

Kinorejissor Ayaz Salayev Azərbaycanda rusdilli məktəblərin bağlanmasının əleyhinə çıxaraq, azərbaycandilli məktəbləri bitirənləri aşağılayıb. Deyib ki, rus bölməsini qurtaranlar Azərbaycan bölməsini qurtaranlardan daha savadlı, daha səviyyəli olurlar.

***P.S. Yazıq dilimiz, öz Vətənində az qala qaçqın, köçkünə dönüb. Sovet dövründə rus dili Azərbaycan dilini küncə sıxışdırmışdı. İndi isə ingilis dili hegemonluq edir. Biz rusdilli ola bilirik, ingilisdilli ola bilirik, moltanıdilli ola bilirik və s. Bəs görəsən nə vaxt öz kökümüzə qayıdıb, türkdilli olacağıq? Maraqlıdır ki, türkdilli dövlətlər sırasındayıq, amma türkdilli ola bilmirik. Mərhum şairimiz Söhrab Tahir "Azərbaycan" poemasında dilimizin başına açılan oyunlar barədə belə yazıb:***

**Dil dedim, fəryadım qalxdı təpəmdən,**
**Qədim dövlət dilim, şeriyyət dilim.**
**Xalqım öz dilindən mahnı deyəndən,**
**Neçə yol dilindən dara çəkilib.**

Allah sənə rəhmət eləsin şair! Elə bu gün də dilimizi dara çəkirlər...

***

ABŞ prezidenti Donald Tramp Ukrayna prezidenti Volodimir Zelenskini diktator adlandıraraq deyib: "Bir düşünün, yüksək dərəcədə uğurlu komediya ustası Volodimir Zelenski qalib gələ bilməyəcəyi və heç vaxt başlamamalı olduğu müharibə üçün ABŞ-ı 350 milyard dollar xərcləməyə inandırdı".

***P.S. İnandıra bilibsə, deməli, Zelenski ABŞ baş bilənlərindən daha ağıllıdır. Bu, bir. İkincisi, aktyorluğa qalsa, ABŞ prezidentlərinin bir neçəsi aktyor və saksafon çalan olub. Elə Trampın özü də gəncliyində aktyor olub. Üçüncüsü, müharibəni Zelenski yox, Putin başlayıb və müstəqil dövlət olan Ukrayna ərazisinə hücum edib. Dördüncüsü isə, bu "uğurlu komediya ustası" BMT-nin tribunasında çıxış edərkən, ABŞ və bütün dünya onu ayaq üstə alqışlayırdı. İndi Zelenski "pıkka" oldu? Ona görə ki, Zelenski Trampın 500 milyard dollarlıq Ukrayna sərvətlərini istəməsinə, haqlı olaraq "yox" dedi? Putinlə saat yarımlıq telefon danışığından sonra Tramp Zelenskini və Avropanı bu müharibədə tək qoymaq istəyir. Bu da ABŞ-ın ikiüzlü siyasətinin bariz nümunəsidir. Bununla da vaxtilə sovet KQB-nin "verbovka" etdiyi və "Krasnov" ləqəbli Tramp Putinlə anlaşaraq, bir biznesmen kimi qazancını Rusiyadan almağı düşünür. Artıq Amerika xalqı yavaş-yavaş hiss edir ki, iki pisdən birini seçdikləri Tramp ikiüzlü və işğalçılıq niyyətli çıxışları ilə onları dünyada biyabır edir. Allah, müəyyən bir yerinin qırmızısı sifətinə çıxmış Trampa, bir azca da ağıl versin ki, ədalət prinsipini itirməsin.***

***



Müğənni Təranə Qumral, müğənnilik edən qızı Qumral Musayeva ilə "Rəngarəng" verilişində qonaq olublar. Studiyaya hər ikisi çox bahalı üst geyimində gəldiklərini bildirən Təranə xanım belə deyib: "Qızımla mənim üzərimdə olan xəz kürklər çox bahalıdır".

***P.S. Bu yerdə S.Vurğunun "Vaqif" pyesində Tələxlə Qacarın səhnəsi yada düşür:***

***Qacar:***
***-Tələxək, kəmərimin qiymətidir bu.***
***-Tələxək:***
***-Şahım, məndə bilirəm bunu,***
***Kəmərdən qiymətli sizdə nə var ki?***

***İndi bu Təranə xanımın nə özünün, nə də qızı Qumralın heç bir səsi, sənəti olmadığından, belə demək olar: Təranə xanım, ana-bala əyninizdəki bahalı xəz kürklərdən başqa, sizdə qiymətli daha nə var ki?!***

***



Müğənni Nəfəs keçmiş həyat yoldaşından danışarkən "Bir gün" verilişində belə deyib: "Övladlarım keçmiş ərimlə məni barışdırmaq istəyirlər. Uşaqlarıma görə keçmiş həyat yoldaşımla normal münasibətimiz olub. Amma yenidən bir araya gəlmək fikrinə müsbət yanaşmıram".

***P.S. Ay Nəfəs xanım, çox doğru deyirsən, keçmiş qaldı keçmişdə. Sən Nəfəs xanıma bir sənət adamı kimi, hər dəfə yeni nəfəs lazımdır. Səhnə adamı, şou-əhli xanım, yeni nəfəs olmasa, nəfəs ala bilməz və səhnədə boğulub batar. Nəfəs xanım həmişə "sveji" nəfəs almalıdır ki, ilhamlanıb, yeni-yeni kliplər yaratsın. Şou-əhli xanımların nəfəsliyini bağlamaq olmaz.***

***

Müğənni Afət Fərmanqızı "Tik-Tok" hesabında həmkarlarından kimisə nəzərdə tutaraq, belə deyib: "Hansısa bir kişi sərxoş olub, pulla müğənnini görüşə çağırıb, o da



uşaq doğubsa, bu, əri demək deyil. Bunun adını araqdan yaranan ailə qoymaq olar. "Araq ər-arvadlığı".

***P.S. Mən bu Afət Fərmanqızının sənətini də, özünü də bəyənmirəm. Amma rəhmətliyin qızını bu sözlərinə görə alqışlayıram. İndiki şou-əhli xanımların ailə dedikləri nəsnəni çox dəqiq ifadə edib. Bəziləri, hətta uşağının atasının kim olduğunu belə bilmir. Məsələn, müğənni Səidə Dadaşova hələ 2015-ci ilin yayında bir sayta müsahibəsində, verilən suala cavab olaraq belə demişdi: "Uşağımın atası sürücüm Məhəmməd deyil. Övladımın atası hələ burada deyil. O, gələndə hər şeyə son qoyulacaq". Adama deyərlər uşağının atası məlumdursa, niyə adını demirsən? Şou-əhlinin 90 faizi bu yolla "ailə" qurublar. Əvvəllər xanımın gizli görüşüb oynaşdığı kişiyə "oynaş" deyirdilər, indi isə bu oynaş dönüb olub sevgili və belə sevgililərdən də uşaqlar dünyaya gəlir ki, bunun da adı, el dilində bicbaladır. Doğurdan da, elə belə ailələri elə "araq ər-arvadlığı" ailəsi adlandırmaq olar.***



**ELÇİN**
**elcinmemmedli58@gmail.com**


**Baş redaktor:**
**Asif Mərzili**

*Redaksiya heyəti:*
Bəxtiyar Vahabzadə
(www.Vahabzade.net)
Məmməd Araz
Nurəddin Rza
İlham Rəhimov
Yaşar Əliyev
Yusif Səmədov
Adil Minbaşı

Qəzet "Təzadlar"ın kompüter mərkəzində yığılıb səhifələnib.
Ünvan: Bakı, Mətbuat prospekti, 529-u məhəllə
Tel: 510-17-74
E-mail: tezadlar@gmail.com
www.tezadlar.az
TƏSİSÇİ: Redaksiyanın jurnalist kollektivi.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Yazılardakı faktlara cavabdeh müəlliflərdir. Əlyazmalar geri qaytarılmır.

Lisenziya: № B 216

"Təzadlar" qəzetinin hesab nömrəsi:
AZ80AIIB38070019441100467111
VÖEN: 1300456291

Bankın adı:
"Kapital Bank" ASC-nin 1 saylı Nəsimi rayon filialı
Kod: 200112
VÖEN: 9900003611
Müxbir hesabı:
AZ37NABZ01350100000000001944
SWİFT BİK: AIIBAZ2X
Tiraj: 2018
Çapa imzalanmışdır: 24.02.2025